Etibar Həsənzadə

Mən Şəhid olacam, ana!

Etibar HƏSƏNZADƏ

MƏN ŞƏHİD OLACAM, ANA

BAKI-2020

Kitab Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçmişdir. Şəhadətnamə №11789

Etibar HƏSƏNZADƏ. **MƏN ŞƏHİD OLACAM, ANA.**
"Bakı Mətbəəsi" ASC. BAKI-2020. 136 səh.

030
---------- qrifli nəşr
14122020

© Etibar HƏSƏNZADƏ.

ÖN SÖZLƏR

Gənc şair-publisist Etibar Həsənzadənin 2016-cı il aprel şəhidi Emin Bağırova həsr olunan "Mən şəhid olacam, ana" adlı bədii-publisistik üslubda yazılmış əsəri oxucularımızın ixtiyarına verilmək üzrədir.

Müəllif qələmə aldığı bu yığcam əsərdə Azərbaycan tarixinin qısa bir dövrünü, qısa olduğu qədər də, şərəfli bir dövrünü əhatəli şəkildə təqdim edə bilib. 2016-cı ilin aprel döyüşlərinin bugünkü zəfərimiz üçün "baş məşq" olduğu müddəasını gündəmə gətirib.

Etibar Həsənzadə Eminin şəhidliyə gedən yolunu işıqlandıraraq o yolun zirvəsini oxucuya əvvəlcədən göstərməyi bacarmışdır. Öncə şəhid Eminin formalaşdığı məktəb və ailə mühitlərini gözümüz qarşısında canlandırır: "Emin kiçik yaşlarından imam Hüseyn(ə)-ın qapısında böyüyüb. 6-7-ci siniflərdə oxuyanda bir nəfər şərqşünas ruhani adamdan din dərsləri aldı. O, oruc tutur, namaz qılırdı, məhərrəmlikdə imam məclislərində mərsiyə deyirdi. Qardaşı ilə birgə məscidə gedir, imam Hüseyn(ə)-a böyük məhəbbət və sevgi ilə əza saxlayırdı".

Bu məqamda Ulu Öndərin İslam tariximizdəki ibrətamiz, şanlı hadisələri çağımızla əlaqələndirərək keçmişimizi unutmamağa çağıran nitqləri ilə bir paralel, bir müqayisə şahidi oluruq: "Biz bundan sonra da Qurani-Şərifin, həzrət Məhəmməd(s.a.v) peyğəmbərin qoyduğu yol ilə gedəcəyik və haqq-ədalət, Vətən yolunda şəhid olmuş

həzrət imam Hüseyn(ə)-ın və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq".

Müəllif Eminin timsalında fiziki və ruhi cəhətdən bütün bir insan surəti yarada bilib. Və gələcəkdə Vətənin taleyinin məhz bu cür insanların əlində olması qənaətini aşılayır: "Ata, vaxt gələcək mən Olimpiya çempionu olacam, Prezidentimiz İlham Əliyev gəlib sənlə əllə görüşəcək".

Əsərdə kövrək sevgi notlarına da, poetik xalqın övladı Eminin şeirlərinə də xüsusi yer ayrılmışdır. Yağılara qarşı yönəlmiş qatı nifrətin kökündə duran məhz bu sevgidir. Eminin sevdiyi qıza ünvanladığı, oxuduqca insan ürəyinin tablaya bilmədiyi sətirlərdə müəllif estetik tablolar yarada bilmişdir: "Sevmə məni ay qız, mən əsgərəm, torpaq iyi gəlir məndən, baxma gözlərimə, düşmən kimi baxaram gözlərinə. Bir gün şəhid olub xəyallarını yıxaram". Yaxud "Gün gələr Bağırov bir tabuta qoyular, üzülmə, sevdiyim, üzərimdə şanlı, üçrəngli bayrağım".

Etibar Həsənzadənin "Mən şəhid olacam, ana" əsərində, bu lakonik dillə yazılmış əsərdə diqqətçəkən mühüm məqamlardan biri də çoxcəhətlilikdir. Elə bununla bağlı ədib kəşfiyyat haqqında biliklər toplayıb onu əsərin qayəsinə uyğun şəkildə oxucusuna təqdim edə bilir. "Kəşfiyyatçı" yarımbaşlığını türkün böyük oğlu Rəcəb Tayyib Ərdoğandan sitat gətirməklə başlayır: "Tarixi mübarizədə kəşfiyyat kilid silahdır".

Müəllifin Vətən sevgisiylə qələmə aldığı bu əsər 2016-cı il apreldən bugünkü zəfər gününədək şəhid olanlar və

qazilər, eləcə də xidməti borcunu ləyaqətlə yerinə yetirən çoxsaylı hərbçilər haqqında ensiklopedik məlumat kitabı təsiri bağışlayır.

Bu əsər vasitəsilə tutduğu mövqedən, yaşından, təhsil səviyyəsindən asılı olaraq hər bir oxucu öz mənəvi dünyasını zənginləşdirə bilər: hər kəs – ürəyi atlanan, sevgi burulğanında, Vətən yolunda şəhid olmağa can atan gənc də, ordu və ordunun strukturu barədə məlumata yiyələnmək istəyən gənc kursant da, şəhidlik nədir və onun bədii cizgilərini tapmağa çalışan vətəndaş da, şəhidlərə dövlət qayğısını həyata keçirmək vəzifəsini yerinə yetirən dövlət qulluqçusu da.

Əsər boyu doğma torpağımızın hər bir qarışı haqqında topoqrafik məlumatları da ala bilərik.

Son olaraq onu deyə bilərəm ki, Böyük Allahdan (Allah ki, ölçüyə sığmaz) bəndəyə verilən hisslərin ən yaxşılarını (kövrəklikdən düşmənə nifrətədək, əsgər hünərinə heyranlığadək, şəhidliyə qibtəyədək və s.) bu əsərdə tapmaq mümkündür.

Ədib Etibar Həsənzadəyə bu şərəfli yolda qələmini süngüyə çevirib yaddaşımızı ovxarlı, kəsərli, iti saxlamağa kömək edən əsərinə görə təşəkkür edir və gələcəkdə şeir dilində şəhidlərimizə ithaflar gözləyirik.

Nağdəli Zamanlı,
ATU-nun dosenti.
Tibb üzrə fəlsəfə doktoru
AMEA Nəsimi adına
Dilçilik İnstitutunun dissertantı

***

Etibar Həsənzadənin "MƏN ŞƏHİD OLACAM, ANA" kitabının əlyazmalarını oxuyanda bir anlıq özümdə düşündüm və belə qənaətə gəldim ki, bu yazarın yazdıqları genişşaxəli bir nəsr dünyasıdır. Eyni zamanda bu əsər yuxusuz gecələrin, gərgin axtarışların göz yaşlarının bəhrəsidir. Xüsusi ilə dil-üslub xüsusiyyətləri çox xoşuma gəldi. Əsərin süjet xətti məni valeh etdi. Mən həmişəki kimi yazarın yazılarını oxuduqca onun nəsr dünyasında tutduğu yolu açıq və aydın gördüm. Onun yazdığı povestdə şəhidlərə yanğı ilə dolu bir ürəyin çırpıntısını hiss etdim. Mənə elə gəlir ki, yazarın bu yanğı ilə yazdığı mövzu hər bir gənc üçün bir məktəbdir. Hər bir gənc bu povesti oxuduqca şəhidliyin *müqəddəsliyini* duyur, və bu ülvi hisslərlə yaşayır, özündə məsuliyyət hiss edib müqəddəs olan şəhidliyin zirvəsinə çatan hər bir insanın vətənə olan sədaqətini və vətəni ana sayıb onun yolunda ölümə getməyi bacaran hər bir vətən oğlunu anlayır, bu yolda ona oxşamaq istəyir. Emin Bağırovun şəhid olmağını qələmə almaqla yazar bütün şəhidlərə olan ehtiramını, gənclərin vətənə olan sevgisini ifadə etmişdir. Bu yolda yazara müvəffəqiyyətlər arzu edirəm.

Qələmin iti olsun, Etibar.

Vidadi Ağdamlı,
İrak-Türkmən və Azərbaycan Yazıçılar Birliyinin Üzvü, Şair-publisist,Qızıl Qələm, Xəlil Rza Ulutürk, Ziyadar, Vintsas, Dövrün vətənpərvər ziyalısı mükafatçısı.

Emin Bağırovun ruhu göyün yeddinci qatındadır

"Bağırov Emin İmran oğlu 1996-cı il iyulun 15-də Bakının Binəqədi kəndinin Dağlılar məhəlləsində dünyaya gəlib. Kirov qəsəbəsindəki (05.10.1999-cu ildən adı M.Ə.Rəsulzadə qəsəbəsidir) Məlikov adına xəstəxanada doğulub. Emin doğulandan sonra həkim Əzizə xanım (Alı Mustafayevin qaynanası) dəhlizə çıxdı və Eminin nənəsi Xatunzadə xanıma dedi ki, sənin bir oğlan nəvən doğuldu. Mən onu türklər kimi bələyib üzü üstə anasının sinəsi üstə qoydum. Xatunzadə xanım çox sevindi, həkimə və tibb bacılarına təşəkkürünü bildirdi". - Emini türklər kimi bələdilər ki, o da türk oğlu kimi şəhid oldu.

Tanınmış yazar, prezident təqaüdçüsü Etibar Həsənzadə Emin Bağırovla bağlı əsərini yollayanda birnəfəsə oxudum. ŞƏHADƏTİN MÜBADƏK EMİN! - dedim. Etibar Həsənzadə bu mövzuya toxunmaqla bir daha sübut etdi ki, vətənpərvər yazardır. "Mən şəhid olacağam, ana" kitabı ilə Etibar Həsənzadə bir daha şəhidlərimizin ruhuna hörmət edərək, qələmə söykənərək, aylarla yazdığı əsəri tamamladı. Yəqin Emin Bağırovun ruhu da şad oldu. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub və mən inanıram ki, bu kitab stolüstü kitaba çevrilməklə bərabər eyni zamanda dərsdən əlavə oxu kimi məktəblərdə istifadə olunacaq. Geniş oxucu kütləsi qazanacaq və kitabxanalarımızda şəhidlərimizə ayrılmış xüsusi guşələrdə saxla-

nılacaq. Şəhidlərlə bağlı keçirilən tədbirlərdə öz xüsusi yeri olacaq.

Mən isə Emin Bağırovu şəhadətindən sonra və cəsarətli qələm sahibi olan Etibar Həsənzadəni rəhbərlik etdiyim "Qafqaz-Media" İctimai Birliyinin təsis etdiyi "İlhamlı Azərbaycan" döş nişanı və eyni adlı medalla mükafatlandıracam.

Etibar, uğurların bol olsun.

Emin Bağırov, Şəhadətin Mübarək!

Vətən oğlu, Məkanın Cənnət olsun.

Hacı Azadə-Taleh Abbasqızı
"Qafqaz-Media"İB-nin sədri,
prezident təqaüdçüsü,
ANASANIN Azərbaycan təmsilçisi

GİRİŞ

Hərb tariximizin şanlı qəhrəmanlıq salnaməsi – Aprel döyüşləri

Böyük Zəfərin Başlanğıcı

Aprel döyüşləri və ya Dördgünlük müharibə 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq 257 km uzunluğunda olan təmas xəttinin şimal-şərq, şərq və cənub-şərq sahələrində Azərbaycan Silahlı Qüvvələri ilə Ermənistan Silahlı Qüvvələrinin Qondarma Dağlıq Qarabağ Respublikasındakı hərbi birləşmələri arasındakı müharibədir. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumata görə 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu Azərbaycan mövqeləri və yaşayış məntəqələri Ermənistan Silahlı Qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qalıb.

Cəbhənin ən gərgin Ağdərə -Tərtər - Ağdam və Xocavənd - Füzuli istiqamətində yerləşən birliklər, artilleriya bölmələri və digər qoşun növlərinin birgə, əlaqəli fəaliyyəti nəticəsində qısa müddətdə Ermənistan silahlı bölmələrinə qarşı cavab tədbirləri həyata keçirildi.

Formalaşmasında Azərbaycan Prezidenti və Ali Baş Komandanı İlham Əliyevin böyük xidməti olan Şanlı və Qüdrətli Ordumuz 1-4 aprel tarixlərində düşmən erməni birləşmələrinə sarsıdıcı zərbələr endirdi. Aprel dö-

yüşləri Dağlıq Qarabağda 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan sonra ən şiddətli döyüşlər idi. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmişdi. Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, Cocuq Mərcanlı kəndi azad olunmuşdu. Ordumuz düşmənin 22 ildir keçilməyən "Ohanyan səddi"ni keçib Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Seysulan kəndini, Qazaxlar kəndini, Goranboy rayonunun Gülüstan kəndini düşməndən azad etmişdi. 4 gündə Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altında olan 2 min hektardan çox ərazisi azad edilmişdi. Ağdərə - Suqovuşan (Madagiz) və Cəbrayıl istiqamətindəki yollara nəzarət təmin edilmişdi.

Lələtəpə yüksəkliyinin azad edilməsinin strateji əhəmiyyəti ondadır ki, cənubda Horadiz şəhəri, ətraf kəndlər, dəmiryol stansiyası və avtomobil yolları, Araz çayı boyu Cəbrayıl və Füzuli rayonları istiqamətində bəzi kəndlər düşmənin açıq hədəfi olmaq təhlükəsindən qurtardı və düşmən işğalı altında olan geniş ərazini nəzarət altında saxlamaq imkanı əldə edildi. Azərbaycan silahlı qüvvələri hərəkətə keçəcəyi təqdirdə çox asanlıqla işğal altında olan Cəbrayıl və Füzuli rayonlarını işğaldan azad edə bilər. Prinsip etibarı ilə aprelin 1-i və 2-də baş verən proseslər o istiqamətdə inkişaf edirdi. Bunu başa düşən ermənilər və onların havadarları diplomatik rıçaqları işə saldılar və bunun da nəticəsində proses dayandı. Azərbaycan ordusu bir neçə saata Füzulini tam işğaldan azad etmək iqtidarında idi, buna imkan verilmədi. Füzuli işğaldan azad ediləndən dərhal sonra Cəbrayıl, Zəngilan, Qubadlı da işğaldan azad ediləcəkdi.

Talış kəndi ətrafındakı yüksəkliklərin azad olunması hesabına Tap Qaraqoyunlu kəndi düşmənin hədəfi olmaqdan xilas edildi və ordumuz yüksəkliklərdə yeni mövqelər əldə etməklə bu istiqamətdə düşmənin hərəkətini məhdudlaşdırmağa nail oldu.

Talış kəndi ətrafındakı strateji yüksəkliklərin azad edilməsi şimal istiqamətində Goranboy rayonu və Naftalan şəhərini düşmən tərəfin yarada biləcəyi təhlükədən qurtardı.Talış yüksəkliklərinin bizim ordumuzun nəzarətində olması həm Tərtər istiqamətinə, həm də keçmiş Ağdərə rayonuna nəzarət etməyə imkan yaradır. Talışın şimal yüksəklikləri Azərbaycan Ordusunun nəzarətində, cənub tərəfi isə ermənilərin nəzarətində qaldı. Talış kəndinin özü Azərbaycan Ordusunun müşahidə və atəş nəzarətinə keçdi. Ortaya diplomatik qüvvələr düşməsə idi, hər iki istiqamətdə, ordumuz işğal altında olan torpaqlarımızı tam olaraq geri qaytara bilərdi.

Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Vaqif Dərgahlının verdiyi məlumata görə, Aprel döyüşlərində Ermənistana məxsus 320 döyüşçü məhv edilmiş və 500-dən artıq döyüşçü yaralanmışdır. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarılmışdır, Suqovuşan (Madagiz) yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi hissələri məhv edilmişdir.

Müdafiə Nazirliyinin yaydığı məlumata görə, hərbi

əməliyyatlar zamanı Silahlı Qüvvələrimizin 88 hərbi qulluqçusu şəhid olub, 32 yaşayış məntəqəsi bombalanıb, 2-si uşaq olmaqla 6 mülki şəxs ölüb, 26 nəfər ağır yaralanıb.

Aprel döyüşləri zamanı Ermənistan yetəri qədər terrorçu qruplardan istifadə edib. Terrorçu qrupların hərəkətlərindən onların dağ landşaftında xüsusi təlim keçmələri açıq-aşkar müşahidə olunub.

Aprelin 5-də hər iki tərəfin razılığı və beynəlxalq qurumların müşahidəsi ilə yenidən atəşkəs müqaviləsi imzalanmışdır. Amma, Ermənistan tərəfi atəşkəs imzalanandan bir neçə saat sonra onu dəfələrlə pozmuşdur.

23 ildən sonra qəhrəman döyüşçülərimiz xalqımıza qələbə sevinci yaşatdı. Bu qələbənin əsas səbəbi dövlətin əsgər və zabitlərə qayğısı, əsgər və zabitlərimizdə döyüş ruhunun, vətənpərvərlik hissinin yüksək səviyyədə olması və xalqımızın ordu ilə monolit birliyi idi.

Ötən müddət ərzində işğaldan azad olunan ərazilərdə, o cümlədən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində təmir-bərpa işləri aparılıb, orada yeni qəsəbə salınıb, ata-baba yurdlarından didərgin salınan insanlar geri dönüblər. Cocuq Mərcanlıda təhlükəsiz həyat şəraiti bərpa olunub. Cəbhənin bir addımlığında yerləşən Cocuq Mərcanlıda yaradılmış yüksək infrastruktur və qaçqınlarımızın yenidən orada yerləşməsi ermənіyə göz dağı olub. Onlar hesab edirdilər ki, Azərbaycan işğalla barışıb və müharibənin üstündən uzun illər keçdiyindən işğal olunan ərazilərə qayıdan olmayacaq. Aprel döyüşləri

ermənilərə sübut etdi ki, öz doğma yurdlarından qaçqın düşmüş soydaşlarımız hər zaman Dağlıq Qarabağa qayıtmağa hazırdır, sadəcə, zamanı gözləyirlər.

Azərbaycan dövləti öz hüququndan istifadə edərək, işğal altındakı torpaqların azad edilməsi istiqamətində möhkəm qətiyyətini ortaya qoydu. Azərbaycan ordusu Ermənistana bir daha sübut etdi ki, Qarabağı hərb yolu ilə əldə saxlaya bilməyəcək.

Sirr deyil ki, Azərbaycanın hərbi arsenalı DGR MO və Ermənistan silahlı qüvvələrinin silahlarından üstündür.

4 günlük müharibə Azərbaycan hərb tarixində növbəti qələbə səhifəsi açdı. **Aprel döyüşlərindən sonra cəmiyyətdə vətənpərvərlik və şəhidlik əhval-ruhiyyəsi canlandı. Ölkədə hər kəs əlinə silah götürüb müharibəyə getməyə hazır idi. Hamı inanırdı ki, torpaqlarımızın geri qaytarılması yalnız müharibə yolu ilə mümkün olacaq.**

Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərdi. Döyüşlər bir daha dünyaya göstərdi ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq, qüdrətli ordumuz hər zaman torpaqlarımızı düşmənlərdən təmizləməyə hazırdır və qadirdir.

Aprel döyüşləri düşmən üzərində əldə olunacaq Böyük qələbənin başlanğıcı oldu və Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan Silahlı Qüvvələrinin (ASQ) döyüş hazırlığını, müasir silahlardan istifadə bacarığını nümayiş etdirdi. 4 günlük müharibə xalqımızda

ASQ-yə dərin inam və güvənc hissi yaratdı. Aprel döyüşlərinin əsas əhəmiyyəti ondadır ki, uzun illərdən sonra düşmən üzərində mənəvi-psixoloji üstünlük qazanıldı.

2016-cı il aprelin 6-da Bakıda minlərlə gənc cəbhə bölgəsindəki əsgərlərə dəstək məqsədilə küçələrə çıxdılar və Şəhidlər xiyabanından Fəvvarələr meydanına kimi yürüş etdilər. Orduya dəstək kampaniyaları həm də Azərbaycanın bütün şəhərlərində keçirildi.

2016-cı il aprelin 4-dən 17-dək Dünyanın bir çox şəhərlərində yaşayan azərbaycanlılar - Amerika Birləşmiş Ştatlarının Vaşinqton, Çikaqo və Nyu-York şəhərlərində, Avstraliyanın Kanberra şəhərində, Almaniyanın Berlin və Düsseldorf şəhərlərində, Ukraynanın Kiyev şəhərində, İtaliyanın Roma şəhərində, Latviyanın Riqa şəhərində, Litvanın Vilnüs və Kaunas şəhərlərində, Niderland Krallığında, Danimarkanın paytaxtı Kopenhagendə, Türkiyənin İstanbul və Kayseri şəhərlərində, Dağıstan Respublikasının Dərbənd şəhərində, Rusiyanın Sankt-Peterburq şəhərində, Gürcüstanın Tbilisi və Qori şəhərlərində, İsveçin paytaxtı Stokholmda, Fransanın paytaxtı Parisdə, Şotlandiyanın ən böyük şəhəri Qlazqoda, Cənubi Koreyanın paytaxtı Seulda, Böyük Britaniyanın paytaxtı Londonda, Polşanın Varşava şəhərində, Belçika krallığının paytaxtı Brüsseldə, Kanadanın Toronto şəhərində, İsrailin Netanya şəhərində, Çexiyanın paytaxtı Praqada Ermənistan səfirlikləri və parlament binaları qarşısında, şəhər meydanlarında ordumuza dəstək, işğala etiraz aksiyaları keçiriblər.

2016-cı il aprelin 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Azərbaycan Silahlı Qüvvələrinin 3 üzvü "Azərbaycanın Milli Qəhrəmanı", 7 üzvü "Azərbaycan Bayrağı" ordeni, 1 üzvü 2-ci dərəcəli və 4 üzvü 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 19 üzvü "Vətən uğrunda" medalı, 43 üzvü "İgidliyə görə" medalı, 45 üzvü "Hərbi xidmətlərə görə" medalı, 2 üzvü "general-mayor" ali hərbi rütbəsi ilə mükafatlandırılıb.

Aprel döyüşlərindən 4 il vaxt keçsə də, hələ də xalqımız Azərbaycan Ordusunun şücaətini, yenilməzliyini, qəhrəmanlığını iftixar hissi ilə yad edir. Bu baxımdan yazarlarımızın üzərinə düşən vəzifə müasir tariximizi-məğlubiyyətlərimizi, zəfərimizi gələcək nəslə olduğu kimi çatdırmaq, milli qəhrəmanlarımızı, şəhidlərimizi gələcək nəslə tanıtdırmaqdır. Tarix boyu azadlıq mücahidləri olan igidlərimizin, Vətən torpaqları uğrunda canını fəda edən şəhidlərimizin xatirəsi unudulmamışdır, biz də unutmayacağıq, gələcək nəsillərin unutmaması üçün də çalışacağıq.

Var olsun Bütöv Azərbaycan! Qarabağ Azərbaycandır!

MƏN ŞƏHİD OLACAM, ANA

Aprelin ikisi idi. Emin atasına zəng etdi:

- Ata, eşitmiş olarsan, qalibiyyət, uğur bizim tərəfdədir. Düşməni torpaqlarımızdan qovmuşuq, Lələtəpəni almışıq, 1-2 günə evə qayıdıram. Narahat olma, hər şey əladır.

Telefonda səs-küy çox idi. İmran kişi nə qədər sual versə də, heç nə eşitmədi, əlaqə kəsildi. Sonrakı günlərdə də Eminlə heç cür əlaqə yarada bilmədilər.

Bağırov Emin İmran oğlu 1996-cı il iyulun 15-də Bakının Binəqədi kəndinin Dağlılar məhəlləsində dünyaya gəlib. Kirov qəsəbəsindəki (05.10.1999-cu ildən adı M.Ə.Rəsulzadə qəsəbəsidir) Məlikov adına xəstəxanada doğulub. Emin doğulandan sonra həkim Əzizə xanım (Alı Mustafayevin qaynanası) dəhlizə çıxdı və Eminin nənəsi Xatunzadə xanıma dedi ki, sənin bir oğlan nəvən doğuldu. Mən onu türklər kimi bələyib üzü üstə anasının sinəsi üstə qoydum. Xatunzadə xanım çox sevindi, həkimə və tibb bacılarına təşəkkürünü bildirdi. Evə gələndən sonra Vəzirxan kişi oğlu İmrana dedi:

- İmran, bir gözəl qızın olub.

İmran kişi gülümsədi:

- Ay ata, nə fərqi var, qız ya oğlan, təki sağlam və xeyirli övlad olsun.

Emin ailənin üçüncü və sonbeşik övladı idi, adını babası Vəzirxan kişi peyğəmbərin Əmin ləqəbinə uyğun olaraq Emin qoydu. Mənası möhkəm, qırılmaz, əyilməz, iradəli, mətin deməkdir. Vəzirxan kişi Emini öpdü və dedi

ki, inanıram, zaman gələcək bizim Eminimiz ona verilən adı şərəflə yaşadacaq. Bizim nəslimizdə nə qorxağımız, nə də namərdimiz olub.

Emin atası ilə bir gündə dünyaya gəlib. Atası ona bildirməsə də, hər zaman diqqəti ancaq onda idi.

Binəqədi kəndinin insanları sadə, qonaqpərvər, mehriban, zəhmətkeş və əməksevərdirlər. 1988-ci ildə Ermənistandan, doğma yurd-yuvalarından qovulan və Azərbaycana pənah gətirən soydaşlarımıza sahib çıxmış, sığınacaq vermiş, əllərindən gələn köməyi etmişdilər. Belə insanlardan biri də Vəzirxan kişi olub. Vəzirxan kişi əslən Xızının Tüdar kəndindən olsa da, özü Binəqədi kəndində anadan olub, orta məktəbi burada bitirib, Binəqədi Neft şirkətinin qarajında çilingər işləyib. Az sonra dayısı qızı Xatunzadə ilə evlənib, üç oğlu, bir qızı olub. Vəzirxan kişi halal zəhmətlə dolanmış, uşaqlarına bir tikə də haram çörək yedirtməmişdi. Balaları da özləri kimi namaz qılan, oruc tutan, Allahı sevən insanlardır. Eminin atası İmran Vəzirxan kişinin böyük oğludur.

İmran kişinin beş nəfərdən ibarət ailəsi uzun illər təmirsiz, suvaqsız, 2 otaqlı darısqal mənzildə yaşamışlar. İmran 30 il əvvəl ailə quranda bu mənzili atası ona hədiyyə eləmişdi. Bu kiçik evdə üç uşaq doğulub, boya-başa çatıb. Çətinliklərlə övladlarını böyütdüklərinə görə evi təmir etdirməyə gücləri çatmayıb.

Emin nadinc olsa da, çox cəsur, zirək və yaxşı uşaq idi, ata-anasını, nənə-babasını çox istəyirdi. O, oynamaq üçün müxtəlif cür silahlar düzəldər, yanına da Azərbaycanın bayrağını qoyardı. Qardaşlarının da, özünün də ən

çox sevdiyi oyuncaqlar tapança, avtomat, tank, pulemyot və müxtəlif maşınlar idi. Üzlərinə Azərbaycan Bayrağının şəklini çəkib döyüşə gedən əsgərlər kimi sıraya düzülər, əsgərlər kimi addımlayar, bir-biri ilə dava-dava oynayardılar.

Valideynləri onlara Vətən sevgisi aşılayır, onları vətənpərvər ruhda böyüdürdülər - millətini, bayrağını, Vətənini və onun sərhədlərini qorumağı öyrədirdilər. Vətən eşqi uşaqlıqdan onun qanına-canına necə hopmuşdusa, kiçik toyunda əsgər marşı çalınanda Emin otaqda balaca əsgər kimi addımlamışdı.

1988-ci ildən bu günə qədər müharibə şəraitində yaşayan ölkəmizin, qaçqın və köçkünlərimizin çətin həyatı, Vətən həsrəti, Ermənistanla sərhəd rayonlarımızdan hər gün gələn atışma xəbərləri onların döyüş ruhunda böyüməsinə səbəb olmuşdu. O, həmişə valideynlərinə və qardaşlarına deyirdi ki, görəcəksiniz, mən böyüyəndə necə qəhrəman olacam.

Uşaqlar hər gün namazda böyüklərinin "Allahım, Vətənimizin torpaqlarını qaytarmaq üçün əsgərlərimizə, ordumuza güc ver, onlara yardım et", kimi dualarını eşidirdilər.

Nənəsi Xatunzadə xanım hər dəfə bazarlığa gedəndə Eminə deyərdi:

- Emin, sənə nə alım?

Emin sevincək cavab verərdi:

- Can nənə, mənim üçün avtomat, tapança və bayraq al.

İstədikləri olmayanda da, bayrağın şəklini çəkib velosipedinə bağlayardı. O, 5-6 yaşında bütün hərfləri bilirdi. Valideynləri böyük qardaşları Yaqubu və Xanəhmədi öyrətdikcə, o da öyrənirdi.

İsti bir yay günü idi, Eminin 5 yaşı olardı, onlara yaşlı bir adam qonaq gəlmişdi, ağıllı, savadlı adam idi, həyətdə oturmuşdular. Kişi əvvəlcə Yaqubu və Xanəhmədi sorğu-sual etdi, sonra isə Emini. Emin bütün suallara düzgün cavab verdi. Kişi dedi ki, bu uşaqdan hökumət adamı olar – ya prokuror, ya hakim.

5 yaşından bəri Eminin ən yaxın dostu Vüsal idi, eyni gündə dünyaya gəlmişdilər. Uşaq vaxtı ya onların, ya Vüsalgilin bağını «dağıdanda» Eminin babası Vəzirxan kişi onları qabağına qatardı. Uşaqların hamısı qaçardı, ancaq Emin cəsarətlə kişinin qarşısında dayanardı ki, baba, vur ürəyin soyusun. Emin kinli deyildi, çox ürəyi təmiz oğlan idi.

2003-cü il idi, Eminin 7 yaşı vardı, nənəsi ilə anası əlindən tutub 182 saylı məktəbə aparanda çox sevinirdi. Digər uşaqlar kimi anasının arxasınca ağlamırdı. Onu Sevda müəllimin sinfinə götürdülər. Sinfin bütün şagirdləri Sevda müəllimi çox sevirdilər. Evdə deyirdi ki, hamının stolunun üstündə bayraq var, mənin də stolumun üstündə mütləq bayraq olmalıdır. Emin elə ilk günlərdən sinifdə digər şagirdlərdən seçilirdi – bacarıqlı idi, güclü zehni, yaddaşı, səlis danışığı, məntiqi vardı. Həmişə dərsdə birinci əl qaldırardı ki, dərsə cavab versin. Müəllimi deyərdi ki, Emin, bilirəm sən hazırsan, amma qoy başqa

uşaqlar da danışsın. Məktəbdə fəal uşaqlardan biri idi, çox tədbirlərdə iştirak edirdi. Tədbirlərdə həmişə şeirləri müəllim ona verirdi. Yaxşı oxuduğuna və çox qabiliyyətli olduğuna görə müəllimləri də onu çox istəyirdilər. Bir gün müəlliminə dedi ki, müəllim, mənim arzum hərbçi olmaqdır, mən əsgər olacam.

Emin böyük qardaşı Yaqubdan 3 yaş balaca olmasına baxmayaraq, boyca ondan hündür idi, hər yerdə bərabər olar, məktəbə, 3-4-cü siniflərdən isə idmana bərabər gedirdilər. Emin istəyirdi ki, hər yerdə birinci olsun. Məktəbdə də çox nailiyyətləri olmuşdu. Çox vaxt onları bir-birindən seçə bilmir, adlarını səhv salırdılar, yalnız onları tez-tez görənlər seçə bilirdilər. Məktəbin direktoru Zinyət xanım Tağıyeva da onların adlarını səhv salırdı.

Sevda müəllim ildə bir neçə dəfə uşaqları ekskursiyaya aparar, görmədikləri yerlərdə gəzdirər, dünyagörüşlərini artırardı. Sabahki dərsdə isə gördüklərini və öyrəndiklərini onlardan soruşardu.

Emin dərslərini yaxşı oxuyurdı, şəkli şərəf lövhəsinə vurulmuşdu. O, 4-cü sinfə qədər əlaçı olub. Güclü aktyorluq qabiliyyəti var idi. İlk çıxışı birinci sinifdə oxuduğu zaman məktəbdə keçirilən tədbirdə "Dəcəl uşaq" rolu idi. Emin o rolu çox uğurla oynadı. Sonralar isə bir neçə tamaşada baş rolda oynadı. 4-cü sinifdə oxuyanda Gənc Tamaşaçılar Teatrında şah rolunu ona verdilər. O, hündür və arıq olduğuna görə qarnına yastıq bağladılar. Şahın vəzirini oynayan uşaq isə kök oğlan idi. Məşqlərdən sonra evə gələndə, Emin tamaşa haqqında, oynadığı rol

haqqında ağızdolusu nənəsinə danışdı. Nənəsi Xatunzadə xanım Emindən soruşdu:

- Ay Emin, nə yaxşı şah rolunu bu kök oğlana verməyiblər, sənə veriblər?

Emin güldü:

- Ay nənə, o oğlan bu qədər söz-söhbəti mənim kimi düzüb-qoşa bilməzdi ki. O, ancaq mənim buyurduqlarımı yerinə yetirir. Şahın rolunun mətni çox olduğu üçün mənə veriblər.

Məşq zamanı direktor Zinyət müəllimə arıq, çəlimsiz Emini şah paltarında görüb gülə-gülə Sevda müəllimə:

- Bundan şah olmaz, - dedi.

Tamaşadan sonra isə Eminin ifasından razı qalıb gələn qonaqların yanında ona xoş sözlər söylədi, yazılı Tərifnamə də verdi. Bir qədər sonra isə "Qaraca çoban" roluna görə də Emin Tərifnaməyə layiq görüldü.

Emin Gənc Tamaşaçılar Teatrında da uğurlu çıxışlarına görə dəfələrlə diplomlarla təltif olundu, onun haqqında qəzetdə geniş məqalə də verdilər Məktəbin direktoru da, müəllimləri də onu çox istəyirdilər. Məktəbi bitirənə qədər Emin bir çox tədbirlərdə fəal iştirak etdi.

Emin kiçik yaşlarından İmam Hüseyn(ə)-ın qapısında böyüyüb. 6-7-ci siniflərdə oxuyanda bir nəfər şərqşünas, ruhani adamdan din dərsləri aldı. O, oruc tutur, namaz qılırdı, məhərrəmlikdə imam məclislərində mərsiyə deyirdi. Qardaşı ilə birgə məscidə gedir, orada İmam Hüseyn(ə)-a böyük məhəbbət və sevgi ilə əza saxlayırdılar.

2009-cu il idi, Emin qardaşı Yaqubla İnqilab küçəsindəki Zenit İdman Klubuna getdi, güləş və kikboksla məşğul olmaq istədiyini bildirdi. Yaqub isə o klubda güləşlə məşğul olurdu. Emin məşqlərə vaxtlı-vaxtında gedirdi, gecikməyi xoşlamırdı. İdmana o qədər aludə olmuşdu ki, əlavə məşqlərə də qalırdı. Məşqçi - Azərbaycanın tanınmış boks ustası Ceyhun Rüstəmov döyüş texnikasını daha yaxşı mənimsəmələri üçün onları rayonlara, şəhərlərarası klub yarışlarına aparır, təcrübə toplamaqlarına lazım olan şəraiti yaradırdı. Uğurları da olurdu, uğursuzluqları da. Emin beş il məşq elədi. Nəhayət, 2012-ci ildə boks üzrə Şirvan şəhər açıq birinciliyində 69 kq çəkidə 1-ci yerə layiq görüldü. 2012-ci ildə Bakı şəhərində "Gənclik" Tələbə İdman Cəmiyyəti AzTU-nun İdman klubunda "Qurban bayramı"na həsr olunmuş "Kikboks" idman növü üzrə ənənəvi turnirdə 3-cü yerə çıxdı. Məqsədlərindən biri Olimpiya çempionu olmaq idi. Məşqlərdə müəllimi deyirdi ki, sən qardaşından yaxşı məşq edirsən. O, çox ürəkli, güclü, şən və səmimi oğlan idi. Həmişə istəyirdi ki, Azərbaycanın bayrağını yüksəklərə qaldırsın, bacarırdı da. 2013-cü ildə uşu-sanda üzrə Azərbaycan çempionu oldu. Çoxlu idman dərəcələri var idi. 2014-cü ildə "Uşu" idman növü üzrə Binəqədi Rayon Gənclər və İdman idarəsinin "Arktika" idman klubunun açıq birinciliyində 3-cü yerə layiq görüldü. Ümumilikdə Emin idmanın 7 növü ilə məşğul olub: kikboks, cüdo, sambo, sərbəst və klassik güləş, uşu-sanda və boks. Hamısında da yüksək nailiyyətlər qazanıb, diplomlarla mükafatlandırılıb. Ze-

nit İdman Klubunda, Gilan İdman Klubunda, Binəqədidə uşu-sanda üzrə mükafatlar alıb.

İmran kişi onun qazandığı bütün uğurlara sevinir və onunla fəxr edirdi. Həmişə övladlarına deyirdi ki, torpağı qorumaq imandandır, torpağı hamı qorumalıdır. Onlara öyrədirdi ki, kim olursunuz olun, amma Vətənə xeyirli övlad olun.

Dostu Vüsal Məmmədov Eminlə bir məktəbdə, paralel sinifdə oxuyurdu. Emin heç vaxt, heç harda dostunu tək qoymazdı. Nə vaxt dostunun bir çətinliyi olsa, maddi cəhətdən olmasa da, mənəvi cəhətdən ona kömək edir, təsəlli verirdi. Nəinki onu, digər dostlarını da heç vaxt darda qoymamağa çalışırdı.

Məktəbdə dərslər bitəndən sonra məhlənin qızlarını evlərinə ötürərdi ki, yolda, izdə söz deyən olmasın.

Emin 15-16 yaşlarında olardı, bir gün televizorda Xocalı hadisələrinə baxırdı. Alçaq ermənilərin qansızlığından, erməni quldurlarının törətdikləri vəhşiliklərdən dəhşətə gəlmişdi. Günahsız insanların, körpə uşaqların necə amansızlıqla qətlə yetirildiklərini görüb hirslə dedi:

- Bilirsiz mən onlara neyləyərəm?

Anası kədərlə ona baxdı:

- Sən onlar kimi olmazsan, sən uşaqlara qıymazsan, Emin.

- Elə deyil, ana, inşaallah görəcəksən mən xalqımızın hayfını bu quldurlardan necə alacam.

Günahsız tökülən qanlar, ana-bacılarımızın ah-nalələri, türk qanı içməyə dadanmış ermənilərin törətdikləri

vəhşilikləri öyrəndikcə, Emin hərbçi olmağa qərar verdi. Günahsız qurbanların qisasını alıb, azğın erməni quldurlarını doğma torpaqlarımızdan qovub, canından çox sevdiyi üçrəngli Azərbaycan bayrağını işğaldan azad edəcəyimiz doğma vətən torpaqlarında yüksəldəcəyinə and içdi.

9-cu sinifdə oxuyanda Emin sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə vermək istəyirdi. Atası dedi ki, oğlum, sən yaxşı oxu, sənədlərini ali məktəbə ver, yəqin ki, qəbul olarsan.

Emin 9-cu sinfi bitirmişdi, yay tətili idi, bir mağazaya işə girdi ki, özünün xərclərini ödəsin. Payızda dərslərin başlanması ilə əlaqədar mağazadan işdən çıxanda mağaza sahibi İmran kişiyə dedi:

- Ay İmran, Emini işdən çıxarma, ikiqat maaş verim qalsın. O gələndən mağazanın bərəkəti, ruzisi artıb.

İmran kişi gülümsədi:

- Səni başa düşürəm, qardaş, amma olmaz, incimə, Emin məktəb oxumalı, təhsilini davam etdirməlidir.

Emin 10-cu sinifdə oxuyanda Əlibayramlıda boks yarışında qalib oldu, amma hakim haqsızlıq edib, öz qohumunu qalib etmək istədi. O, hakimə etiraz edib, rinqdən çıxmadı və təkrar döyüş tələb etdi, döyüşüb, nakautla qalib oldu. 11-ci sinifdə oxuyanda isə hərbi tədbirdə 1-ci yerə çıxdı. Rəsul Rzanın yubileyində onun bir şeirini çox təsirli söyləmişdi: "Mən ürəyəm, döyünməsəm ölərəm". Bu şeirə görə onu çox alqışlamışdılar. Çox şirindil, şən, zarafatcıl oğlan idi, həmişə gülərüz olardı. Bir dəfə atasına dedi:

- Ata, vaxt gələcək, mən Olimpiya çempionu olacam, Prezidentimiz İlham Əliyev gəlib səninlə əllə görüşəcək. Atası gülümsədi:

- Ay oğul, sən çempion ol, qoy elə Prezidentimiz səninlə görüşsün, səni təbrik eləsin.

Emin 11-ci sinifdə oxuyanda evlərinin yaxınlığında özlərinin kiçik bir mağazaları var idi, vaxt olduqca orada işləyir, qardaşı Yaquba kömək edirdi. Mağazaya gələn sinif yoldaşları ilə söhbət zamanı deyirdi ki, görəcəksiz, mən əsgərliyə gedəcəm və şəhid olacam.

2010-cu ildə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov Türk dünyasında unudulmaz qəhrəmanlıq dastanı yazdı. O, təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçib Ermənistan Silahlı Qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilmədən birinci həmlədə məhv etdi. Sonra isə düşmənin öz silahlarını özünə qarşı istifadə edərək 5 saat onlarla təkbətək döyüşdü. Düşməni ağır itkilərə məruz qoyub, onların zəif cinahlarını üzə çıxardı. Mübariz səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid oldu. Mübariz İbrahimov uşaqlarımızın yaddaşında əsl qəhrəmanların canlı obrazını yaradaraq, Türk dünyasının əfsanə qəhrəmanı oldu. Adını qəhrəmanlıq səhifəmizə qızıl hərflərlə yazdı. Mübarizin şəhadətindən sonra gənclərimizdə vətənpərvərlik hissləri birə-beş çoxaldı. Onun qəhrəmanlığının şahidi olan gənclərimiz o ideallarla yaşayırdı. Vətənini sevən hər bir oğul Mübariz kimi qəhrəman olmaq istəyirdi...

Mübarizin şəhadətindən sonra Eminin hərbiyə marağı daha da artdı. Emin də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun şəklini mağazanın divarına vurmuşdu. Mübarizi özünə ideal seçmişdi, onun kimi qəhrəman olmaq istəyirdi. Özünün İnstaqram səhifəsində yazırdı ki, "Hər ana dünyaya əsgər gətirə bilər. Amma, yalnız Azərbaycan qadınları dünyaya Mübariz kimi qəhrəmanlar gətirər".

Anası deyəndə ki, cənnət anaların ayağı altındadır, Emin deyirdi ki, ana, gəl ayaqlarının altından öpüm.

Emingilin ailəsi halallıqla dolanan ailədir, heç vaxt kiçik dükanlarındakı mallarına haram qatmazdılar. Evdə hamı Allaha ibadət etdiyinə görə dükanda spirtli içki satmırdılar. Alver zəif olsa da, Allaha asi deyildilər, şükür edirdilər.

Emin 2014-cü ildə 182 saylı məktəbi bitirib, sənədlərini 4-cü qrupa, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına verdi, amma balı çatmadığına görə qəbul ola bilmədi. Gəlib Zinyət xanıma dedi ki, müəllim, sizə söz verirəm, əsgərlikdən gələn kimi hazırlaşıb təkrar imtahan verəcəm. Atası çox istəyirdi ki, Emin universitetə daxil olsun. Amma qismət belə imiş.

Emin hələ əsgərliyə getməmiş bir gözələ vurulmuş, sirrini də nənəsilə bölüşmüşdü:

- Can nənə, əsgərliyə gedib-gəlim, evlənəcəm, səni də özümlə aparıb saxlayacam.

- İnşaallah, ay Emin, təki sənin toyunu görüm.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Binəqədi

rayon İdarəsindən Azərbaycan ordusunda hərbi xidmət etmək üçün çağırış vərəqi gələndə Emin çox sevindi.

Atası ona dedi:

- Oğlum, gəl razı ol, səni hərbidən bir il saxladım, hazırlaş gələn il sənədlərini təkrar ali məktəbə ver. Emin inadla:

- Yox, ata, gedəcəm, saxlama məni. Əgər məni saxlatmağa çalışsan, gedib komissara deyəcəm ki, atam məni əsgərliyə getməyə qoymur.

O, 2014-cü ilin payızında – oktyabrın 8-də hərbi xidmətə getdi. Valideynləri onu hərbi xidmətə yola salanda Emin gülə-gülə hamı ilə görüşürdü. Baxmayaraq ki, ailəsi birinci dəfə idi ki, əsgər yola salırdı, atası İmran kişi özünü o qədər də sıxmırdı. Emin onun boynunu qucaqlayıb dedi:

- Ata, narahat olma, xidmətimi kişi kimi başa vurub gələcəm. Əsgərlikdə Mübariz kimi olacam, onun kimi döyüşəcəm.

Sonra nənəsi ilə görüşdü:

- Nənə, mən sənə həmişə demişəm - torpaqlarımızı alıb, sonra şəhid olacam.

- Elə demə, nənən qurban, torpaqlarımızı al, amma şəhid olma. Emin, qurban olum sənə, nigaranam səndən.

- Canım nənəm, sən heç narahat olma, hərbi xidmətimi Lənkəranda edəcəm.

Emin dostu Vüsalı qucaqladı:

- Sözüm sözdü, Vüsal, qismət olar torpaqlarımızı alıb gələrəm, olmasa da, inşaallah şəhid olaram.

- Qardaş, belə şeylər danışma, sağ get, salamat qayıt.

Emin anasının boynunu qucaqladı:

- Mən şəhid olacam, ana, sən şəhid anası olacaqsan, amma ağlamayacaqsan.

- Bala, mənə elə dağ çəkmə, sənsiz necə yaşayaram? Anan qurban, gördün müharibədir, sən arxa cəbhədə qal.

- Ana, sən nə danışırsan, belə hərəkət mənə yaraşmaz, əgər müharibə olsa, bil ki, mən öndə gedəcəm. Mənim üçün ağlama, mən getməyim, başqası getməsin, bəs Vətənimizi kim qorusun?

Sədaqət xanım elə düşündü ki, uşaqdır da, sözgəlişi deyir.

Dayısı qızları ilə görüşəndə isə dedi ki, dua edin, mən şəhid olum. Gedəndə bütün ailə onu fəxrlə yola saldı. Emin gülə-gülə dedi:

- Bax görəcəksiz, tək siz yox, bütün Azərbaycan mənimlə fəxr edəcək...

Emin onu yola salanların hamısı ilə görüşüb, yola düşdü.

Emin əsgər gedəndən sonra əmisi telefonunda bir səs yazısı görüb dinlədi və əsəbləşdi. Emin hərbi xidmətə getməmişdən qabaq marketlərində bir gün işləmişdi. Əmisinin müvəqqəti ona verdiyi köhnə telefona bir səs yazmışdı: "Mən Bağırov Emin oktyabrın 8-də əsgər gedəcəm, inşaallah şəhid olaram".

Yaqub əmisinin əsəbiləşdiyini görüb soruşdu:

- Əmi, nolub?

Əmisi:

- Heç nə, uşaq-uşaq danışır da, - deyib, səs yazısını sildi.

İlk 3 ayı Emin Lənkərandakı N saylı hərbi hissədə kəşfiyyatda nümunəvi xidmət etdi. Noyabrın 24-də özünün instaqram səhifəsində belə bir stat yazmışdı:

Eşit, ey millət!
Olsa da çətin,
alacam tökülən hər qanın əvəzin...
Ağdam, Şuşa, Kəlbəcər, Laçın...
Qoymaram torpağımız ermənidə qalsın...
Üç rəngli bayraq,
Bu ana torpaq,
Ümidim Allah,
Qarabağı alacaq,
Bu Emin vallah!!

Eminin yaxın dostu Səmədov Cavidin danışdıqlarından:

"Emin haqqında çox danışaram, nə qədər danışsam, bir kitaba sığmaz. Onunla ilk 3 ay Lənkəranda bir yerdə xidmət eləmişik. Bu 3 ay 3 ilə bərabər idi, çox yaxın olmuşuq, ən yaxın dostum idi. Emin ilk gəldiyi gündən mülki paltarda tribunaya çıxmışdı, ilk gün mülki paltarda olan əsgərləri sıraya düzdü, sıranı apardı-gətirdi.

Mülkidə tanıdıqlarımdan ən çox sevdiyim, dəyər verdiyim oğlan idi. Emin həmişə zəiflərə kömək olurdu, yəni əsgərlik zamanında həmişə ən zəif uşaqlara arxa-dayaq olurdu. Emin heç vaxt qorxmurdu, onun gözündə qorxu

yox idi, qarşısındakı güclüdü ya zəifdi fərqinə varmazdı. Qarşısındakı güclü olanda da heç nəyi gözə almırdı, qorxmurdu, yəni qorxaqlıq ümumiyyətlə onun qanında olmayıb. Emin heç vaxt döyüşdən qorxmurdu. Mülki həyatdan söhbət edəndə deyərdi ki, mən şəhid olacam.

Bizim arzumuz var idi ki, bir yerə düşək, bir yerdə xidmət eliyək, kəşfiyyata bir yerdə gedək, əsgərliyi bitirəndən sonra qalaq kəşfiyyatda. Ondan sonra iki qardaş Vətənimiz üçün çox şey eliyərik. Elə oldu ki, Emin getdi, mən gedə bilmədim. O getdi kəşfiyyata, N saylıya, ordan da Yaşmaya apardılar.

Emin həmişə irəliyə baxan olub. Bizdə bir kəşfiyyatçı zabit var idi, çox güclü və adlı-sanlı kəşfiyyatçı idi, bizim tabor komandiri idi. Ona baxırdıq, deyirdi ki, mən də onun kimi kəşfiyyatçı olacam. Yarı zarafat edər, yarı lağ edərdik, deyər-gülərdik. Biz yeməyi bir qabdan yeyərdik, adicə soğan-çörək belə bizim ikimizə xoş olub. Bütün sirlərimizi bir-birimizlə bölüşmüşük. 11 il bir yerdə oxuduğum uşaqlardan Emin mənə daha çox yaxın olub. O, ölümün gözünə dik baxıb... Heyif şəhidlik bizə qismət olmadı".

Emin Lənkərandakı hərbi hissədə hərbi andı qəbul eliyəndə atası özü ilə pul götürüb getdi hərbi hissəyə. Andiçmə mərasimi bitəndən sonra o Eminə yaxınlaşdı və dedi:

- Oğlum, hara yaxşıdı səni ora saldırım.

Emin narazı halda cavab verdi:

- Ata, bax burdakı uşaqları görürsən, hamısı mənim

dostlarımdı, bizim hamımızı yaxşı yerə saldıra bilərsən?

- Yox, ay oğul, mənim o qədər imkanım yoxdur.

- Mən onların heç birisindən artıq deyiləm, onlarla bir yerdə xidmət edəcəm.

Hərbi andı qəbul eliyəndən sonra Emin xidmətini Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə kəşfiyyatda davam etdirdi.

KƏŞFİYYAT

R.T.Ərdoğan: "Tarixi mübarizədə kəşfiyyat kilid silahdır"

Kəşfiyyatı olmayan dövlət və millət məhvə məhkumdur

Kəşfiyyat - düşmənin yerini və qüvvəsini müəyyən etmək üçün əsgəri qrup tərəfindən aparılan əməliyyatdır.

Kəşfiyyat – siyasi mövqelərə təqdim edilmək üzrə toplanmış və təhlil edilmiş izləmsel və ya taktika məzmunlu işlənmiş məlumatlara deyilir. Kəşfiyyat - birləşdirilmiş, qiymətləndirilmiş, təhlil edilmiş, şərh olunmuş və ayırd edilmiş məlumatdır.

Bir başqa ifadə ilə kəşfiyyat - planlaşdırma, araşdırma, dəlillər toplama, müxtəlif təcrübə və elmi metodlar ilə onları qiymətləndirərək bir nəticə əldə etmə və onlardan istifadə fəaliyyətlərini içinə alır.

Xəbərin, məlumatın və sənədin toplanması kəşfiyya-

tın idarə edilməsi üçün kafi deyil. Əldə edilən qaynağın sistemli bir şəkildə işlənməsi lazımlıdır. Qaynaq doğru bir şəkildə dəyərləndirilməyəndə yanıldıcı nəticələrə yol açа bilər.

Müasir dünyada dövlətin və Silahlı Qüvvələrin həyat və fəaliyyətini Hərbi kəşfiyyatın mövcudluğundan kənar təsəvvür etmək çətindir. Müharibənin hücum və müdafiə olaraq müvəffəqiyyətlə planlaşdırılması üçün dövlətin ən yüksək siyasi və hərbi rəhbərliyinin strateji məlumatlar əldə edə biləcək kəşfiyyat orqanına daim ehtiyacı var. Tətbiq sahəsinə görə hərbi kəşfiyyat yerüstü, hava, dəniz, kosmik kəşfiyyata, yerinə yetirdiyi vəzifələrin xarakterinə görə agentura, xüsusi, artilleriya, mühəndis, radiasiya, kimyəvi, bioloji, topoqrafik, hidroqrafik, hidrometeroloji, texniki və təminat kəşfiyyatına, istifadə edilən texniki vasitələrin tərkibindən asılı olaraq isə radioelektron və optik elektron kəşfiyyata bölünür.

Hərbi kəşfiyyat 3 sinfə bölünür:

1. Strateji kəşfiyyat silahlı qüvvələr və qoşun növləri tərəfindən aparılır.

2. Operativ kəşfiyyat cəbhə, ordu, korpus və onlara ekvivalent birləşmələr tərəfindən aparılır.

3. Taktiki kəşfiyyat isə diviziya, briqada və alay tərəfindən aparılır.

Kəşfiyyat məlumatlarından asılı olaraq döyüşün taktika və strategiyası müəyyənləşdirilir, döyüş planlaşdırılması aparılır.

Hazırda bir çox müasir vasitələr, o cümlədən RLS-lər,

pilotlu və pilotsuz vasitələr kəşfiyyat məlumatlarının əldə edilməsində aktiv rol oynayır. Birbaşa kəşfiyyatın aparılması üçün nəzərdə tutulan cihaz və avadanlıqların siyahısı da kifayət qədər genişlənib.

Kəşfiyyatçıları orduya qəbul etməzdən əvvəl seçirlər, kimliyini təyin edirlər. Haradasa 100-200 nəfərin içindən bir neçə nəfər kəşfiyyata seçilir. Hər adam kəşfiyyatçı ola bilməz.

Kəşfiyyatçı döyüşün taleyini həll edir. Təcrübə göstərir ki, kəşfiyyat məlumatları istənilən döyüş əməliyyatlarının uğurlu təşkilində və az itki ilə başa çatdırılmasında mühüm rol oynayır. Kəşfiyyatçılıq son dərəcə çətin və məsuliyyətli olmaqla, hərbçidən yüksək vətənpərvərlik, mənəvi-psixoloji, fiziki hazırlıq tələb edir. Bu şərəfli vəzifəni yerinə yetirən əsgər xüsusi təlim keçməli, dərin hərbi biliklərə malik olmalı, komandanlığın əmri əsasında düşmənin yerləşdiyi məkan, eləcə də onun hərbi texnikası, qoşun növü, hərbi qüvvələrinin dislokasiyası, silahları barədə ən çevik, dəqiq və operativ məlumatları toplamağa çalışmalıdır. Təcrübəli kəşfiyyatçı bəzən günlərlə düşmənin bir addımlığında olur, onun hərbi planlarını, atəş mövqelərini öyrənməyə çalışır.

Gənc kəşfiyyatçılar günün müəyyən hissəsini təlim-məşq prosesinə - fiziki hazırlığa, idmana sərf edir, əlbəyaxa döyüş növlərini mənimsəyir, odlu silah olmadan belə düşmənə layiqli cavab vermək əzmində olduqlarını nümayiş etdirirlər.

Kəşfiyyatçı son dərəcə ekstremal və təhlükəli rejimdə

işlədiyindən onun fiziki cəhətdən hazırlıqlı olması vacib şərtlərdəndir. Bu baxımdan kəşfiyyat taboruna seçim zamanı əsgərlərin hərtərəfli hazırlığına xüsusi diqqət yetirilir. Müasir döyüş əməliyyatlarının aparılmasında kəşfiyyat bölüyünün üzərinə mühüm vəzifələr düşür. Kəşfiyyat bölmələrinin şəxsi heyəti ilk olaraq düşmən haqqında düzgün məlumatları toplayan bölmələrdir. Onlar düşmən bölmələrinin ehtiyatlarını, komanda məntəqələrini, komanda müşahidə məntəqələrini, onun texnikasının dislokasiyası haqqında məlumatları toplayır. Buna görə də döyüşün taleyini məhz kəşfiyyat zamanı toplanmış məlumatlar müəyyən edir. Çox hallarda onlar düşmən arxasında gizli şəkildə fəaliyyət göstərirlər. Hərbi əsirlərin ələ keçirilməsi, düşmənin hərbi obyektlərində təxribat-diversiya əməliyyatlarının, basqınların təşkili, düşmən hərbçilərinin çaşqınlıq və xof içində saxlanılması müasir dövrdə kəşfiyyatın əsas vəzifələrindəndir. Əvvəllər belə yanlış fikirlər mövcud idi ki, kəşfiyyatçılar yalnız fiziki cəhətdən güclü hərbçilərdən çıxa bilər. Müasir hərb elmi sübut edir ki, kəşfiyyatçı nəinki fiziki cəhətdən, hətta mənəvi cəhətdən də güclü olmalı, eyni zamanda yüksək intellekti, zəkası, məntiqi ilə seçilməlidir. Çünki kəşfiyyat bölüyündə xidmət edən hərbi qulluqçular çox ekstremal vəziyyətlərə düşürlər.

Kəşfiyyatçılar görünən cəbhənin görünməyən döyüşçüləridir. Onlar ordunun görən gözləri, eşidən qulaqları, vuran əlləridir. Onlar ən cəsur insanlardır. Kəşfiyyatçıların gətirdikləri məlumatların hesabına düşmənin bütün

niyyətlərini əvvəlcədən bilmək mümkündür.

Qrup düşmən arxasına piyada, döyüş və ya digər nəqliyyat vasitələri ilə, paraşüt və ya desant üsulu ilə hava vasitələri ilə, sahil istiqamətlərində isə donanma vasitələri ilə göndərilir. Kəşfiyyat qrupu tərəfindən kəşfiyyat aparılmasının əsas metodu müşahidədir, lakin zərurət yarandıqda, yuxarı komandanlığın icazəsi ilə digər metodlardan da istifadə edilə bilər.

Kəşfiyyatçının birinci növbədə psixoloji hazırlıqları olmalıdır. Bu onun özündə formalaşmalıdır. Burada həyəcanlanmaq söhbəti ola bilməz. Kəşfiyyatçı ürəkli olmalıdır. Kəşfiyyatçının 5 təməl vəzifəsi vardır: müşahidə, axtarış, basqı, pusqu, izləmə.

***

Emin boy-buxunu, cüssəsi və idmançı olması ilə əsgərlərdən fərqlənirdi. O, xidmət etdiyi müddətdə də dəfələrlə Yaquba yazırdı ki, mən şəhid olacam, Mübariz kimi qəhrəman olacam. Əsgər yoldaşları və komandirləri ona boksyor deyirdilər. Atası İmran kişi, əmiləri yanına gedib-gələndə onlara da deyirdi ki, "mən bilmirəm ki, bəzi oğlanlar niyə deyir ki, əsgərlik pisdir, ağırdır. Allaha and olsun ki, əsgərlikdən gözəl xidmət ola bilməz". Sonra da onlara öz uğurlarından danışırdı.

Ailədə İmran kişidən başqa heç kimdə cib telefonu yox idi. Əsgərliyin ilk vaxtlarında Emin tez-tez dostlarının telefonu ilə öz şəkillərini çəkib bibisinə göndərirdi ki, bunları yadigar saxla. Bibisi də bundan çox təsirlənirdi. Bir

dəfə də bibisinə yazdı ki, mən şəhid olacam. O da Eminin anasına dedi ki, uşağa denən belə deməsin.

Bir gün dostu Vüsal watsapda ona yazdı ki, əsgərlikdən məmnunsan? Emin:

- Şəhid olana kimi yox.

- Allah arzuna catdırsın, qardaş.

Əsgərlikdə olduğu müddətdə sosial şəbəkədəki profillərində tez-tez şəhid olmaq haqqında statuslar yazırdı. Anasına xitabən yazırdı ki, "ölsəm ağlama, şəhid anası ağlamaz, mən ölsəm sən şəhid anası olacaqsan".

Bir müddət sonra hər yerdə birinci olmaq istəyən Eminin vətənpərvərliyi, cəsarəti, verilən tapşırıqları heç bir çətinlik çəkmədən yerinə yetirməsi hərbi hissə komandirinin diqqətini çəkdi. Orduda nümunəvi xidmətinə görə onu iki dəfə məzuniyyətə buraxdı. Emin məzuniyyətə gəldi, qohum-əqrəba, qonum-qonşu, dostları görüşməyə gəldilər. Bir gün anası onu qucaqladı və kədərlə dedi:

- Emin, sən niyə bibinə belə yazmısan?

Emin güldü və anasının boynunu qucaqladı:

- Ana, bax, görəcəksən, mən şəhid olacam, sən də şəhid anası olacaqsan, bu səni kədərləndirməsin.

O, hər dəfə məzuniyyətə gələndə məktəbə gedər, müəllimləri ilə görüşərdi.

Hərbi xidmətinin 8-ci ayında, hərbi hissəyə Xüsusi Təyinatlı Qüvvələrə (XTQ) əsgər seçməyə gəlmişdilər. İdmançı uşaqları seçib XTQ-ə aparırdılar. Emin nə qədər israr etsə də, onu 8 ay xidmətdən qəbul etmədilər, dedilər

ki, bir ay da xidmət elə sonra gəlib səni apararıq.

Bir gün atası ilə danışanda dedi ki, Xüsusi Təyinatlı Qüvvələr bölüyünə yazılmaq istəyirəm. Atası bu xəbəri qürur və sevinclə qarşıladı. Oğlu yolun ən çətinini, peşənin ən şərəflisini seçmişdi.

Xidmətinin doqquz ayı tamam olandan sonra XTQ-yə seçimlərdə 500 nəfərin arasından 25 nəfər seçildi ki, bunlardan biri də Emin idi.

Bir gün Emin atasına zəng elədi ki, Xırdalanın dairəsindəyəm gəlin, mənə yemək, filan da gətirin. Ailəsi elə bilirdi ki, o Beyləqandadır. Atası ilə Yaqub getdilər, özləri ilə bir az da yemək, filan apardılar. Emingil 4 nəfər idilər - iki komandir, bir əsgər və Emin. O, atasına dedi ki, mənə halallıq ver, Xüsusi Təyinatlılara yazılmışam. Atası fəxrlə onu qucaqladı və qorxu bilməyən, cəsur oğluna xeyir-dua verdi. Onlar yola düşdülər.

XÜSUSİ TƏYİNATLI QÜVVƏLƏR

XTQ Azərbaycan Respublikası Müdafiə Nazirliyi Baş Qərargahının tabeçiliyində olub, zabit və gizirlərdən ibarətdir. Azərbaycanda 30 aprel 1999-cu ildə yaranıb.

XTQ-yə zabitlər Ali Hərbi Akademiyadan və Milli Ordu sıralarında xidmət edən zabitlərdən seçilir. Gizirlər isə əsgərlik müddətinin bitməsinə 6 ay qalmış əsgərlərdən və Milli Ordu sıralarında olan, müddətdən artıq xidmət edən hərbi qulluqçulardan və gizirlərdən seçilir. Vəzifələ-

ri kəşfiyyat və əks-kəşfiyyatdır. Şüarları – Sədaqətim Şərəfimdir, dostun üçün göz yaşı, ailən üçün tər, Vətən üçün qan tök. Rəngləri - qırmızı, mavidir.

Seçimlərdə ilk növbədə insanın tərcümeyi-halına baxılır. Yəni, kimdir, haradandır, ailəsi necədir? Bundan sonra fiziki hazırlıq, idman göstəriciləri yoxlanılır. Çünki, idman əsas şərtlərdən biridir. Xüsusi Təyinatlı Qüvvələrə yalnız könüllüləri götürürlər, sonradan onları sorğudan keçirirlər. Əsas tələblərdən biri də xarici dil bilməsidir.

Yaxın qohumları məhkum olan şəxslər, özü və yaxın qohumları xarici ölkədə dövlət işində işləmiş şəxslər, kriminal işlərə qarışmış şəxslər Xüsusi Təyinatlı ola bilməz.

XTQ elə bir yerdir ki, orada bilik, bacarıq, istedad, fərasət tələb olunur. XTQ ölkəmizin ən güclü qoşun növüdür. Çünki lazım olan vaxtı bütün qoşun növlərinin funksiyasını yerinə yetirir

XTQ-də xidmət etmək üçün 6 ay müddətində təşkil olunmuş kursu keçməlisən. Bu kurslarda böyük dözümlülük və cəsarət tələb olunur. Bu kursu keçə bilən XTQ-yə qəbul olunur. Azərbaycanın ən güclü qoşun növü sayılan bu quruma qəbul olunmaq elə də asan başa gəlmir. Bura gələn 500 nəfərdən çətin mərhələlərdən sonra, hər seçimdə 30-40 nəfər şəxs kursda qalır. "Qirmizi beret" sertifikatını qazanmaq isə 180 günlük əziyyətinin bəhrəsini görmək deməkdir.

Kurs ərzində onlara havada, quruda, suda, səhrada, dağda, meşədə döyüş hazırlığı və digər təlimlər keçilir. Bundan əlavə dənizdə, quruda desantlaşma, vertolyotda

desantlaşma, paraşüt atlayışları sınaqdan keçirilir. İstənilən hava şəraitində, istənilən ərazidə döyüş qabiliyətini yüksək saxlamaq əsas şərtlərdəndir. Bu kurslarda kursantlar xüsusi əməliyyat keçirmək üçün ekstremal şəraitə öyrədilir. Tibb kursu keçirlər. Döyüş vaxtı yaralandıqlarında özlərinə və yaxud da yaralı vəziyyətdə olan döyüş yoldaşlarına ilk tibbi yardım göstərə bilirlər. Qaçış, paraşütlə tullanma, atəş hazırlığı, taktiki ixtisas hazırlığı və əlbəyaxa döyüş xüsusi təyinatlı üçün təlimlərin əsas elementləri hesab edilir. XTQ-nin 24 saat davam edən döyüş hazırlığında vacib məqamlardan biri də şəxsi heyəti yaxşıların ən yaxşısı, cəsurların ən cəsuru olduğuna inandırmaqdan ibarətdir. Dözüm, qətiyyət, rəqibə qarşı aqressivlik və yüksək intelekt XTQ-yə xas olan əsas keyfiyyətlərdir.

Bədən tərbiyəsi, əlbəyaxa döyüş, atəş, taktiki-xüsusi hazırlıq fasiləsiz davam edir. Hər ay bir dəfə döyüşçülərin psixikası və dözümlülüyü sınaqdan keçirilir.

Fiziki hazırlıqdan başqa, kursantların stressə dözümlülüyünə xüsusi diqqət yetirilir. Stressə dözümlülük gündəlik həyatda yuxu, yemək, istirahət, ünsiyyət, müstəqillikdən məhrumiyyət vasitəsilə inkişaf etdirilir.

Onlar suda və quruda ekstremal şəraitdə həyatda qalmaq və döyüş aparmaq bacarıqlarını mənimsəyirlər. Hücum və müdafiə dəstələri düşmənin ön və arxa cəbhəsində ildırım sürətli kəşfiyyat-diversiya, axtarış-xilasetmə əməliyyatları və antiterror xarakterli əməliyyatlarda ixtisaslaşırlar. Belə əməliyyatlar suda, quruda, dağlarda,

meşələrdə, səhrada, şəhər və qəsəbə şəraitində də aparıla bilər.

Polad əsəblərə, yüksək fiziki hazırlığa, sərrast atıcılığa, bir neçə xarici dil biliyinə və intellektual səviyyəyə malikdirlər. XTQ-də xidmət etmək üçün fiziki güc, cəsarət, Vətənə sevgi, ata-anaya hörmət, millət sevgisi, istək, səbir, aclığa dözum, nəfsinə hakimlik, düşmənə nifrət, qorxmazlıq, dözüm, telepatik güc, öldürməyi bacarmaq, güclü yaddaş, diqqət, sağlamlıq, cəldlik, dəqiqlik, soyuqqanlılıq və ən əsası agıllı olmaq lazımdır. Qətiyyən həssas olmayacaqsan, qarşındakı uşaq, qadın və ya qoca olsa belə acımayacaqsan.

Onlara müxtəlif heyvanların ətini yeməyi, hər hansı ağrıya dözməyi, müxtəlif silahlardan istifadə qaydasını, bombaların hazırlanmasını və s. öyrədirlər.

Konkret olaraq real döyüş şəraitində olurlar. Burada heç kimə güzəşt yoxdur. Bir nəfərin səhvi ümumi dəstənin məhvi deməkdir. Yəni, XTQ üzvünün səhv etməyə haqqı yoxdur.

Kursun sonunda "Cəhənnəm həftəsi" olur. "Cəhənnəm həftəsi" - komandoların fiziki və əqli imkanları həddində yaşadığı yeddi gündür, həddindən artıq çətin bir sınaq həftəsidir, kursantların sinir sistemini və mənəvi durumunu sınağa çəkir. Kursantlar günlərlə ac və susuz qalırlar. Təkcə bıçaqla kimsəsiz meşəyə və ya adaya buraxılan komando bir həftə ərzində ilan, qurbağa və s. əldə etdiyi qidanı yeməklə yaşamaq uğrunda mücadilə aparmalıdır. Bu, komandonun gələcəkdə istənilən şəra-

itə uyğunlaşması, əsl komando olması üçün çox vacibdir.

Xüsusi Təyinatlılar universal əsgərlər olur. Onların da içində döyüş isitiqamətində xüsusi hazırlanmış birliklər olur ki, onlar həmin istiqamətdə daha aktiv fəaliyyət göstərirlər, daha peşəkar olurlar. XTQ-nin düşdüyü hər vəziyyətə uyğun devizləri var: "Əsir düşmə, görünmədən gör, ölmədən öldür". XTQ üzvü olmaq başqa zövqdür. Seçilmişlərdən ibarət dəstə bir orduya bərabərdir. İstər şəhid, istərsə də yaralı olsun geridə heç kimi buraxmırlar.

Azərbaycanın Xüsusi Təyinatlı qoşunlarının formalaşdırılmasında da Türkiyənin rolu böyük olub. Bu gün Türkiyənin İzmir və Foçadakı xüsusi təyinatlı məktəblərində onlarla Azərbaycan zabiti təhsil alır. Bordo berelilər digər komando birliklərindən hazırlıqları, təlim və bacarıqları ilə fərqlənirlər. Kurslarda «bordo bereli» olmaq istəyən namizədlərə hərbi təlimlər, əlbəyaxa döyüş, uzaqdan kəşfiyyat, düşmən arxasına keçmə, tanıma, həyatda qalma, qaçış, atəş hazırlığı, psixoloji hazırlıq, paraşüt, amfibiya, qeyri-nizami döyüş və s. aşılanır.

Azərbaycan Xüsusi Təyinatlılar şərti olaraq bu hissələrə bölünürlər:

- Müdafiə Nazirliyi tabeliyində olan elit xüsusi təyinatlılar (Turan, Yarasa, Kobra və s.)
- Hərbi-dəniz qüvvələrinin 641saylı Dəniz Əməliyyatları Dəstəsi (NavySEALs)
- Daxili Qoşunların hərbi hissələr üzrə xüsusi təyinatlıları.(Pələng, Vaşaq, Kobra, Bəbir, Gürzə və s.)
- Daxili İşlər Nazirliyi Xüsusi təyinatlı polis dəstələri

- Milli Ordu Kəşfiyyat-Diversiya Dəstələri (hərbi hissə üzərinə)
- Milli Təhlükəsizlik Nazirliyi "Qartal" xüsusi təyinatlıları
- Xüsusi Dövlət Mühafizə Xidmətinin xüsusi mühafizə bölükləri

Xüsusi Təyinatlı Qüvvələr taktiki kəşfiyyatın tətbiq etdiyi üsulların hamısından, lakin fərqli dərinlikdə və fərqli məqsədlərlə istifadə edə bilər. Onları fəaliyyət əhatəsinə görə şərti olaraq 3 yerə bölmək mümkündür:

1. Kəşfiyyat əməliyyatları - düşmən haqqında məlumat əldə etmək, vacib obyektlərin koordinatlarını müəyyənləşdirmək, atəş və raket zərbələrini yönəltmək, strateji obyektləri və düşmənin hücum vasitələrini məhv etmək, radiotexniki kəşfiyyat və radioelektron mübarizə aparmaq;

2. Diversiya əməliyyatları - üsyançı və ya partizan hərəkatını təşkil etmək, təxribat və diversiya törətmək. Diversiya - zərbə vurulacaq yerdən düşmənin fikrini yayındırmaq üçün aparılan hərbi əməliyyatdır;

3. Xüsusi əməliyyatlar - düşmənin yeni silah nümunələrinin, hərbi texnikasının, vacib sənədlərinin ələ keçirilməsi, görkəmli siyasi, dövlət və hərbi xadimlərin ələ keçirilməsi və ya aradan götürülməsi, hərbi əsirlərin və məhbusların azad edilməsi, antiterror mübarizəsinin aparılması, silah təchizat marşrutlarının bağlanması.

Qrupun tərkibi qrupa verilən tapşırıqlardan və fəaliyyət göstərəcəyi şərtlərdən çox asılıdır. Qrupun tərkibi adətən 3-7 nəfərdən ibarət olur, onlar bir və ya bir neçə

fərqli vəzifələri yerinə yetirməyə qadir olurlar.

XTQ döyüşçüləri üçün dünya üzrə müəyyən edilmiş imtahanlar var:

1. Snayper hazırlığı
2. Paraşütlə tullanma
3. Ekstremal dəniz əməliyyatları
4. Minaların zərərsizləşdirilməsi üzrə ustalıq
5. Ekstremal şəraitdə sağ qalmaq bacarığı

Bu hərbi qulluğun bütün əməliyyatları və tədbirləri müəyyən xüsusi xidmət orqanları tərəfindən gizli saxlanılır.

Azərbaycanda müasir silahlarla təchiz olunmuş XTQ aktiv əməliyyatlara 2012-ci ildə başlayıb. 2012, 2014, 2015-ci illərdə xüsusi gizli əməliyyatlarda iştirak ediblər. 2016-cı ildə isə aprel döyüşlərində xüsusi rol oynayıblar. Məhz strateji yüksəklikləri XTQ azad edib.

Hazırda da XTQ düşmən təxribatının qarşısını almaq üçün ordumuzun demək olar ki, əsas güc mənbəyidir, kifayət qədər nüfuza və gücə malikdir.

Türkiyədə "Komando", "Bordo bereli" "SAT-SAS", ABŞ-da "RANGER", "Delta forçe", Rusiyada "Alfa", "Vımpel", "Delta", İsraildə "Amor", Böyük Britaniyada "Kommandos", "Skorpion", Finlandiyada "Yeger", Gürcüstanda Xüsusi Əməliyyatlar Qrupu (Group "A"), Azərbaycanda "Yarasa", "Qartal", "Şahin", "Vaşaq", "Əqrəb" və s. şərti adlarla tanınan xüsusi təyinatlı dəstələr mövcuddur.

Cəlb olunduğumuz müharibənin nəticələri göstərir ki, Ordumuzun istənilən uğurlu addımı məhz kəşfiyyat-

çılarımızın, xüsusilə Xüsusi Təyinatlı Qüvvələrimizin sayəsində mümkün olub və bundan sonra da belə olacaq. Bizim Xüsusi Təyinatlılarımız apreldə minalı sahədə vuruşdular, cəsusluq məsələsi də öz yerində.

Yarandığı gündən sıravi kəşfiyyatçısından komandanına qədər hər birimizin qürur mənbəyinə çevrilən XTQ, polkovnik Vüqar Yusifovun, polkovnik - leytenant Murad Mirzəyevin, mayor Samid İmanovun və bir çoxlarının simasında şərəfli zabit adını dünya hərb tarixinə qızıl hərflərlə yazdıra biləcək insanların peşəkar kəşfiyyatçı kimi yetişməsində müstəsna xidmətləri ilə yaddaşlara həkk olunub.

ABŞ-da xüsusi təyinatlıların "Ranger" kursunu bitirən yeganə azərbaycanlı, Aprel döyüşlərinin şəhidi, Azərbaycanın Milli Qəhrəmanı, Xüsusi Təyinatlı Qüvvələrin zabiti, polkovnik-leytenant Murad Mirzəyev olmuşdur.

***

Emin Xüsusi Təyinatlılarda Xızıya getdi, Məşhədi Həsəndə xidmət edirdi, Yaşma ilə üzbəüz. Gizli hərbi hissə olduğuna görə ailəsi onu 6 ay kurs müddətində görmədi. Hərbi hissəyə nə qədər gedirdilərsə, nə aparırdılarsa başqa əsgərlər elə qapıdan onlardan təhvil alırdılar. Xüsusi hərbi hissə olduğuna görə gələnləri ora buraxmırdılar. Xüsusi Təyinatlı Qüvvələrin təlimlərindən uğurla keçən Emin xidmətini burada davam etdirdi. Onlar 10 günlərlə ermənilərin içərisində olub gəlirdilər.

Əsgər yoldaşları deyəndə ki, əsgərlik çətindi, filan, Emin gülərək deyərdi ki, mənə çətin gəlmir, mənim üçün çox yaxşıdır, istəyirəm qalım burda işləyim.

O, XTQ-yə keçəndən sonra telefon işlətməyə icazə vermişdilər. Hər 6-cı gün evə gəlib bazar günü qayıda bilirdi. Buna icazə var idi, amma, Emin evə az-az gəlirdi.

Xüsusi təyinatlılarda iki dənə ad olur, hərə özünə əlavə ad götürür. Emin də 2014-cü ildə şəhid olmuş Elçin Əhmədovun adı ilə özünə instaqramda hesab açdı. Orada dostlarına və sevdiyi qıza mesajlar yazır, ya da özünün müxtəlif şəkillərini çəkib altına sözlər yazır, paylaşırdı. Şəkillərinin altında belə cümlələr yazırdı:

"Sevmə məni, ay qız, mən əsgərəm, torpaq iyi gəlir məndən. Baxma gözlərimə, düşmən kimi baxaram gözlərinə. Bir gün şəhid olub xəyallarını yıxaram".

"Gün gələr Bağırov bir tabuta qoyular, üzülmə, sevdiyim... Üzərimdə şanlı 3 rəngli bayrağım".

"Başımızın üstündən güllə uçuşan, amma yalnız sizin uğrunuzda şəhid olmağı arzulayan əsgərlərik biz. Bax budur fərqimiz".

"Komandir deyir postda yatmaq ölümdür, amma bu belə deyil, postda yatmaq Vətənin artıq yüz faiz düşməndə olması deməkdir və mən buna görə oyağam".

"Gecənin ən zülmət vaxtında belə gözünü qırpmadan sizin uğrunuzda ölən varsa, əsgərdir" və s.

Eminin elə sirri yox idi ki, Vüsal bilməsin. Aralarında elə sirlər var idi ki, yəqin ki, elə Vüsalla qəbrə gedəcək. Emin Vüsalla tez-tez əlaqə saxlayırdı, ya zəng edir, ya da

mesaj vasitəsilə yazışırdı. Vüsal Aviasiya Akademiyasında oxuyurdu. Emin paraşütdən tullananda ona şəkil göndərib yazdı ki, qardaşım, sən helikopteri sürə bilmədin, ancaq mən sürdüm.

Əsgərliyinin son vaxtlarında - Xüsusi Təyinatlılarda olanda qardaşı Yaqub ona telefon almışdı, o da şəkillər göndərirdi ki, bax gör necəyəm. O vaxtlar o şəkilləri göndərmək yasaq olsa da, Emin göndərib tez də silərdi.

Paraşütdən tullanma üzrə ikinci yeri tutanda ailəsinə xəbər elədi, elə sevinirdi ki... Deyirdi ki, bircə aprel ayı gəlsin, kəşfiyyatçı pulumu alıb qəpiyinə kimi gətirib evə verəcəm, qoy atam borclarını qaytarsın.

Nəhayət kursun sonu yaxınlaşdı, artıq Emingil "Cəhənnəm həftəsi"nin təlimlərində idilər. Təlim vaxtı Emin guya ermənilərə əsir düşür. Ona deyirlər ki, gəl Azərbaycan bayrağını ayaqla, canını qurtar get. O isə bayrağı alıb sinəsinin üstünə qoyub, paltarının sepini çəkdi ki, "bayraq mənim şərəfimdir". Onu o ki var döydülər ki, görək nə qədər davam gətirəcək. Amma, Emin bütün sınaqlara mərdliklə dözdü.

Yanvarda kursu bitirdikdən sonra Emin evə gəldi. Köynəyini dəyişəndə Yaqub onun kürəyində zolaq-zolaq xətlər gördü və təəccüblə soruşdu:

- Bu nədir, səni döyüblər?

Emin gülümsədi:

- Boş ver, əsgərlikdi də, elə-belə şeydi.

Emin kursları keçəndən sonra çox dəyişmişdi, insanların adi zarafatlarını belə qəbul etmirdi.

Sonuncu dəfə mart ayının əvvəllərində məzuniyyətə gələn Emin fiziki cəhətdən də çox dəyişmişdi. 1 metr 80 sm olan boyu bir az da ucalmışdı. Enli kürəkləri, qüvvətli qolları əynindəki hərbi paltarın altından da özünü büruzə verirdi. Emin kişiləşmişdi, sözün əsl mənasında döyüşçü olmuşdu. İstər səsində, istər görkəmində, istər danışığında çox fərq vardı. O, əsl Xüsusi Təyinatlı Azərbaycan əsgəri idi. Kurslarını bitirib Cəlilabadda xidmət edirdilər.

Bir dəfə təlim zamanı Emin paraşütlə tullananda suya düşdü, soyuqladı, qızdırması var idi. O, xəstələnəndə həmişə qızdırması 40-41 olardı. Hərbi hissədən evə getməyə icazə verdilər. Onu görməyə gələn qohum-əqrəba, dost-tanış bu pəhləvan cüssəli oğlanın söhbətlərini maraqla dinləyirdilər. Qonaqlar gedəndən sonra Emin nənəsinə dedi:

- Ay nənə, o tərəflərə elə öyrəşmişəm ki, buralara gəlmək istəmirəm.

- Elə demə, ay bala, gözümüz yolda qalır, qulağımız səsdə, xidmətini qurtar, qayıt gəl evə.

Bir-iki gün keçəndən sonra Emin atasına dedi:

- Ata, mən artıq evdə qala bilmirəm, hərbi hissə üçün darıxıram.

Atası məzəmmətlə ona baxdı:

- Oğlum, tələsmə getməyə, xəstəsən, sənə 10 gün məzuniyyət götürək, səni hospitala yatızdıraq, tam sağal, sonra gedərsən.

Emin inadla:

- Yox, ata, mən getməliyəm, məni saxlamayın, - dedi.

Nənəsi ilə anası Sədaqət xanım qalması üçün çox israr etdilər, amma Emin etiraz etdi:

- Ay nənə, komandirim də, əsgər yoldaşlarım da məni çox istəyirlər. Orda o qədər əsgər yoldaşlarımla dost olmuşam ki, sən heç narahat olma. Ən yaxşısı əsgərlik çəkməkdir.

Anası ilə nənəsi nə qədər yalvarsalar da, onu fikrindən döndərə bilmədilər. Emin gülə-gülə nənəsini qucaqladı:

- Can nənə, əgər qədərimdə Vətən üçün ölmək varsa, mən belə qədərin əllərindən öpərəm. Sən məndən nigaran qalma. Tarix boyunca bizim başımız əyilmədi, inşaallah, bundan sonra da əyilməz.

Ailəsi onu yola salanda anasını qucaqlayıb bağrına basdı:

- Ana, mən gedirəm, sən qardaşlarımdan muğayat ol.

İkinci qardaşı Xanəhmədi bərk-bərk qucaqlayıb, bağrına sıxdı, heç vaxt onunla elə görüşməmişdi, sonra onu nənəsinə tapşırdı. O, elə bil evdən qaçdı. Bəlkə də döyüşə gedəcəklərini bilirdi. Yola düşəndə qardaşı Yaqubu yanına çağırıb pıçıldadı:

- Qardaş, sənə bir söz deyim, mənim istədiyim qız başqasına qismət olarsa, onun adını öz qızıma qoyacam, yox əgər nə vaxtsa şəhid olub, bu arzuma çatmaramsa, o qızın adını sən öz qızına verərsən.

Yaqub onun kürəyinə vurub:

- Sən yenə başladın? Bu boyda xidmət keçibsən ki, şəhid olasan? Hələ o qədər işləyəcəksən ki... 20 gündən sonra xidmətini başa vurub Xüsusi Təyinatlıların tam

heyətində olacaqsan, - dedi.

- Zarafat etdim, incimə. Xüsusi Təyinatlılarda xidmətə başlayan kimi evimizi təmir etdirəcəyəm. Onda atamın da, sənin də əziyyətin az olacaq. Onda daha firavan yaşayacağıq.

Vüsal onunla görüşə bilmədi - Vüsal gələndə, o getmişdi. Demək, qismət deyilmiş.

Novruz bayramı yaxınlaşırdı, Emin nənəsinə dedi ki, bayram üçün martın 20-si evə buraxacaqlar. Sonra zəng elədi ki, evliləri buraxdılar, subaylar qaldı. Anası payını saxladı ki, Emin gələndə şəkərbura bişirər.

Axırıncı dəfə danışanda atası dedi:

- Emin, gəlirəm yanına.

Emin bir qədər sərt səslə:

- Ata, gəlmə, sən əziyyət çəkmə. Həm gəlsən də, faydası olmayacaq, izimi tapa bilməyəcəksən, - dedi.

Emin gəlməyinə 3 gün qalmış Vüsala yazdı ki, burada qalmaq istəyirəm, qayıtmaq istəmirəm. Atam icazə vermir, amma burada işim, demək olar ki, hazırdır. Bircə Ali Baş Komandanımız "döyüşmək" əmri versin, ermənilərin qanını içərəm.

Emin həmişə Yaqubla dərdləşirdi, çətinliklərini onunla bölüşürdü. Martda Yaquba zəng vurdu, dedi ki, mən cəbhə bölgəsinə gedirəm, vəziyyət pisdir, bərk-bərk tapşırdı ki, evdə demə. Yaquba and içdirdi, o da qardaş olaraq onun sirrini qorudu.

Emin instaqram hesabında şəklinin altında belə bir şeir yazmışdı:

Əsgər oldum, gedirəm irəli...
Haqqını halal et, Anam!
Bəlkə qismət oldu, şəhid oldum!
Bayram günü bayram payımı saxlama,
Şəhid olsam, qəbrim üstə ağlama.

Hardasa, martın 30-u idi, Emin dostu Vüsala zəng elədi, şəhidlikdən filan danışırdı. Sonra dedi:

- Vüsal, çox itkimiz, şəhidimiz var.

- Emin, özündən muğayat ol, gəl, səni görək.

- Bir həftəyə gələcəm, darıxmışam, görüşəcəyik. Hələlik sağ ol.

Martın axırlarından ailəsi Eminlə əlaqə yarada bilmədi. Telefonuna zəng çatmırdı, watsap da işlətmirdi. Vaxtı qurtarmışdı, evə qayıtmalıydı.

Aprelin 1-ni Bağırovlar ailəsi səbirsizliklə gözləyirdilər. İmran kişi həyətində bir qurbanlıq qoç saxlamışdı, ikisini də əlavə almışdı ki, oğlunun əsgərlikdən gəldiyi günü bayram etsinlər. Bilirdi ki, Eminin gələcəyini eşidən el-oba, qohum-əqraba - hər kəs gözaydınlığına gələcək.

Amma, aprel ayının 1-dən başlayaraq təcavüzkar Ermənistanın və separatçı DQR-in silahlı birləşmələri Azərbaycana qarşı növbəti təxribat - diversiya cəhdləri vasitəsi ilə işğalçılıq siyasətlərini davam etdirməyə çalışdılar.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumata görə, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu Azərbaycan mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələ-

ri tərəfindən güclü artilleriya atəşinə məruz qaldı. Bunun nəticəsində dinc sakinlərdən 2-si ölmüş, 10 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almışdı. Belə təxribatçı cəhdlər atəşkəs dövrü davamlı olaraq baş verirdi, lakin bu dəfə düşmənə öz yerini göstərməyin vaxtı çatmışdı.

Azərbaycan tərəfindən bu hücumun qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin komandanlığı tərəfindən Ağdərə - Tərtər - Ağdam və Xocavənd - Füzuli istiqamətində təxirəsalınmaz cavab tədbirlərinin keçirilməsi barədə qərar qəbul edildi.

2016-cı il aprelin 1-də həmişə olduğu kimi, ermənilərin yenə də sərhəd boyu atəşkəsi dəfələrlə pozmaları barədə xəbərlər yayılanda, İmran kişinin ürəyi sancdı.

Eminin XTQ-də hərbi xidmət müddəti başa çatmışdı. O, aprelin 1-də ordudan tərxis olunub evə gəlməli idi, sonra qayıdıb orada gizir kimi işləyəcəkdi. Amma o, Vətəni müdafiə etməyi evə qayıtmaqdan üstün tutdu. Hərbi hissə komandiri əməliyyata gedəcək dəstəni formalaşdıranda, Emini bölməyə daxil etməmişdi. Orda Eminin Nicat Abdullayev adında əsgər yoldaşı var idi, döyüşə o getməli idi, çünki o, çoxdan orada işləyirdi. Emin ona dedi:

- Nicat, sən döyüşə getmə, mən gedirəm, mən indi komandirlə danışaram.

Emin komandirə yaxınlaşdı və salam verdi:

- Komandirim, mən də döyüşə getmək istəyirəm, öncə Vətəndir, ata-ana gözləyər. Çox xahiş edirəm, məni də döyüşə yazın. Döyüş qabiliyyətimdən xəbəriniz var. Nicat

evin tək oğludur, onu göndərməyin, biz üç qardaşıq, birimiz Vətənə qurban olaq.

Hərbi hissə komandiri onun xahişini yerə salmadı, amma ona XTQ-nin üzvləri arasında döyüş bölgəsinə getməyə şərtlə icazə verdi:

- Əgər istəyirsənsə get, amma səhərə kimi silahları təmizlə, əgər təmizləyə bilsən, döyüşə gedərsən.

Komandir Eminə mümkünsüz bir iş tapşırmışdı. Emin səhərə kimi yatmadı, o silahları təmizləyib komandirinə təhvil verdi ki, döyüşə qatılsın.

Döyüş yoldaşları nə qədər desələr də ki, sən evə qayıt, Emin dedi ki, yox, mən döyüşə gedirəm. (Döyüşə Nicat Abdullayevi də aparıblar, döyüşdə yaralanıb qazi olub).

Döyüşlər başlamazdan qabaq Azərbaycan Ordusunun diversiya qrupları cəbhənin dərinliyinə sızaraq bəzi əməliyyatlar həyata keçirmişdi. Belə əməliyyatların biri Aprel döyüşlərindən iki həftə öncə baş vermişdi, bu əməliyyat zamanı Azərbaycanın diversiya qrupu arxa cəbhənin olduqca dərinliyinə sızaraq, Əsgəran bölgəsindəki Hava Hücumundan Müdafiə kompleksinin RLS-ni məhv etmişdi.

Emingilin dəstəsi mart ayının 31-dən aprelin 1-nə keçən gecə Tərtər rayonunun Gülüstan istiqamətində düşmən arxasına keçərək düşmənin 108 nəfərlik taborunu məhv etdilər.

Aprelin 2-də Ali Baş Komandanımız Milli Ordumuza hərbi əməliyyatlara başlamaq haqqında əmr verdi. Bu anı səbirsizliklə gözləyən Milli Ordumuz genişmiqyaslı hərbi

əməliyyatlara başladı, hərbi maşınlara minib Lələtəpə istiqamətində hərəkət etdilər. Döyüşlər Ermənistanın Kəlbəcəri işğal etməsinin 23-cü ildönümü günü başladı.

General-mayor Mayis Bərxudarov AzVision.az saytına verdiyi müsahibəsində Lələtəpənin işğaldan azad edilməsi əməliyyatının detallarını açıqlayıb:

"Azərbaycan ordusunun mövqelərinə hücuma keçmək istəyən düşmənin kəşfiyyat-diversiya qrupları neytral mövqedə məhv olunub. Bundan sonra biz Lələtəpə istiqamətində əks-hücuma başladıq. Öncə həmin döyüş mövqeyində yerləşən bölmələr qrup halında düşmən tərəfə irəliləyərək onlara güclü atəş zərbəsi endirdi. Biz həmin vaxt düşmənin özünün minalardan təmizlədiyi cığırlardan istifadə etdik.

Lələtəpə yüksəkliyi qısa müddətdə düşməndən azad olunub. Döyüş təqribən 40 dəqiqə davam etdi və ermənilərin mövqelərini tam ələ keçirdik. Düşmən bir atəş də aça bilmədi, çünki səngərdə olanların hamısını məhv etmişdik. Onların artilleriya silahlarını tam sıradan çıxartmışdıq, düşmən bizə güllə ata bilmirdi. Düşmən elə bir hazırlıqlı ordu ilə rastlaşdı ki, qaçmaqdan başqa əlacı qalmadı. Azərbaycan ordusunun kəşfiyyatçıları, döyüş qrupları Lələtəpə yüksəkliyini işğaldan azad edəndən sonra düşmən qaçmağa başladı. Düşmənin bir neçə hərbi qulluqçusu, hətta zabitləri bizə yalvarırdılar ki, onları öldürməyək. Erməni zabitləri deyirdilər ki, bizi öldürməyin, təslim oluruq və geri çəkilirik".

Emingil Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyinə

çatanda erməni hərbi birləşmələri darmadağın edilmiş, Lələtəpə alınmışdı. Milli ordumuz Azərbaycanın üçrəngli bayrağını azad edilmiş torpağımıza sancmışdı.

Emin bir dostundan telefon alıb Lələtəpədən şəkillər çəkib Yaquba göndərdi. Bir müddət sonra isə Emin dostlarının hansındansa telefon alıb atasına gizlincə zəng eliyib sevinə-sevinə dedi:

- Ata, eşitmiş olarsan, qalibiyyət, uğur bizim tərəfdədir. Düşməni torpaqlarımızdan qovmuşuq, Lələtəpəni almışıq, 1-2 günə evə qayıdıram, narahat olma...

Lakin ermənilər tərəfindən atılan güllə səsləri ona sözünü tamamlamağa imkan vermədi. Səs-küy çox idi, xətt kəsildi, daha Eminə zəng çatmadı. Elə bil İmran kişinin ürəyinə damdı ki, bu oğlu ilə axırıncı danışığıdır, oğlu şəhid olacaq. Tez ətrafına baxdı, kimsə yox idi. Həyətdə gördüyü işi yarımçıq qoyub, evə çıxdı. O, həmişə nədənsə narahat olanda Quran kitabını oxuyub rahatlıq tapırdı. İndi də, kitabı götürüb bir az oxuyandan sonra, oğlunun adına səhifə açdı. Səhifədə şəhidlərə aid ayə çıxdı. Düz ayın 5-nə qədər nigarançılıqdan özünə yer tapmadı.

Yaqubun o zəngdən sonra ürəyinə dammışdı ki, Eminə nəsə olacaq, ancaq özünü sakitləşdirməyə çalışırdı. Həyatının hər anını sevdiyini itirmək qorxusuyla yaşamaqdan daha işgəncəli bir hiss yoxdur. Bu mənada Yaqubun nələr yaşadığını təsəvvür etmək çətin deyil.Yaqubun hər dəqiqə qulağı səsdə, ürəyi səksəkədə idi, heç harda qərar tuta bilmirdi...

2016-cı il aprelin 2-də beynəlxalq qurumların təkid-

li müraciətləri və Azərbaycan dövlətinin sülhsevər siyasət yürütməsinin nəticəsi olaraq Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş ərazilərimizdə düşmənə qarşı əks-həmlə əməliyyatını və cavab tədbirlərini saat 15:00-dan başlayaraq birtərəfli qaydada dayandırmaq barədə qərar qəbul etdi.

Azərbaycan tərəfinin razılığa əməl etməsindən istifadə edən qarşı tərəf, Ermənistandan işğal altında olan ərazilərə əlavə hərbi qüvvə gətirməklə işğaldan azad edilən mövqelərin, ərazilərin geri qaytarılmasına cəhd göstərdi və nəticədə 10-a yaxın tank, həmçinin canlı qüvvə sarıdan xeyli itki verdi.

Qısa müddətdə həyata keçirilən sürətli əks-həmlə zamanı erməni birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti cəbhənin bəzi istiqamətlərində yarıldı, strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqələri Ermənistan Silahlı Qüvvələrindən tam azad olundu.

***

Qarabağ müharibəsindən sonra ermənilər Azərbaycan Silahlı Qüvvələrinin əks hücumlarının qarşısını almaq məqsədilə bir çox yerdə güclü istehkamlar qurmağa başlamışdılar. Bunların arasında ən möhkəmi və əsası Talış və Lələtəpə istiqamətindəki "Ohanyan xətti" idi. Bu məntəqə ermənilər üçün "milli qürur mənbəyi" sayılırdı. Ermənilər "Ohanyan xətti"nin keçilməz olduğunu düşünürdülər.

Seyran Ohanyan Qarabağ müharibəsinin əsas simalarından biri idi. Qarabağ müharibəsi zamanı Azərbaycan torpaqlarının işğalı və kütləvi qətllərdə, o cümlədən Xocalı hadisələrində batalyon komandiri kimi iştirak edən Seyran Ohanyan soyqırımın törədilməsində, dinc əhaliyə divan tutulmasında birbaşa iştirak edib, soyqırımın rəhbərlərindən biri olub. Ohanyan, Sarkisyan və Koçaryan soyqırım törətmiş cnayətkarlardır.

Ohanyan 1999-2007-ci illərdə qondarma "DQR"in "müdafiə naziri", 2007-2008-ci illərdə Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının rəisi, 2008-2016-cı illərdə Ermənistanın müdafiə naziri olmuşdur. Seyran Ohanyan mif yaratmışdı ki, təmas xətti boyu keçilməz istehkamlar, səngərlər qurulub.

Atəşkəs dövründə Ermənistan Silahlı Qüvvələri Araz çayından Murovdağ silsiləsinədək işğal olunmuş Azərbaycan ərazilərində bir-birinin ardınca qurulmuş iki eşelondan və hava hücumundan müdafiədən ibarət müdafiə sistemi yaradıb. Düşmən müdafiəsinin birinci eşelonu işğal olunmuş Cəbrayıl, Füzuli, Xocavənd və Ağdam rayonlarının ərazilərindən keçir. Müdafiənin ikinci eşelonu əsasən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədi ilə təşkil olunmuş "möhkəmləndirilmiş müdafiə rayonlarından" (MMR) ibarətdir. Düşmən MMR sistemini "Ohanyan xətti" adlandırır və onu keçilməz hesab edirdi. Hər iki eşelon xüsusi möhkəmləndirilmiş müdafiə istehkamlarından, minalanmış, məftillənmiş sahələrdən, tank əleyhinə dərin xəndəklərdən və digər mühəndis – istehkam vasitələrindən ibarətdir. Təmas xəttində ermənilərin mövqeləri, əsasən yüksəkliklərdə (Xocavənd rayonu ərazisində dağlıq hissə istisna olmaqla), Azərbaycan Ordusunun mövqeləri isə əsasən aran ərazilərdə yerləşirdi. Relyef üstünlüyündən istifadə edərək ermənilərin Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və yaşayış məntəqələrini mütəmadi atəşə tutması nəticəsində hər il 10-dan artıq mülki sakin yaralanır və şəhid olurdu. Məhz aprelin 2-də Azərbaycan Silahlı Qüvvələrinin əsas zərbələri düşmənin növbəti təxribatlar hazırladığı istiqamətlərə - cəbhənin cənub istiqamətində yerləşən Lələtəpə (Lələ İlahi) və şimal istiqamətində Talış kəndi ətrafındakı yüksəkliklərdə qurulmuş düşmən mövqelərinə yönəlmişdi.

Aprel döyüşlərinin 2-ci günü ordumuz çox asan bir şəkildə Ohanyan xəttini yardı. Ardınca isə strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi ordumuzun nəzarətinə keçdi.

Polkovnik-leytenant Xaliq Hüseynovun Ordu.az saytına verdiyi müsahibəsindən:

"Ordumuz hərəkətə başlayanda biz istehkamçılar artilleriya zərbələri ilə eyni anda keçid açmağa başladıq. Elə düşünürdüm ki, ermənilərin mifləşdirdiyi "Ohanyan səddi"ni yarmaq çox çətin olacaq. Lakin əməliyyat zamanı bizə məlum oldu ki, bura yalnız mifdir və bundan başqa da bir şey deyil. Biz müəyyən olunmuş ərazilərdə keçidi təmin elədik. Savaş başlayanda ilk olaraq biz keçidi açdığımız kimi, yeni müdafiə mövqelərinin bərkidilməsi də bizim öhdəmizə düşürdü.

Əslində orada qurulan maneələr bizə də qəribə gəlirdi. Orada birinci qarşımıza çıxan maneə piyada əleyhinə mina sahəsi idi. Növbəti tank əleyhinə mina sahəsi, sonra bir neçə cərgə dəmiryol dirəkləri, onların üzəri və arası lent məftillərlə hörülmüşdü, həmçinin onun dibi də qarışıq mina sahəsidir. Ondan sonra yenə piyada əleyhinə mina sahəsi, tank əleyhinə mina sahəsi, sonra məftil maneələri və daha sonra tank əleyhinə xəndəklər... Həmin bu maneələrdə keçid açılanda bir də baxırdıq ki, qısa zaman ərzində digər qrup artıq keçidi təmin edib və növbəti əmri gözləyir. Bu da bir millət olaraq, azərbaycanlı olaraq bizə elə hisslər yaşadırdı ki, onu sözlə ifadə etmək mümkün deyil...

Bizim müəyyən mənada gözləntimiz var idi, amma qarşılaşacağımız hər şeyə qarşı tədbir görməyə tam hazırlıqlı getmişdik. Nəticə etibari ilə planlaşdırdığımızdan asan oldu. Məsələn, biz planlaşdırmışdıq ki, müəyyən yerləri partladıb keçək. Ancaq baxdıq ki, orada partlatmalı bir şey yoxdur, yəni o qədər də ciddi bir maneə deyil. Elə yerlər oldu ki, ümumiyyətlə heç nədən istifadə etmədik, sadəcə ən adi üsulla cığır açıb şəxsi heyətin ora girməsini təmin etdik".

Gördüyümüz kimi, Azərbaycan ordusunun kiçik bir əməliyyatı ilə Ohanyanın istehkamları bir neçə saat ərzində darmadağın oldu. Ermənistan Müdafiə Nazirliyində belə istehkamların qısa zamanda dağılmasına inanmırdılar. Bundan sonra Ermənistan ordusunda olan cinayətkarlıq, zəiflik, yarıtmazlıq faktları üzə çıxdı. Buna

görə də Sarkisyan yüksək rütbəli zabitləri işdən qovmağa başladı. Onların ardınca Prezident Serj Sarkisyanın sərəncamı ilə müdafiə naziri Seyran Ohanyan vəzifəsindən kənarlaşdırıldı.

***

Aprel döyüşləri haqqında Google-da məlumatları oxuyarkən bir çox döyüş iştirakçılarının saytlara verdikləri müsahibələr diqqətimi çəkdi. Əziz oxucularım, onlardan bir neçəsini sizlərin də diqqətinə çatdırmaq isəyirəm.

Hərbi ekspert, ehtiyatda olan polkovnik Xətai Baxışovun azeridefence.com saytına verdiyi müsahibədən:

"Lələtəpə yüksəkliyindəki düşmən mövqeləri onun birinci müdafiə eşelonuna daxil olsa da, müdafiə olunması üçün qeyd olunan istiqamətdə relyefinə görə bundan daha əlverişli mövqeyi yoxdur və cəbhənin cənub hissəsində düşmən müdafiə sisteminin bir növ açarı hesab oluna bilər. Lələtəpə yüksəkliyində düşmən tərəfindən betonlaşdırılmış blindajlar, keçidlər, atəş nöqtələri və kaponirlər tikilib, mövqelərin qarşısında minalı-məftilli sahələr çəkilib, müdafiə mövqelərinin dərinliyində tank və artilleriya mövqeləri, rabitə qovşağı, ehtiyat bölmə, döyüş və ərzaq təhcizatı üçün beton tikililər qurulmuşdu.

Aprelin 2-də səhərə yaxın Lələtəpə yüksəkliyi Azərbaycan Ordusunun bir bölüyə qədər qüvvəsi ilə azad olunub. Bölməmiz daha kiçik qruplara bölünərək, özünü hiss etdirmədən mina-məftilli sahələrdə keçidlər açmaqla düşmən səngərlərinə yaxınlaşıb, yaxın məsafəli dö-

yüşdə onlarla düşməni məhv edərək mövqelərini tutub. Aprelin 2-si səhər saatlarında Lələtəpədəki mövqelərini geri qaytarmaq məqsədilə ermənilər intensiv, aramsız artilleriya atəşi dəstəyindən istifadə etməklə 15 tank və çoxsaylı canlı qüvvə ilə hücuma keçəndə belə düşünürdülər ki, hələ üzü düşmənə qarşı səngər qazmağa vaxt tapmayan və möhkəmlənməmiş bölmələrimiz sıx artilleriya atəşi altında, böyük qüvvə qarşısında tab gətirə bilməyib, mövqeləri tərk edəcəklər. Lakin döyüşçülərimiz soyuqqanlılıq nümayiş etdirərək düşmənin hücum edən hərbi texnika və canlı qüvvəsini məhv etməyi bacardılar. Yalnız bu döyüşdə düşmənin 11 tankı, bir PDM-i, canlı qüvvə dolu iki yük maşını məhv edildi. Düşmənin qalan qüvvəsi döyüş meydanından geri qaçmaqla xilas ola bildi".

General-mayor Hikmət Həsənov Aprel döyüşlərində cəbhənin 3 istiqamətində: Ağdam - Tərtər - Goranboy cəbhəsindəki döyüşləri idarə edib. Onun AzVision.az saytına verdiyi müsahibədən:

"Aprel döyüşlərində rəhbərlik etdiyim döyüşdə ordumuz ilə 2 saat ərzində düşmənin 24 illik «Ohanyan müdafiə xətti»ni yararaq Talış yüksəkliklərinə qalxıb, düşmənin 21 postunu dağıdaraq 7 strateji yüksəkliyi düşməndən təmizlədik. Aprelin 1-dən 2-nə keçən gecə düşmənin kəşfiyyat-diversiya qrupları Talış, Tapqaraqoyunlu istiqamətində yerləşən Azərbaycan ordusunun mövqelərinə əvvəlcə minaatanlardan zərbə endirib, bunda sonra isə düşmənin kəşfiyyat-diversiya qrupları hü-

cuma keçməyə cəhd göstərib. Şəraiti qiymətləndirdikdən sonra həmin zolaqda yerləşən briqadanın ehtiyat qüvvələri və hərbi birləşmənin tank taborunun qüvvələri ilə hücum edən düşmənə sarsıdıcı zərbə vuraraq, öncə onların ön xəttə olan mövqelərini ələ keçirdik, eyni zamanda düşmənin müdafiə xəttinin dərinliklərinə irəliləyərək Talış yaşayış məntəqəsi istiqamətində hakim yüksəklikləri ələ keçirdik. Bununla da Tapqaraqoyunlu kəndi və o istiqamətdə yerləşən Naftalan şəhərinin təhlükəsizliyi tam təmin edildi.

Çox sevindirici haldır ki, bu döyüşlərin gedişatı zamanı hətta yaralı zabitlərimiz, gizirlərimiz və müddətdən artıq hərbi qulluqçularımız, əsgərlərimiz döyüş meydanını tərk etmək haqqında fikirləşmir, əksinə, yaralandıqlarını gizlədərək sona qədər döyüşürdülər. Buna misal olaraq, bizim tank əleyhinə batareyanın komandiri kapitan Balıyevi, gizir Eynullayevi nümunə göstərmək olar. Onlardan başqa, neçə-neçə hərbi qulluqçumuz son ana qədər döyüşərək düşmənə ağır zərbələr vurdular. Onların qəhrəmanlığı nəticəsində işğaldan azad edilmiş yüksəkliklərdə tam möhkəmlənərək təmas xətti boyunca yerləşən yaşayış məntəqələrində təhlükəsizlik tam təmin olundu.

Ümumiyyətlə, döyüş əməliyyatı nəticəsində işğaldan azad olunmuş mövqelərdən Azərbaycan ordusunun hərbçilərini dayandırmaq olmurdu. Onlar irəliləyərək işğal olunmuş bütün torpaqları azad etmək üçün fədakarlıq göstərirdilər».

Aprelin 2-dən sonra güclü itkilərə məruz qalan erməni

ordusu çaşqınlıq içərisində Azərbaycan Ordusunun üzərinə 19 tank yeritdi. Həmin 19 tankın 14-nü bizim XTQ elə Talış kəndi ətrafında məhv etdilər. Bizim döyüşçülərlə üzbəüz gələ bilməyəcəyini yəqin edən düşmən sonradan ordumuzun yerləşdiyi hissələrə ancaq ağır artilleriya silahlarından atəş açırdı.

Talış istiqamətindəki əməliyyatlar zamanı düşmənin ilk müdafiə mövqeyinin yarılması Polad Həşimovun rəhbərlik etdiyi istiqamətdə olub. Qızğın döyüşlər zamanı o, az qüvvə ilə - bir neçə əsgərlə düşmən cəbhəsini yarıb, 2,5 km dərinliyə irəliləyərək düşmənə böyük itkilər verib, əhəmiyyətli yüksəkliyi-Talış yüksəkliyini ələ keçirib möhkəmləndi. Azad etdiyi posta onun adı verildi – Polad postu. O, Talış yüksəkliyinin alınmasında cavabdehliyi öz üzərinə götürərək həm həyatını, həm vəzifəsini, həm də rütbəsini risk altına almışdı. Bunun sayəsində düşmən həmin əraziyə yaxın yerlərdə olan bir neçə döyüş mövqeyini ləğv etməyə məcbur olmuşdu.

Talış istiqamətində döyüşlərdə tabeliyində olan bölməni yüksək hərbi peşəkarlıqla idarə edərək, düşmən mövqelərinə sarsıdıcı zərbələr vurmuş, torpaqlarımızın azad edilməsində fədakarlıq və igidlik göstərərək düşmənin əsas müdafiə mövqelərinin ələ keçirilməsinə nail olmuşdu. Döyüşlər bitənə qədər əsgərlərlə eyni səngərdə döyüşmüşdü. Talışdağ istiqamətində mövqeləri gücləndirərək açıq döyüşə girib, düşmən tərəfin onlarla əsgərini məhv etmişdi.

O, 4 gün gecə-gündüz istirahət nə olduğunu bilmə-

dən, yuxusuz ən qaynar nöqtədə vuruşur, döyüşləri idarə edirdi. Geri qaytarılan torpaqlarda qazılan yeni səngərlərin vəziyyətinə və əsgərlərin orada tam məskunlaşdığına əmin olmamış ərazini tərk etmirdi.

Döyüş zamanı ayağından yaralansa da heç kimə, ailəsinə belə bildirməmişdi. Döyüşlər bitsə də o, azad etdiyi torpaqda iki aydan çox, aşağı düşmədən qaldı. Oradakı mövqelərin hazırlanmasına rəhbərlik etdi. Həmin yüksəkliklərdə düşmənin ehtimal edilən hücumlarını dəf etmək üçün bütün gecəni səngərlər qazırdılar. Polad Həşimov da əlində külüng əsgərləri ilə birlikdə səngər qazırdı.

Polad Həşimov Aprel döyüşlərində digər zabitlərimizlə birgə bir qəhrəmanlıq dastanı yazdı və döyüşlər zamanı göstərdiyi qəhrəmanlığa görə Prezident İlham Əliyevin sərəncamı ilə II dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görüldü.

O, Aprel döyüşlərində həlledici hücumun komandiri kimi cəsurluğu, qorxmazlığı ilə yanaşı əsgərlərinə qəhrəmanlıq nümunəsi idi. Generalı, komandiri öndə olan əsgər ürəkli olur, qorxu bilmir, özünü güvəndə hiss edir. Onu hər kəs sevirdi. O, əsgərləri üçün cəsarət, mərdlik və qəhrəmanlıq məktəbi idi. Belə oğullar el üçün, Vətən üçün doğulurlar və öz missiyalarını şərəflə yerinə yetirib tarixə çevrilirlər.

Ehtiyatda olan keçmiş XTQ mənsubu Zəkəriyyəyev Elnur Mətləb oğlunun Ordu.az saytına verdiyi müsahibədən: "Snayperlərimiz düşmənin qarşıda olan hərbçilə-

rini bir-bir məhv etdi. İki snayper qısa müddət ərzində 8 düşmən əsgərini məhv etdi. Bundan sonra biz qarışıqlıqdan istifadə edib düşmən üzərinə yeridik. Ermənilər də əsas qüvvələrini Talış yüksəkliyinə yönləndirirdi. Çünki canlı qüvvə ilə bizə yaxınlaşa bilmirdilər. Onlar tank, top, haubitsalardan atəşə başladılar. Necə "dəqiq" atırdılarsa, özlərinin nəzarətində olan postu da vurdular. Biz də dərhal yerdə qalan hərbçiləri məhv edib sonuncu postu da ələ keçirdik.

Aprelin 2-də gecə saat bir idi. Bölüyə həyəcan verildi. 45 saniyəyə məlumat aldıq ki, düşmən təxribata əl atıb və genişmiqyaslı hücum həyata keçirirlər. Elə həmin an biz Tərtərə doğru Talış kəndi istiqamətində ön xəttə yola düşdük. Biz atəş dəstək taqımının köməyi ilə dərinliyə girdik. Tapşırıq var idi ki, düşməni geri oturdaq və işğalda olan torpaqlarımızı azad edək. Çox şükür ki, buna nail olduq. Dərinlikdən 3 saata sağ-salamat qayıtdıq. Ayın 4-də səhər saat 05:00-da üzbəüz döyüşə girdik. Düşmən dağınıq idi və rabitə əlaqəsi qura bilmirdilər. Biz onları hər cəhətdən döyüş meydanında üstələmişdik. Komandirimizin verdiyi dəqiq koordinatlar vasitəsi ilə artilleriya dəstək atışı ilə düşmənə sarsıdıcı zərbə vuruldu".

Ehtiyatda olan keçmiş XTQ mənsubu Abbasov Elvin Asif oğlunun Ordu.az sytına verdiyi müsahibədən: (Qeyd edim ki, Emin Bağırov bu döyüşdə şəhid olub) "Aprel ayının 2-si idi. Düşmənin hücumlarına cavab olaraq, səhər saat 05:00-da döyüş əmri verildi. İstiqamət Talış kəndi idi. Hamımız tam təchizatla təyin olunan döyüş rayonuna

getdik. Biz arxada atəş dəstək mövqeyində idik. Sonradan bizə də irəli əmri verildi. Qızğın döyüş başladı. Biz hərəkətə keçəndə düşmən ordusu çıxılmaz vəziyyətdə qaldı. Çoxunun da üzü saqqallı və yaşlı idi. Görünür muzdlular idi. Biz isə hərəmiz bir tabora bəs edirdik. Vəziyyət o yerə çatmışdı ki, düşmən bütün gücünü geri çəkilmək üçün səfərbər etmişdi. Bizim isə bir amalımız var idi - düşməni məhv etmək, mövqeləri işğaldan azad etmək. Buna da nail olduq. Artıq saat 11:00-da biz verilən tapşırığı uğurla icra etdik. Onu deyim ki, şəhid və yaralanan qardaşlarım artileriya qəlpələri ilə vuruldular. Düşmən heç birimizi üz-üzə vura bilməzdi. Çünki biz görünmədən görüb, ölmədən öldürməyə öyrənmişik. Deməli, həmin döyüşdə mənim yanımda yaralanan olmadı. Amma daha qabaqda yaralılarımız var idi. Sahil Şirinov, Murad Məmmədov, Emin Bağırov kimi qardaşlarım isə şəhid oldular. Biz onları artilleriya dəstək atəşi ilə ərazidən çıxardıq. Yaralılarımızdan birini şəxsən çiynimdə çıxarmışam. Bu zaman yanıma top mərmisi düşdü, vaxtında yerə uzandım. Kiçik təpəcik məni qəlpələrdən xilas etdi. Ardından digər qardaşımı döyüş meydanından çıxaranda ayağımın altına, torpağa snayper gülləsi girdi. Şükür, yenə yaralanmadım. Onun sağalmasına ümid yox idi. Biz onu 3 dəqiqəyə təcili tibbi yardım maşınına çatdırdıq.

Biz həm kəşfiyyat, həm xüsusi təyinatlı, həm tankçı, həm pilot, həm snayper, həm minaaxtaran, həm dalğıc və s. yəni bütün ordu növünü özümüzdə cəmləşdiririk. Düşdüyümüz şəraitə uyğun hərbçi oluruq. Bizim fərqimiz budur".

Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov 2016-cı ilin 4 günlük Aprel müharibəsinin 3-cü ildönümündə AzTV-yə geniş müsahibə verib:

"Həmin döyüşlərdə Azərbaycan ordusunun 20 faizlik hissəsi Ermənistan ordusunu darmadağın edib. Ermənilərin illərdir möhkəmləndirdikləri müdafiə xətti ("Ohanyan xətti") dedikləri kimi 40 dəqiqəyə, yaxud 2 saata deyil, cəmi 18 dəqiqəyə yarılıb. 18 dəqiqədən sonra düşmən başa düşdü ki, vəziyyət dəyişib və qaçmağa başladı.

Döyüşlər hərbi baxımdan çətin vəziyyətdə keçdi. Gecə, dağlarda, düşmənlə birbaşa təmasdan əks-hücuma keçmişdik. Ordumuz yüksək döyüşkənlik bacarığı nümayiş etdirdi. Yaralı zabitlərimiz döyüşdən çıxmırdılar, əsgər yaralanırdı, ancaq döyüşdən çıxmırdı, çıx əmri verəndə ağlayırdı ki, davam eləmək istəyir".

Aprel döyüşlərində iştirak edən Xüsusi Təyinatlı kəşfiyyatçımızın military-az.com hərbi portalına verdiyi müsahibədən:

"Artıq aprelin 1-i idi. Gecə saat 03 radələrində qanlı döyüşlər başladı. Mənə mühafizəni təşkil etmək tapşırılmışdı. Bizim digər kəşfiyyat batalyonumuz Tərtərin işğalda olan Talış kəndinə getdi. Onlar 3 erməni postunu gizli yolla keçib, kəndin içərisinə girmişdilər. Hardasa 40 nəfərə yaxın kəşfiyyatçımız orada idi. Bizə xəbər gəldi ki, onlar mühasirəyə alınıb. Təcili kömək lazımdır. Biz mövqeyimizdən meşəyə gəldik. Çayı keçib Talış kəndi istiqamətinə irəlilədik. Qarşıda ermənilərin 3 postu yer-

ləşirdi. Bizim digər kəşfiyyat qrupumuz isə ermənilərin arxa tərəfinə keçmişdi. Düşmən də bundan xəbər tutduğu üçün onları məhv etmək üçün hərəkətə keçmişdi. Biz onları mühasirədən çıxarmaq üçün 3 erməni postunu almalı və möhkəmlənməli idik.

Mən döyüşçü yoldaşlarımla 1-ci posta hücum etdik. 5-10 dəqiqə qanlı döyüş getdikdən sonra posta girməyə müvəffəq olduq, bir neçə erməni əsgərinin leşi səngərdə idi. Biz oların tam məhv olduğuna əmin olmaq üçün başlarından təkrar atəş açdıq və postun içərisinə doğru irəliləməyə başladıq. Posta daxil olduq və mühafizəni təşkil edib yerləşdik. Postda olan erməni əsgərlərinin yarısı silahlarını atıb qaçmışdılar. Qaçmayanlar isə artıq leş idilər. Orada erməni əsgərlərinin siqaretləri, güllələri, silahları qalmışdı. Postdan qaçan erməni əsgərləri təpənin arxasında meşəlikdə gizlənmişdilər və oradan bizi müşahidə edirdilər. Komandanlığa məlumat verdikdən sonra yerimizdə möhkəmlənməyə başladıq.

Bizimlə paralel cəbhədə digər kəşfiyyat qruplarımız əməliyyat keçirirdi. Onlar arasında güclü döyüş gedirdi. Biz onları görürdük. Düşmən başını itirmişdi. Düşmən əsgərlərinin çoxu silahı atıb qaçırdı. Gecədən səhərə kimi qanlı döyüşlər getdi. Səhər açılanda ətrafdakı mənzərə dəhşət idi. Erməni əsgərlərinin meyitləri hər yana səpələnmişdi. Təxminən 80-ə qədər erməni meyiti var idi. 3 postdan ikisi artıq bizdə idi. Postları alanda yaralımız olsa da, şəhid vermədik.

Düşmən geri çəkilmişdi, bu taktiki gediş idi. Gözlənil-

mədən ermənilər biz yerləşdiyimiz postları tank atəşinə tutdular. Biz bilirdik ki, onlar postlara hücum edəcəklər. Belə də oldu. Aprelin 3-ü səhər açılanda onlar artıq gecədən tədbirlərini görmüşdülər - snayperləri arxa mövqelərdə yerləşdirmişdilər. Tanklar isə bizi hədəfləmiş və intensiz atəşə tuturdular. Erməni Xüsusi Təyinatlılarının itirdikləri postlara hücumları başladı. Onların irəliləməsinə həmin tank yol açırdı. Erməni tankı bizim ələ keçirdiyimiz postları vururdu. Tankın atəşi ilə blendaj dağıldı. Tankın atəşi nəticəsində erməni piyadaları bizim üstümüzə irəliləyirdi. Komandanlıq əmr etdi ki, postu tərk etməyin. Bizə əlavə kömək lazım idi. Bu vaxt Milli Qəhrəman Murad Mirzəyevin komandirliyi altında, gizir Tural Qurbanov, baş leytenant Elnur İsgəndərov, gizir Pəncəli Teymurov, gizir Mirsalam Cəfərov, Milli Qəhrəman mayor Samid İmanov və digərləri köməyə gəldilər. Orada Polkovnik-leytenant Murad Mirzəyev döyüşçülərə əmr etdi ki, sona qədər heç kim postu tərk etməsin. Onlar son nəfəslərinə qədər döyüşdülər. Postda da şəhid oldular. Erməni artıq bizim aldığımız iki postu ələ keçirdi. Murad Mirzəyevin, Pəncəli Teymurovun və digər kəşfiyyatçılarımızın meyitlərini onlar götürdülər. Bu döyüşdə düşmən də xeyli itki verdi. Onların arasında Xüsusi Təyinatlı zabitlər və çavuşlar daha çox idi.

3-cü posta hücum edən kəşfiyyatçılarımız erməni postlarına 20 metr qalmış minaya düşdülər. Gizirimiz Seymur Baxışov mühəndis istehkamçı (minaaxtaran) idi. Minaya birinci o düşdü və şəhid oldu. Bundan sonra

arxada gələn digər hərbçilərimizdən də mina partlayışı nəticəsində şəhid olanlarımız və yaralananlarımız oldu. Həmin dəstədə gizir Seymur Baxışov, gizir Sərxan Bayramov, leytenant Elvin Namazov, gizir Toğrul Fərəczadə, gizir Şahin Cavadzadə, gizir Teymur Qasımov, gizir Bəxtiyar Hüseynov mina partlayışı nəticəsində şəhid oldular. Orada Elvin Namazovun bədəni parçalanmışdı. O, iki dəfə minaya düşdüyü üçün daha çox yara almışdı. Yaralılar isə dost bölmələrimiz tərəfindən xilas edildi.

Erməni tankı postu vurduqdan sonra biz ordan çıxmaq məcburiyyətində qaldıq. Sürətlə irəliləyərək meşəyə girdik və müqaviməti oradan davam etdirməyə başladıq. Ermənilər yüksək mövqedə oturduqları üçün bizi rahat vura bilirdilər. Meşənin son hissəsinə qədər gəldik. Artıq erməni bizim yerimizi bilmişdi. Meşənin içini müxtəlif silahlardan atəşə tutdular. Hərbçilərimizdən biri ayağından yaralanmışdı. Həmin vaxt Milli Qəhrəman Samid İmanov yaralı idi. Əlində qumbara tutmuşdu ki, əsir düşsə özünü partlatsın. Biz əvvəl meşəyə girəndə özünü partlatmaq istəyirdi. Biz onu bu fikrindən çəkindirdik və ona tibbi yardım göstərdik. Ancaq zabit qüruru onu rahat buraxmadı. Bizə əmr etdi ki, onu yaralı şəkildə qoyub, köməyə əlavə qüvvələr çağıraq. Əmrindən çıxa bilməzdik. Biz geriyə, çaya tərəf gəldik. Həmin vaxt ermənilər fasiləsiz şəkildə bizi güllələbaran edirdi, arxada dost bölmələrimiz kömək üçün qarşımıza çıxdı. Biz onlara mayor Samid İmanovun yerləşdiyi yeri göstərdik, özümüz isə fiziki cəhətdən əldən düşdüyümüz üçün bir qədər arxa-

ya çəkildik. Dost bölmələrimiz mayor Samid İmanovun yanına çatanda o, artıq aldığı güllə yarasından dünyasını dəyişmişdi. Qeyd edim ki, mayor Samid İmanov iki ayağından güllə yarası alaraq ağır yaralanmışdı.

Biz Talış kəndinə mühasirəyə düşən yoldaşlarımızı qurtarmağa gəlmişdik. Orda olan kəşfiyyaçılarımızın fərdi hazırlığı və əzmkarlığı nəticəsində, həmçinin bizim güclü dəstəyimiz nəticəsində, 2 şəhid (gizir Dilsuz Qareyev və gizir Elimdar Səfərov) və bir neçə yaralı olmaq şərti ilə düşmən mühasirəsi yarıldı və kəşfiyyatçılarımız mühasirədən sızaraq xilas oldular. Həmin şəhidlərin cəsədlərindən düşmən əlinə keçən olmadı, digər kəşfiyyatçılarımız onların cəsədini döyüş meydanından çıxartmağı bacardılar. Onların xidmətləri çox böyük olub. Hesab edirəm ki, Milli Qəhrəman adına layiq olan şəhidlərdən biri də onlardır".

Kapitan Əliağa Zeynalovun Yenicag.az saytına verdiyi müsahibədən: "Düşmən qüvvələrinin bizim mövqelərimizi ələ keçirəcəkləri ilə bağlı kəşfiyyat məlumatı əldə etmişdik. Bunun qarşısını almaq üçün əməliyyata hazırlaşdıq. Aprel ayının 1-i gecə saat 23.00 radələrində düşmən postlarına yaxınlaşdıqda pusquya düşdük. 2 saata qədər döyüşdükdən sonra düşmən mövqeyini yarıb, onun arxasına keçdik. Saat 05:00-da Talış kəndi yüksəkliyini, Talış kəndini tam olaraq nəzarətə götürdük. Saat 06:00 radələrində Talış kəndində olan vacib obyektlər şəxsən mənim verdiyim koordinatlar vasitəsi ilə artilleriyadan açılan dəqiq yaylım atəşi ilə məhv edildi. Düşmənin xeyli

sayda əsgərini döyüş yoldaşlarımla birgə məhv etdik.

Düşmən elə bilirdi ki, biz pusquda məhv olmuşuq. Ancaq biz tam heyətlə Talış kəndində idik. Ona görə də Talış kəndində və onun ətrafında olan düşmənlər bizi öz əsgərləri hesab edirdilər. Düşmənin canlı qüvvəsi barədə məlumatları artilleriyaya çatdırırdım, onlar da dəqiq atəşlərlə onları məhv edirdilər. Bizə əmr gəldi ki, tutduğumuz mövqelərdə möhkəmlənək. Bir qrupumuz 4 dəqiqə ərzində 8 erməni əsgəri öldürdü və 22-ci postu tutdu. Şəhidlərimiz Elmidar Səfərov, Ravil Novruzov da o qrupda idi. Həmin postlar bir gün bizdə oldu.

Döyüşlərdə yaralılar və şəhidlərimiz vardı. Ona görə də bizə komanda verildi ki, yaralı və şəhidləri götürüb, Talış kəndindən geri çəkilin. Artıq düşmən bilirdi ki, Azərbaycan ordusu Talış kəndindədir. Onların xeyli sayda zirehli texnikası, topları, ordusu Talış kəndinə istiqamətlənmişdi. Çünki Talış kəndi yüksəkliyi çox strateji bir mövqedir. Talış kəndi yüksəkliyi Laçına qədər tam əhatəli müşahidəyə icazə verir. Necə ki, oradan Yevlaxa kimi görünürdü. Ermənilər o istiqamətdə olan bütün qüvvəni bizim üzərimizə yönəltdi. Biz ancaq Talış yüksəkliyində möhkəmləndik. Onlar canlı qüvvə ilə bizə cavab verə bilmədikləri üçün tanklardan istifadə etdilər. Murad Mirzəyev və digərləri mövqeyindən çıxmadı. Onları tankla vurdular. Döyüş yoldaşlarımızın əzmkarlığı onda göründü ki, avtomatla tanka heç nə edə bilməyəcəklərini bildikləri halda postu tərk etmədilər. O postlar bizdə qaldı.

Mən elə bir yüksəklikdə idim ki, erməni postlarında-

kı əsgərlərin necə qaçdığını görürdüm. Bizə lazım olan yerə qədər yaxınlaşdıqdan sonra onları snayperlə bir-bir məhv etdik. Şəxsən özüm 5-10 metrdən erməni əsgərlərini öldürmüşəm.

Bu döyüşlərdə elə bir yüksəklikdə dayanmışdım ki, hər yeri əlimin içi kimi görürdüm. Hansı koordinatı deyirdim, oranı dəqiqliklə vururdular. Qürur duyurdum. O səhnəni izləmək ayrı hiss idi".

Aprelin 3-dən başlayaraq Azərbaycan tərəfi Silahlı Qüvvələrin cəbhə xəttində birtərəfli qaydada düşmənə qarşı əks-həmlə əməliyyatını və cavab tədbirlərini dayandırdığını elan etməsinə baxmayaraq, Ermənistan tərəfi yenə də vəziyyəti gərginləşdirməkdə davam edirdi. Düşmən tərəfi itirilmiş mövqelərinin geri qaytarılması məqsədilə cəbhənin əsasən Ağdərə -Tərtər və Xocavənd - Füzuli istiqamətlərində mövqelərimizə hücum edib təmas xəttinə yaxın olan yaşayış məntəqələrini intensiv surətdə atəşə tutdu.

Qazi Elvin İbadovun Ordu.az saytına verdiyi müsahibəsindən:

"Döyüşlər zamanı yuxarı komandanlıq tərəfindən qarşımıza qoyulan tapşırıq düşmənin Gülüstan kəndi istiqamətində yerləşən strateji əhəmiyyətli kəşfiyyat təborunu şəxsi heyətlə birlikdə məhv etməkdən ibarət idi. Biz düşmənə ardıcıl və sarsıdıcı zərbələr vuraraq buna nail olduq. Ona görə də Talış kəndi istiqamətindəki yüksəklikdə bayrağımız dalğalandı.

Aprelin 4-ü səhər saatlarında biz onların postuna girib

darmadağın etdik. İnanın, arxalarına baxmadan qaçırdılar. Qıraq postu isə artıq bizim artilleriya vurmuşdu. Doğrudur, onların meyitləri üç gündür orada qalıb iylənirdi. Meyitlərini gəlib öz itləri yalayırdı. Bu, Ermənistan ordusunun öz əsgərinə, hərbi qulluqçusuna qoyduğu hörmət idi. Və əslində başqasının torpağını işğal edən və həmin orduya qulluq edən hərbçinin aqibəti bu cür də olmalı idi. Biz Vətənimizi qorumağa and içmişik. Bəs onlar nəyə and içib?

Uzun illər xəstə təxəyyüllə yaşayan düşmən, heç Arsax sözünün mənasına varırmı? Bu sözün mənası Ər Saklar deməkdir ki, o da türklərə - yəni bizim əcdadlarımıza deyilən kəlmə idi.

Aprelin 4-də səhər saatlarında ən gərgin döyüşlərimiz başladı. Yüksək rütbəli zabitlərimiz səngərlərdə bizim yanımızda, bizimlə birgə vuruşurdular. Bu böyük şərəf idi. Döyüşlərdə polkovnik Vüqar Yusifov, Raquf Orucov, Nurlan Abdullazadə, Sahil Şirinov, Təbriz Əsgərov, Elnur Əliyev, Murad Məmmədov şəhid oldular. Hər biri qəhrəmanlıqla irəli atılaraq şəhid oldu. Allah cəmi şəhidlərimizə rəhmət eləsin. Yoldaşlarımın qisasını almaq üçün içim yanırdı.

50-60 metr məsafədə üzbəüz döyüş gedirdi. Özü də elə bir döyüş oldu ki, onu təsəvvür eləmək çətindir. Burada mən danışsam da sizə fikrimi çatdıra bilmərəm. Amma orada elə bir döyüş oldu ki, sənin yoldaşın yanında şəhid olur, sən can atırsan ki, düşməni məhv edəsən... Bunu anlatmaq həqiqətən də çətindir. Səni yalnız bir şey

düşündürür - düşmən necə olursa-olsun qaçmalı, məhv edilməlidir. Onlar qaçmağa məcbur idilər. Görürdülər ki, rəşadətli Azərbaycan Ordusu gəlir, məcbur qaçırdılar...

Zirvəni elə aprelin 4-də fəth etdik. Azərbaycan Respublikasının üçrəngli, ay-ulduzlu bayrağı oraya sancıldı. Şəhidlərimizin az da olsa ruhu dincəldi. Bunun nə hiss olduğunu mənimlə yanaşı çiyin-çiyinə döyüşən qardaşlarım bilə bilər. Şanlı bayrağımız Vətənimizin, torpağımızın, şəhidlərimizin şərəfinə dalğalanırdı. Əminəm ki, şəhid komandirlərimiz də bizimlə birgə ona baxırdılar.

Erməni əsgərinə göstərdik ki, necə səssiz-səmirsiz onların başının üstünü kəsə bilərik. Heç özlərinin də xəbərləri olmurdu ki, erməni əsgərləri necə səssiz yoxa çıxır. Məhz buna görə XTQ üzvlərinə "səssiz ölüm makinası" deyirlər".

***

Ermənilər Talış kəndinə hücum edən zaman Emingilin bölməsi Lələtəpədə idilər. Aprelin 3-də onları Tap qaraqoyunlu istiqamətində Talış kəndinə, döyüş bölgəsinə göndərdilər. Axşama Emingil Tap qaraqoyunluya çatdılar. Yeməkdən dərhal sonra gizli tapşırıqlar alıb gecə əməliyyatına başladılar. Talış kəndində vəziyyət ağır idi, iki qrup mühasirədə qalmışdı. Onlar döyüşə gedərkən özləri ilə su belə götürmədilər ki, suyun yerinə patron götürək, onsuz da döyüşə girib çıxacağıq. Və dedikləri kimi, mühasirədəki iki qrupu qısa müddətdə mühasirədən çıxardılar.

Emingilin sonuncu döyüşü aprel ayının 3-ü Ağdərə rayonunun Taliş kəndi uğrunda olub. Emingilin bölməsi Talış kəndi istiqamətindəki döyüşdə əsl qəhrəmanlıq göstərdilər. O döyüşdə Məhəbbət Mirzəyev də olub. Palkovnik Vüqar Yusifovun komandanlığı altında Emin Bağırov döyüş yoldaşları ilə mühasirəni yararaq düsmən postlarının arxasına keçib düşməni darmadağın etdilər. Elə ilk döyüşdən üzüağ çıxdılar. Talış yüksəkliyində olan döyüşdə Eminin ən yaxın dostları Nicatla Təbriz də onunla idi. Əməliyyat baş tutmuşdu, onlar burda xeyli ərazi azad etdilər. Döyüş zamanı Emin yaralı əsgər yoldaşlarının döyüş bölgəsindən çıxarılmasında da əsl fədakarlıq göstərib.

Qarşı tərəfdən atılan top və mərmilər tükənmək bilmirdi. Qızğın döyüş gedən vaxt ətrafa mayor Ələsgər Eynullayevin ağır yaralanıb yüksəklikdə qaldığı barədə xəbər yayıldı. Təcrübəli hərbçilər mayoru güllə və mərmi yağışının altından xilas etmək haqqında fikirləşərkən, Emin bir göz qırpımında hamıdan xəbərsiz irəliyə atılıb, güllə altında qaçaraq gedib yüksəklikdə yaralı halda huşunu itirən mayoru çıxardı, gətirib təhvil verdi və silahını götürüb yenidən döyüşə qatıldı. Onun bu qəhrəmanlığından dostları həm heyrətdə idilər, həm də bu cəsarətə heyran qalmışdılar. Bütün hərbi əməliyyatlarda öndə gedən, 6 ay ərzində özünü ən cəsur döyüşçü kimi göstərən Emin Bağırov qızğın döyüşdə də həmin cəsarətini nümayiş etdirirdi.

Aprelin 3-də Tərtər rayonunun Talış kəndi ətrafındakı

yüksəkliklər və Seysulan kəndi azad olundu, Füzuli istiqamətində Ermənistanın pilotsuz uçuş aparatı vuruldu.

Aprelin 3-ü və 4-nə keçən gecə ərzində aparılan döyüşlərdə ermənilər canlı qüvvə və hərbi texnika sarıdan çoxsaylı itkilərə məruz qaldı.

Onlar gecədən səhərədək döyüşdülər. Aprelin 4-ü dan yeri ağarmağa başlamışdı, komandirlər Raquf Orucov, Vüqar Yusifov öndə gedərək, əsgərləri arxaları ilə Talış yüksəkliyinə aparıb, oranı azad etdilər. Oradan da düşməni qovub geri oturtdular. Gecədən başlamış döyüşlər hələ də davam etməkdə idi. Emingilin dəstəsi erməni postlarını dağıda-dağıda xeyli qabağa getmişdilər. Bu zaman onlara məlumat verildi ki, döyüşçülərimizin bir hissəsi mühasirəyə düşmək təhlükəsindədir, onlara kömək lazımdır. Dərhal deyilən istiqamətə döndülər, düşmən mövqelərinə sarsıdıcı zərbələr endirməyə başladılar. Xeyli tələfat verən ermənilər geri çəkilməyə məcbur oldular. Milli ordumuzun döyüşçüləri mühasirəyə düşmək təhlükəsindən xilas edildilər.

Kəşfiyyat komandiri polkovnik Vüqar Yusifovun sonuncu döyüşü aprel ayının 4-də Tərtər rayonu Talış yüksəkliyində olmuşdur. Kəşfiyyat komandirinin rəhbərliyi altında iki dəstə Gülüstan tərəfdən hərəkət edərək düşmənin 3 postunun arxasına keçmiş, ilk həmlə ilə birinci səngərdə olan 18 erməni əsgərini məhv etməklə postu götürmüşdü. Bu an təpənin başında gecəgörmə cihazı ilə düşmənin say çoxluğunu və yana doğru hərəkətini görərək, onların qüvvələrimizi mühasirəyə almaq fikrini

anlamış, tabeliyindəkilərə mövqelənmə barədə göstəriş vermişdi. Nəticədə düşmən hücumunu dəf edən kəşfiyyatçılarımız əks-hücuma keçərək növbəti 3-cü posta qədər irəliləmişdilər. Bu an düşmənin maskalanmış tankı önə çıxmış kəşfiyyatçılarımıza atəş açmışdı. Nəticədə ürəyi vətən-torpaq üçün döyünən iki cəsur komandir polkovnik Vüqar Yusifov və polkovnik-leytenant Raquf Orucov şəhid olmuşlar.

Düşmən tez bir zamanda xüsusi təyinatlıları və rezerv qüvvələri döyüşə cəlb etmiş, itirdiyi mövqeləri qaytarmaq məqsədilə əks-hücuma kecmişdi. Nəticədə qeyri-bərabər qüvvələr balansı yaranmış, ancaq cəsur komandirin 18 nəfərdən ibarət kəşfiyyat qrupu son nəfəsədək döyüşəcəklərinə and içmiş, dörd saatlıq qeyri-bərabər ağır döyüşdən sonra düşmən tankını partlatmış, 50 nəfərlik xüsusi təyinatlı erməni əsgərini məhv etmişdi. Bununla da postları düşmənlərdən təmizləməklə Azərbaycan hərb tarixində şanlı səhifə yazmışlar. Cəsur komandirin başçılıq etdiyi bu əməliyyatlarda ümumilikdə düşmənin 100-ə yaxın yaraqlısı məhv edilmişdir.

Aprel ayının 4-ü Talış kəndi ətrafında qızğın döyüşlər səngimək bilmirdi. Saat 11 radələri idi, 3 dost yenidən birləşib düşmənə qarşı döyüşə başlamışdılar. Onlara göz açmağa aman vermirdilər. Əslində qarşıdan kimsə həmlə gözləmədiyi halda, birdən minaatan mərmisi Təbriz və Nicat olan yerə düşdü. Təbriz Əsgərov elə yerindəcə həlak oldu, Nicat Abdullayev isə yaralandı, Yaxın dostu Təbrizin həlak olduğunu görən Emin onu götürmək üçün

özünü qabağa atdı. Elə bu zaman ermənilərin atdığı 2-ci mərmi Eminin yanında partladı və Azərbaycan Silahlı Qüvvələrinin Quru Qoşunları əsgəri, Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyatçısı Emin Bağırovun həyatına son qoydu.

Əvvəlcə məlumat yayıldı ki, Emingil minaya düşüb şəhid olublar. Amma sonradan komandirləri dedi ki, Emingilin dəstəsi minaya düşməyib, onlar ən qızğın ərazilərdə döyüşürdülər. Hətta bəzi yerlərdə ermənilərlə əlbəyaxa davaya giriblər, xeyli düşmən əsgərini məhv ediblər və bir neçə nəfər yaralı əsgərimizi güllə altından çıxarıblar.

***

Aprelin 4-ü Ermənistan ordusu itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə cəbhənin əsasən Ağdərə-Tərtər və Xocavənd - Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi, təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutdu. Amma döyüşçülərimizin şücaəti qarşısında düşmən məqsədinə nail ola bilmədi. Onların əlavə qüvvələr göndərməklə hücumu davam etdirmək planı da baş tutmadı. Hazırlıqlı bölmələrimiz tərəfindən düşmənin strateji baxımdan əhəmiyyətli Madagiz məntəqəsindəki hərbi bazasının qərargahına və "Erkrapa" erməni könüllülərini cəbhəyə gətirən avtobusa zərbə endirildi. Əməliyyat zamanı Ermənistan silahlı qüvvələrinin Ağdərə, Madagiz və digər yaşayış məntəqələrindən hərəkətə gətirmək istədiyi ehtiyat qüvvələri bölmələrimiz tərəfindən önləyici zərbələrlə dağıdıldı.

Aprelin 4-ü axşam saatlarında Ermənistanın 3 ədəd döyüş tankı heyətlə birlikdə güclü atəş vasitəsilə məhv edildi, cəbhənin Xocavənd - Füzuli istiqamətində isə Ermənistanın 2 ədəd tankını heyətlə birlikdə və hərbi əmlakla dolu 5 təkərli texnikasını sıradan çıxardılar.

O döyüşlərdə hərbçilərimiz 25 ilə yaxın düşmən nəzarəti altında olan və Goranboy rayonu ilə Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi istiqamətindəki bir çox yüksəklikləri və postları ermənilərdən geri aldılar.

Aprelin 4-ü axşam saatlarında və aprelin 5-nə keçən gecə ərzində bütün cəbhə boyu vəziyyət gərgin olaraq qaldı. Cəbhə xəttinin Xocavənd - Füzuli və Ağdərə - Tərtər istiqamətlərində itirilmiş mövqelərinin geri alınması üçün Ermənistan tərəfi qoşunların təmas xəttinə yaxın yaşayış məntəqələrini atəşə tutmaqda davam edirdi.

Aprelin 4-ü gün ərzində və aprelin 5-i səhər saatlarınadək keçirilən əməliyyat tədbirləri və cavab atəş zərbələri nəticəsində ermənilər 100-dən çox canlı qüvvə sarıdan itkiyə məruz qalıb, 20-dən çox hərbi texnikası – 6 ədəd tank, 15-dək artilleriya qurğusu tam sıradan çıxarılıb, möhkəmləndirilmiş mühəndis qurğuları məhv edilib.

Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Vaqif Dərgahlının verdiyi məlumata görə, 4 günlük Aprel döyüşlərində Ermənistana məxsus 320 döyüşçü məhv edilmiş və 500-dən artıq döyüşçü yaralanmışdır. Qarşı tərəfin 30-dək tankı və digər zirehli texnikası, 25-dən artıq artilleriya qurğusu sıradan çıxarılıb, Madagiz yaşayış məntəqəsində yerləşən qərargahı və əsas hərbi

hissələri məhv edilmişdi.

Hərbi əməliyyatlar zamanı Silahlı Qüvvələrimizin 88 hərbi qulluqçusu şəhid olub, 32 yaşayış məntəqəsi bombalanıb, 2 uşaq olmaqla 6 mülki şəxs ölüb, 26 nəfər ağır yaralanıb.

Tarix boyu bütün müharibələrdə satqınlıq və xainlik olub. Aprel döyüşlərində də onların ucbatından nə qədər şəhid verdik. Buna baxmayaraq, Azərbaycan əsgəri ön cəbhədə qarşı tərəfə aman vermədi. Öz ruh yüksəkliklərini qoruyaraq döyüşü davam etdirdilər. Allah xainlərə və satqınlara lənət eləsin.

Dünyada ən ağır yük dostunun, doğmasının nəşini çiyində və qollarının arasında daşımaqdır. Aprel döyüşlərində vətən torpaqlarını geri almaq üçün vuruşan hərbçilərimiz yaralı dostlarını və şəhidləri başları üzərində meydandan çıxarmışdılar...

Aprel döyüşlərinin hər bir şəhidi öz qəhrəmanlığı və fərdi xüsusiyyətləri ilə yadda qalıb:

Qabil Orucəliyevin övladı olmuşdu, bu xəbəri aldığı gecəsi şəhid olub. Emin Bağırov aprelin 1-i təxris idi, amma evə getmədi, döyüşə qatıldı, şəhid oldu. Mayor Samid İmanov hər iki ayağından, çiynindən aldığı qəlpə yaralarından döyüşə bilmədi, əsgərlərinə ərazini tərketmə əmri verdi. Əsgərlər geri dönəndə gördülər ki, mayor qumbaranı əlində sıxıb ki, özünü partlatsın, amma qrup buna icazə verməyib. O, yaralı gizirin döyüş meydanından çıxarılmasını əmr edib. Həmin giziri çətinliklə də olsa oradan çıxarıblar, geri gəldikdə mayor İmanov orada

olmayıb. Dediklərinə görə bir neçə yüz metr meşəyə doğru çəkilib, orada kəskin qan itirmədən şəhid olub. Polkovnik-leytenant Murad Mirzəyev başından qəlpə yarası alıb. Türkiyə XTQ-nin böyüyü ona qılınc hədiyyə etmişdi. Məhəbbət Mirzəyev Çində təlim keçmişdi, XTQ zabiti idi. Digər bir mayor əsgərləri xilas etmək üçün bombanın üstünə uzanıb. Murov Qartalı ləqəbli Raquf Orucov erməni əsirliyində olan 7 əsgəri xilas etmək üçün özünün kəşfiyyat dəstəsi ilə erməni rütbəli hərbçinin yaxınını qaçırıb, məcbur qalan düşmən komandiri 7 əsgərlə öz yaxınını dəyişib. Şəhid Cabbarxan qrad mərmisi ilə şəhid olub, bədəni Xocasəndədir, bir ayağı da Lələtəpədə dəfn olunub. Şəhid Mahir Quliyev yaralanıb, yarasını sarıyıb döyüşə qayıdıb, qanaxmadan və sonrakı yaralardan şəhid olub. Və bir çox XTQ hərbçiləri Talış kəndində minaya düşüb. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Murad Mirzəyev, Elnur Əliyev, Samit İmanov, Raquf Orucov, Dilsuz Qarayev, Bəxtiyar Hüseynov, Nicat İsgəndərov, Sarvan Mehrəliyev, Emin Bağırov... - Aprel döyüşlərində böyük hünər, rəşadət göstərərək şəhidlik zirvəsinə yüksəlmiş Vətən oğullarının hamısı qəhrəmandır. Onların 2016-cı ilin aprelində cəmi bir neçə gün davam edən döyüşlərdə göstərdikləri qəhrəmanlıq nümunələri indi hər bir Azərbaycan gənci üçün sözün həqiqi mənasında bir örnəkdir. Çünki onlar şəhid olsalar da, 1-ci Qarabağ müharibəsində məğlub olmuş Azərbaycan Ordusunu qalib orduya çevirə bildilər. Elə öz adlarını da Azərbaycan xalqının qəhrəman oğulları kimi tarixə yazdılar.

Bu gün də hamı onların döyüş yollarından danışır, şərəflə yaşadıqları həyatlarından filmlər çəkilir, məqalələr, şeirlər, kitablar yazılır, barələrində mahnılar qoşulur, onların xatirəsinə həsr olunmuş tədbirlər, idman yarışları keçirilir. Hər birinin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərimizin isə and yerinə çevrilib.

Aprel şəhidləri arasında kəşfiyyatçı polkovnik-leytenant Raquf Orucov haqqında da çox danışılır. O, sözün əsl mənasında qəhrəman idi! Raquf Orucovun düşmən arxasında uğurla həyata keçirdiyi bir neçə xüsusi əhəmiyyətli əməliyyatlar var ki, bunlar Azərbaycan Silahlı Qüvvələrinin tarixində nadir əməliyyatlardan sayılır. Raquf Orucov Azərbaycan Ordusunun polkovnik rütbəsində şəhid olan ilk zabitidir, ilk hərbi hissə komandiridir. Raquf Orucov şəhid olduğu günədək bir çox təltiflərə, o cümlədən Ali Baş Komandanın müvafiq fərmanları ilə "Hərbi xidmətlərə görə" və "İgidliyə görə" medallarına layiq görülüb. Cəmi 42 il ömür sürməsinə baxmayaraq, həyat və döyüş yolu çox zəngin və nümunəvi olub. Raquf Orucov haqqında dildən-dilə gəzən xatirələr və qəhrəmanlıq hekayələri bitib-tükənmək bilmir.

Aprel döyüşləri bir daha ordumuzun güc və bacarığını düşmənə subut etdi və düşmən bildi ki, onun qarşısında keçən əsrin sonlarındakı kimi pərakəndə ordu yox, daha güclü, daha hazırlıqlı və müasir silah və təchizatla təmin olunmuş bir ordu dayanıb. Düzdür, itkilərimiz oldu, əlbəttə ki, müharibədə itki olması qaçılmazdır, qanla verilən torpaq qanla da alınmalıdır. Lakin bu bizim döyüş

ruhumuzu heç vaxt söndürə bilməz. Əksinə, döyüş təcrübəmiz bir qədər də artdı, düşmənin mənfi və müsbət cəhətlərini bir daha özümüzdə təhlil etdik və gələcək döyüşlərdə daha uğurlu qələbələrə nail olmaq üçün bizə bir növ öz gücümüzü xatırlatdı.

Aprel ayının 2-dən 5-dək cəbhə xəttində baş verən döyüş əməliyyatları və Azərbaycan Ordusunun qazandığı uğurlar 22 illik atəşkəs dövrü də daxil olmaqla ən mühüm hadisələrdən biri kimi hərb tariximizə yazıldı.

Azərbaycan Ordusunun bölmələri qısa müddətdə qarşılarına qoyulmuş bütün döyüş vəzifələrini şərəflə yerinə yetirərək, mühüm yüksəklikləri düşməndən azad etməyi bacardılar. Döyüşlər Azərbaycan Ordusunun hərbi-texniki, döyüş, taktiki, peşə hazırlığı və qarşılıqlı döyüş əlaqələndirilməsi üzrə düşmən üzərində tam üstünlüyünü əyani göstərdi.

Döyüşlər gedən vaxt paytaxt Bakı olmaqla ölkəmizin bütün regionlarında üçrəngli Azərbaycan bayrağı hər addımda dalğalanırdı, gənclərimiz "Yaşasın Azərbaycan!", "Qarabağ bizimdir, bizim olacaq" və s. kimi şüarlarla yürüşlər keçirir və ordumuza dəstək olduqlarını, onlarla həmrəy olduqlarını nümayiş etdirirdilər.

Aprelin 5-də saat 12.00-dan etibarən Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində tərəflərin razılığı ilə əməliyyatlar dayandırıldı. Razılaşma Moskva şəhərində Azərbaycan və Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisləri arasında əldə edilib. Ancaq bir neçə dəqiqə sonra qarşı tərəf yenidən təmas xəttində atəşkəsi

dəfələrlə pozub. Azərbaycan Ordusunun Silahlı Qüvvələrinin bölmələri azad edilmiş torpaqlarda möhkəmləndirmə işlərini həyata keçirdi - yeni mövqelər quruldu və mühəndis-istehkam tədbirləri həyata keçirildi.

Aprel döyüşlərində digər ordu birləşmələri ilə yanaşı Xüsusi Təyinatlı Qüvvələrin əməyi danılmazdır. Dəfələrlə düşmən arxasına keçib, xüsusi əməliyyatlar edən XTQ aprel döyüşləri zamanı ordumuzun önündə olub.

Azərbaycan Ordusunun bölmələri Aprel döyüşləri zamanı əməliyyatları həm cənubda Lələtəpə, həm də şimalda Talış kəndi istiqamətində əlavə qüvvə cəlb etmədən, əraziyə cavabdeh briqadaların iştirakı ilə aparıb. Bu bir daha onu deməyə əsas verir ki, ordumuz işğal altındakı ərazilərdə, özü də strateji yüksəkliklərdə mövqe tutmuş, orada illərdən bəri möhkəmləndirmə işləri aparmış düşməni kiçik qüvvə ilə darmadağın etməyi bacarıb.

Aprel ayının əvvəlində Azərbaycan Ordusu düşmənə hələ uzun müddət unuda bilməyəcəyi sarsıdıcı zərbə vurdu və dördgünlük müharibə az da olsa, xalqımıza qələbə sevinci yaşatdı.

***

Aprelin 5-i idi, Eminin atası çox narahat idi, elə bil içində hiss edirdi ki, Emini bir daha görməyəcək. Qardaşı Abdulla dedi:

- Ay İmran, toy var, gəl gedək toya, müharibə dayanıb, bir şey olsaydı xəbər gələrdi.

İmran kişi fikirli və narahat olsa da razılaşdı və bərabər toya getdilər.

Eminin şəhidlik xəbərini komissarlıqdan demişdilər, bütün Binəqədi rayonu, kənd, məhlə camaatı xəbəri bilsə də, İmrangildən gizli saxlayırdılar, ürək eləyib xəbəri onlara deyə bilmirdilər.

Həmin gün Yaqub dostu ilə marketdə oturmuşdu, bir nəfər gəldi, salam verdi və dedi:

- Qaqaş, Dağlı məhləsində şəhid var, tanımırsan hansı qapıdı?

Yaqubun ürəyi düşdü, ilk ağlına gələn Emin oldu. Bilirdi ki, onun gözündə qorxu yoxdur, hər yerdə özünü irəli atır. Həm də müharibədən, savaşdan qaçan oğlan deyil. Həyəcanla dedi:

- Sən nə danışırsan, mənim qardaşım əsgərdi.

Oğlanın rəngi qaçdı, tutuldu, tələsik kontur aldı və dükandan çıxdı.Yaqub onun arxasınca çıxdı, gördü ki, oğlan tələsik maşına mindi və getdi.

Yaqub atasına zəng etmədi ki, birdən-birə desə ona pis təsir edər, böyük əmisi Abdullaya zəng elədi:

- Əmi, bir nəfər gəlib dedi ki, kənddə şəhid var, sizin küçədəndir.

Əmisi həyəcanla:

- Ola bilməz, - dedi.

- Əmi, gəlin, gedək Hərbi komissarlığa, Emindən bir xəbər bilək.

Abdulla kişi İmran kişiyə dedi ki, dur gedək, deyirlər şəhid var. İmran kişi maşına mindi ki, marketə Yaqubun

yanına getsin. Abdulla kişigil getdilər komissarlığa, orda Emini soruşdular. Komissarlıqda xəbəri təsdiqlədilər.

Vüsal şəhərdən gəldi, gördü ki, Yaqubun vəziyyəti pisdir, əsəbləşib, soruşdu ki, nolub? Yaqubnan mağazada oturan dostu Vüsalı kənara çəkdi və dedi:

- Möhkəm ol, qardaş, Emin şəhid olub.

Canından çox sevdiyi dostunun şəhidlik xəbərini eşidən Vüsalın dizləri boşaldı, yıxıldı yerə, başladı ağlamağa.

Yaqubun zəng etməyindən heç yarım saat keçməmişdi, marketdə idi, gördü ki, atası girdi marketə, bərabər evə gəldilər. Atasının dayısı oğlu Oktay evdə idi, Yaqub həyəcanla Eminə təkrar-təkrar zəng edirdi, amma telefonu açan yox idi. Nəhayət telefonu açdılar, döyüş yoldaşları idi, telefon onlarda idi, dedilər ki, əmi gözlə telefonu veririk Eminə. Amma Emin onda şəhid olmuşdu, deyə bilmirdilər. Sonra daha heç o telefona zəng çatmadı.

Yaquba Abdulla əmisindən zəng gəldi. Yaqub danışa bilmirdi, telefonu verdi böyük əmisinin yoldaşı Mehriban xanıma. Əmisi ona dedi ki, bəs Emin şəhid olub. Sonra Oktay dedi ki, durun gedək komissarlığa. Elə Yaqub, atası və Oktay bayıra çıxıb maşına minmişdilər ki, gördülər böyük əmisi gəldi maşından düşdü. Atası soruşdu ki, Hicran, nolub? Əmisi başını aşağı saldı ki, bəs Emin şəhid olub. İmran kişi ayaq üstə donub qalmışdı, çünki, həmişə Eminə nəsə olanda dərhal hiss edərdi. Əsgərlik vaxtlarında da onun vəziyyətini yanında olmaya-olmaya hiss edirdi. Dərhal gedirdi, görürdü ki, doğrudan da nəsə olub. Amma indi özünü bağışlaya bilmirdi ki, necə olub

ki, Eminin şəhid olacağını hiss eləməyib.

Evdə isə nənəsi və anasının heç nədən xəbəri yox idi, amma narahat idilər – nə otura bilirdilər, nə yata, nə də çörək yeyə. Ağıllarına da gəlmirdi ki, Emin şəhid olacaq.

Emini evə qəhrəman kimi gətirdilər. Qapılarından üçrəngli Azərbaycan bayrağı asdılar. Eminin tabutu həyətə gələndə babası Vəzirxan kişinin naləsindən yer-göy titrədi. Bu kəndin içərisində hələ kimsə belə dil deyib, ağlamamışdı. Emin bu həyətə sevdiyi qızın - gəlininin qolundan tutub bəy paltarında girməliykən, dostlarının, hərbçilərin çiyinlərində gəlmişdi.

Aprelin 6-da cənazə qaldırılanda Xatunzadə xanım qışqıra-qışqıra çıxdı dalınca, sanki ağlı başında deyildi. Emin Bağırovu Bakı şəhərinin Binəqədi rayonunda bitib-tükənməyən insan izdihamı ilə son mənzilə yola saldılar. O, Binəqədi rayonunun ilk şəhidi idi. Binəqədi qəsəbə qəbiristanlığında torpağa tapşırılan Emin Bağırov Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında, yaylım atəşinin açılması ilə torpağa tapşırıldı. Emini dəfn edəndən sonra cənazəsinə bükülmüş Azərbaycan bayrağını atasına təhvil verdilər.

Emini dəfn edəndə Vüsal baxırdı, göz yaşları axa-axa elə bilirdi ki, Eminin torpağı nəfəs alır. Danışırdı, elə bilirdi ki, Emin onunla danışır.

Dəfn mərasimində Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, Milli Məclisin deputatları Azay Quliyev və Madər Musayev, Müdafiə Nazirliyinin nümayəndələri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış

üzrə Binəqədi rayon İdarəsinin rəisi Mehman Qurbanov, rayonun hüquq-mühafizə orqanları, rayonun müəssisə və təşkilatları, Eminin oxuduğu məktəbin kollektivi, İctimai Şuranın üzvləri, ictimai birliklər, 1-ci Qarabağ müharibəsinin iştirakçıları, YAP Binəqədi rayon təşkilatının fəalları, gənclər, o cümlədən, rayon sakinləri iştirak edirdilər.

Dəfn mərasimində "Şəhidlər ölməz, Vətən bölünməz", "Vətən, sənə canım fəda"və s. şüarları səsləndirildi. Cənazə namazı qılındıqdan sonra şəhidin ruhuna dualar oxundu, Allahdan rəhmət diləndi.

Dəfn mərasimində iştirak edən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov Aprel döyüşləri haqqında qısa danışdı, şəhidin yaxınlarına və rayon ictimaiyyətinə bildirdi ki, şəhid Bağırov Emin Azərbaycanın suverenliyi uğrunda qəhrəmancasına həlak olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Şəhidi son mənzilə yola salmağa gələn insanlar, xalqımızın milli ruhu, vətənpərvərlik duyğuları onu deməyə əsas verir ki, Azərbaycan xalqı öz torpaqlarını qısa zamanda işğaldan azad etməyə hazırdır.

Dəfndə iştirak edən Azərbaycan Müdafiə Nazirliyinin nümayəndəsi Hafiz Həsənov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Binəqədi Rayon İdarəsinin rəisi Mehman Qurbanov, mərhumun tarix müəllimi Qoşqar Hümbətov şəhid Emin Bağırovun Vətənin azadlığı uğrunda nümayiş etdirdiyi qəhrəmanlıqlardan bəhs edərək yaxınlarına başsağlığı verdilər. Sonra hərbi qulluqçuların şəxsi heyətlə iş üzrə müavini söz aldı:

"Xidmət ərzində müxtəlif xüsusi hazırlıqlar və kurslar bitirən Emin Bağırov bir neçə dəfə düşmənin silahlı təxribatının qarşısını almaq məqsədilə keçirilən döyüş əməliyyatlarında iştirak edib. Öz silah yoldaşları ilə birgə düşmənə sarsıdıcı zərbələr endiribdir. Xalqımıza qarşı törətdikləri vəhşiliklərə görə Emin Bağırov erməni daşnaklarına hədsiz dərəcədə nifrət edərdi. Düşünürəm ki, onu döyüşlərdə düşmənə qarşı amansız və qəhrəmancasına vuruşmağa sövq edən də məhz bu amildir. Emin Bağırovun göstərdiyi qəhrəmanlıq nümunələrini onun döyüşçü dostları və xalqımız böyük qürur hissi ilə xatırlayacaq. Yaddaşlarımızda o, vətənpərvər, sədaqətli dost, qoçaq, qorxubilməz igid döyüşçü kimi əbədi yaşayacaqdır. Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində ordumuzun gücü, qüdrəti artmış və formalaşmışdır".

Dəfndən sonra insanlar getsələr də, məzarın yanında bir pişik oturmuşdu, gözünü məzardan ayırmırdı. Qəbiristanlığın işçisi Mirzə kişi ailəsinə dedi ki, bu qəbir hələ təzə qazılanda bu pişik gəlib onun qabağında oturub gözləyirdi. Sanki bilirdi ki, bu qəbir kimin adınadır. İndiyədək də o pişik Eminin məzarının yanından çəkilmir.

Dəfndən sonra İcra nümayəndəsi Emingilə gəldi və İmran kişiyə bildirdi ki, 40 və il mərasiminin bütün xərclərini İcra Hakimiyyəti çəkəcəkdir.

Emindən sonra Binəqədi rayonuna 3 şəhid də gətirdilər.

Vüsal Emin şəhid olduğu gündən onun ailəsini bir gün də olsun tək qoymadı. O, Eminin qırxınadək özünü heç yaxşı hiss eləmirdi. Yuxu ilə oyaqlığı qarışdırmışdı bir-birinə. Uşaqlıqlarından indiyədək olan günləri gözlərinin önündən çəkilmirdi. (Dəyərli oxucularım, qeyd edim ki, Vüsal 2-ci Qarabağ – Vətən müharibəsində qəhrəmanlıqla şəhid olmuşdur.)

Eminin sevdiyi qız Eminin şəhid olduğuna inanmırdı. Vüsaldan soruşmuşdu, o da təsdiqləmişdi. Bu dərdli, hüznlü gözəl hər gün Eminin məzarını ziyarətə gələr, məzara tər çiçəklər qoyar, xəyalən Eminlə söhbət edər, ona ondan gileylənər, acı dolu göz yaşları tökərdi. O, yaxşı bilirdi ki, belə bir igidi ömür boyu unuda bilməyəcək. Həyatı boyu Eminin həsrəti, xatirəsi onun qəlbində yaşayacaq...

Eminin dəfnindən sonra Vəzirxan kişinin vəziyyəti yaxşı deyildi. Daha ağlamasa da, Eminin dərdi ürəyinə yük olmuşdu, hər gün Eminin şəklini qabağına qoyub saatlarla baxar, şəkillə danışardı. Evdəkilərdən tələb edirdi ki, şəkil gözümün qabağında olsun, hər gözümü açanda ona baxım.

Anası Sədaqət xanım gecə-gündüz ağlayır, heç cür özünə gələ bilmirdi. Qohum-əqraba, qonum-qonşular onu sakitləşdirməyə çalışsalar da xeyri yox idi. Bunu görən Xatunzadə nənə dedi:

- Ağlasın, qoyun ağlasın, o da ağlamayacaq, kim ağlayacaq? Qoyun ürəyini boşaltsın, yoxsa ürəyi dözə bilməz, partlayar.

Hansı kitabdasa belə haqlı bir fikir oxumuşdum: "Şə-

hid anasının kədəri, qəmi özü də şəhiddir dərdlər içində". Axı şəhid oğulların analarının əbədiyyətədək ürəklərinin başında şəhid dərdi yaşadırlar. Belə analara bir təsəlli, bir təskinlik də vermək olmur. Övladını itirən bir ana üçün hər gün ilk gündür, hər gün bu dərd təzədir, bu iztirab, bu ağrı, acı, bu əzab köhnəlməz, bu yara qaysaqlamaz. Allah heç bir anaya övlad itkisini, heç bir övlada da ana itkisini yaşatmasın.

Xatunzadə nənə dərddən heykələ dönüb, gah öz-özünə, gah da Eminlə danışır: "Görməyəcəyin bayramlar, öpüb-qoxlamadığın sevdalar, yerdən göyə yüksələn dualar borcluyuq sənə, Emin balam. Bəs bayramda gələcəkdin, niyə gözümüzü yollarda qoydun, ay Emin?..."

Atası İmran kişi hər gecə Eminin paltarlarını qucaqlayıb yatır, balasının ətrini paltarlarından alırdı. İçin-için yanan ürəyinin yaşları gözlərindən səssizcə süzülürdü.

Şəhid olandan sonra Emin əmisinin yuxusuna gəlib deyib ki, mən ölməmişəm, sağam, nəyə ağlayırsınız?

Qardaşı Yaqub üçün Eminin yoxluğu çox ağır idi. Eminin danışığı, səsi üçün çox darıxırdı. Bircə dəfə səsini eşitmək üçün nələri verməzdi ki... Amma dediyinə görə Emin tez-tez yuxularına gəlir. O, evdə tək olanda da, hər an Emini düşünürdü, bir dəqiqə də olsa, onu unuda bilmirdi. Telefonunun ekranında, kompüterində Eminin şəkli vardı, sanki hər an Eminlə idi. Evdə tək olanda Emin yadına düşür, kövrəlirdi, evin harasına baxsa onu görürdü. Bir dəfə yuxuda gördü ki, Emin gəlib deyir ki, sən tək deyilsən, Yaqub, mən sənin yanındayam... Bütün uşaqlıq

və məktəb illərini Eminlə bərabər keçirən Yaqub sanki canının yarısını itirmiş halda... Hər gün Eminin xəyalı ilə söhbət edir: "Bu gün yenə xatirələrinlə baş-başayam, Emin. Baxışlarının izləri hələ gözlərimdədi. Evdə, eşikdə baxdığım hər yerdəsən. Sənsiz günlərim keçməz oldu, elə üzgünəm ki, yaşamağa daha gücüm yoxdu...".

Yaqub Eminlə hələ uşaqlıqdan fəxr edirdi, onun yarışlardakı qələbələrinə çox sevinirdi. Çünki, Emin əlbəyaxa döyüş növü üzrə, idmanın uşu növü üzrə respublika çempionu idi. Həm də kəskin nişançı idi, atdığı güllə də, ox da həmişə hədəfə dəyirdi. Yaqub indi əziz qardaşı ilə daha çox fəxr edirdi ki, o, əsgərlikdə belə hörmət və ad-san qazanıb.

İndi bu atəşi kim söndürə bilər? Bir atanın ürək ağrısını hansı dərman dayandırar? Bir ananın gözlərini hansı günəş aydınladar? Hansı əl yanmadan onun saçlarına toxunar? Bu ananın üsyanı gözlərindən axır. Bir ananın ürəyi hər gün quzum deyə bağırır. Bu acı onun ciyərlərini parçalayır. Oğul məzarının başında ana hər gün inləyir: "Mən sənlə getdim, Emin". Emin "Vətən" dedi, and içdi, ana "oğlum" dedi, ərşi titrətdi. Hər gün oğlunun məzarını ziyarətə getdi...

Düşünürəm, görəsən sizi güldürəcək bir səbəb, bir məkan... varmı bu dünyada?

Dəfndən sonra İmran kişi dayısı oğlu Oktay ilə Bakıda hərbi hospitala getdilər. Mayor Ələsgər Eynullayev hospitalda komada idi. Eminin əsgər yoldaşları yaralı yatırdılar. Telefonlarında Eminin şəkillərinə baxıb gah ağlayır,

gah da şəkillə canlı insan kimi danışırdılar. İmran kişi ilə Abdulla onları qucaqlayıb görüşdülər, Emini soruşdular. Heç biri danışa bilmirdi, bəziləri adyalı çəkirdi üzünə. İmran kişigil axtarırdılar ki, Emin vurulanda kimin yanında olub. Hərə bir şey deyirdi. Nicat adlı bir oğlan içəri girdi, onları görüb İmran kişidən soruşdu:

- Əmi, siz Eminin atasısınız?

- Hə, oğlum.

- Emin mənim yanımda olub. Bilirsiniz, Emin döyüşdən əvvəl mənə dedi ki, sən döyüşə getmə, evin tək oğlusan, sənin əvəzinə mən gedəcəm...

Emin dəfn olunandan sonra XTQ-dən əsgər yoldaşları gəlmişdilər onlara, söhbət vaxtı biri dedi ki, Yaqub, bilirsən, sənin qardaşın necə qəhrəman oğlandır?

- Bilməyinə bilirəm, qardaşım, danış görüm nolub?

- Kurs zamanı guya biz əsir düşmüşdük. Orda Eminə Azərbaycanın bayrağını verdilər ki, tapdala. Emin bayrağı qoydu ürəyinin üstünə, köynəyinin yaxasını bağladı. Ona görə onu 3 gün saatlarla döymüşdülər ki, dözümünü yoxlasınlar.

O, şəhid olandan sonra əsgər dostları evə gələndə onun şəkillərini görüb deyiblər ki, Emin əsl kəşfiyyatçı olub. Bu şəkilləri necə göndərib ki, heç kim bilməyib.

Eminin bıçağı vardı, necə atsan mütləq hədəfə dəyirdi. Atası o bıçağı istədi, döyüş dostları dedilər ki, o bıçaq erməni ilə əlbəyaxa döyüşdə ermənin sinəsində qaldı.

Döyüş dostları deyirdilər ki, Emin özü öz qisasını er-

mənilərdən alıb. O, XTQ-nin ən gənc, cəsur, qorxubilməz – 19 yaşlı döyüşçüsü və şəhididir.

İmran kişi dostları Ələsgər və Elman ilə Eminin döyüşdüyü, xidmət etdiyi yerlərə getdi. Orada onları qarşılayan polis ilə balası gəzən yerləri addım-addım gəzdi. Emingilin azad etdikləri ərazilərə baxdı. Kifayət qədər böyük bir ərazi geri qaytarılmışdı. Yanındakı polisə dedi ki, əgər orduya bir qədər də şərait yaradıb icazə versəydilər, yəqin ki, daha böyük əraziləri azad edərdilər.

Emin şəhid olandan sonra oxuduğu məktəbin bütün uşaqları əsgər olmaq istəyirdi. Məktəbin bütün kollektivi və şagirdləri zaman-zaman onun məzarını ziyarət edir. Emin şəhid olandan sonra Zinyət xanım Xatunzadə nənəyə demişdi ki, şahım getdi.

Emin şəhadəti ilə İmam Hüseyn(ə) məktəbindən dərs alan minlərlə Azərbaycan oğullarından biri oldu.

Aprel döyüşlərindən sonra ölkəmizin bütün şəhər və rayonlarında aprel şəhidləri ilə bağlı mütəmadi olaraq tədbirlər keçirilməyə başlandı.

Aprelin 19-da Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi, YAP Binəqədi rayon təşkilatının və Binəqədi Mərkəzi Mədəniyyət Evinin təşkilatçılığı ilə "Torpaq, uğrunda ölən varsa Vətəndir" adlı tədbir keçirildi.Tədbir qoşunların təmas xəttində son günlər gedən döyüşlərdə şəhid olmuş Binəqədi qəsəbəsinin sakinləri Emin Bağırov və Fəxrəddin Qurbanlının əziz xatirəsinə həsr olunmuşdu.

***

2016-cı il mayın 14-də qoşunların təmas xəttində torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına şəhid olmuş Eminin 40 mərasimi idi. Mərasiminin bütün xərclərini Binəqədi rayon İcra Hakimiyyəti çəkdi. Binəqədi rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə şəhidin adına layiqli qəbirüstü götürüldü, məzarın ətrafına xeyli gül-çiçəklər əkildi və yüksək səviyyədə abadlaşdırıldı.

Mərasimdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, millət vəkilləri Madər Musayev və Kəmaləddin Qafarov, RİH başçısının müavinləri və aparatın şöbə müdirləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, rayon bələdiyyələri, idarə, müəssisə və təşkilatların kollektivləri və bir çox ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən şəhid Emin Bağırov müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif olundu. Medal şəhidin atası İmran Bağırova təqdim edildi.

Mərasimdə iştirak edən Müdafiə Nazirliyinin nümayəndəsi şəhidin keçdiyi döyüş yolundan, onun döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan danışdı.

40 mərasimində iştirak edən Bakının hörmətli ruhaniləri Eminin ruhuna "Yasin" oxuyub, şəhidlər haqqında

moizələr və dualar etdilər. Əziz oxucularım, mərasimdə iştirak edən Məşədi Dadaş Məscidinin imamı, ilahiyyatçı hacı Şahin Həsənlinin şəhidlər haqqında söylədiyi moizənin video görüntülərini YouTube.com kanalından izlədim və diqqətimi çox çəkdi. Həmin moizənin bir hissəni sizlərə çatdırmaq istəyirəm:

"Bir ana üçün şəhid övladından yadigar qalan ancaq cənazəsidir. Ondan da rahat şəkildə keçməyə hazırdır. Bax bu bizim xalqımızın əhval-ruhiyyəsidir. Mən fəxr edirəm, belə analarımızın əllərindən öpürəm. Şəhidimizə Allahdan rəhmət diləyirəm. Mən şəhidlərimizin ailəsinə təskinlik vermək də istəmirəm, şəhid ailəsinə təbrik deyirlər adətən. Doğrudan da, şəhid ailəsi başını uca tutmalıdır və ümid eləməlidir, şübhəsi olmamalıdır. Şəhid Qiyamət günü öz qohumlarından 70 nəfərə şəfaət eliyə bilir. Allah şəhidə bu hüququ verib. Ona görə də, Allahdan şəhidlik arzu edirəm – özümə və bütün arzusunda olanlara. Mənim də bir oğlan övladım var, yaşı azdı, bu şəhidin məclisində Allaha and verirəm bu şəhidin müqəddəs ruhuna, Allah mənim övladıma da şəhidlik nəsib eləsin.

Şəhidin misalı şam misalı kimidir. Səhərdən axşamadək müxtəlif işlərlə məşğul oluruq, unuduruq ki, bizim bu işlərimizə şərait yaradan, onu təmin edən, bizim varlığımızı təmin edən insanlar yolumuza işıq saçan şəhidlərimizdir. Bu, şəhidin həqiqətidir, şairanə deyilmiş sözlər deyil. Şəhid bir millətin, bir xalqın bütövlüyünü, varlığını təmin edən əsas şəxsiyyətdir.

Peyğəmbər(s) haqqında "Quran" buyurur: "Sən insanlar üçün işıqlı, nur saçan çıraqsan". Çıraq sözü peyğəmbər (s) haqqında işlənib, şəhidlər haqqında da o söz işlənə bilər.

Şəhid aşiqdir, aşiq olmayan şəhid ola bilməz, qismət olmaz. Bu ayəni mən neçə dəfə demişəm. "Qurani-Kərim"də "Yasin" surəsində var: "Şəhidə dedilər: Cənnətə daxil ol. Cənnətə ayağını qoyan kimi dedi ki, kaş qövmüm biləydi, kaş Dünyadakilər biləydi". Şəhid Cənnətə daxil olur, Cənnəti görüb məftun olmur. İstəyir Cənnəti onlarla bölüşsün, özü də onu daşdıyıb öldürənlər üçün deyir".

Binəqədinin kənd qəbiristanlığında, məzarlığın girişində, ən yüksək yerdə Eminin qara mərmərdən məzarı ucalır. Önündə Eminin şəkli, sinə daşında öz şeiri, arxasında əli silahlı fotosu həkk olunub. Buradan Bakının hüdudları görünür. Anası Sədaqət xanımın dediyinə görə məzarın yanında bir pişik yatır, Emin dəfn edilən gündən bu pişik onun məzarının ətrafından çəkilmir.

Məzarının üstündə yazılan şeiri Emin özü yazmışdı və birinci Vüsala göndərmişdi ki, bax, necədir, xoşuna gəlirsə paylaşım:

"Əsgər oldum, gedirəm irəli.
Haqqını halal et anam,
Bəlkə qismət olar, şəhid oldum!
Bayram günü bayram payımı saxlama,
Şəhid olsam, qəbrim üstə ağlama.

Düzdür, varlı deyiləm,
Amma adım yüksəklərdədir!
Azərbaycan əsgəri kimi".

Vüsal şeiri oxuyub ona yazmışdı:

- Yaxşı yazmısan, qardaşım, amma belə şeylər paylaşma.

- Ürəyimə damıb, Vüsal, bilirəm şəhid olacam.

Bir gün İmran kişi anasına dedi:

- Ana, elə bil ürəyimə bir ox batıb, istəyirəm ürəyim partlayanacan qışqıra-qışqıra qaçım. Eminə görə ürəyim partlayır, bir uzaq yer istəyirəm ki, qaça-qaça gedim oralara, səsim yayıldıqca "Emin" deyib qışqırım, oğlumu çağırım, bəlkə səsimi eşidə...

Hər gecə Yaqub, İmran kişi, Eminin anası Sədaqət xanım Eminin məzarını ziyarətə gedirlər. Məzarın ətrafında işıqlar yanır. Xatunzadə xanım nə qədər yalvarsa da, İmran kişi onu qəbir üstə getməyə qoymur:

- Evlər yaxındır, ana, səsini eşidirlər.

- Neynim, ay oğul, özümlə bacarmıram.

***

Eminin 40-ından sonra Yaqub sosial şəbəkələrdə Eminin adına səhifələr, YouTube kanalı açdı və Eminin olduğu döyüşlərdən görüntüləri, Eminin şəkillərini bu günədək orada paylaşır.

Eminin 40-ından sonra evlərinə müxtəlif qəzet, jurnallardan və saytlardan jurnalistlər gəlmişdilər. Ailəsinə

müxtəlif suallar verir, müsahibələr götürür, işlədikləri mətbu orqanda – saytlarda, telekanallarda, İnternet TV-lərdə, qəzet və yurnallarda onun haqqında geniş məqalələr yazır, verilişlər hazırlayırdılar. Mən o müsahibələri oxudum, video kadrları izlədim, onlardan bir qismini, əziz oxucularım, sizinlə paylaşmaq istəyirəm.

Yaqub: "Hamımız qisas haqqında düşünürük. Hamımız silaha sarılmağa hazırıq. Biz bu gün də Ali Baş Komandanın əmrini gözləyirik, qisas hissi ilə yaşayırıq. Allah bütün şəhidlərimizin ailəsinə səbir versin. İnşaallah, torpaqlarımızı alarıq, buna hər an hazırıq. Emin 19 yaşı ola-ola döyüşə qatılıb, aprelin 1-də evdə olmalı idi, amma buna baxmayaraq, ata-anamı yox, Vətən uğrunda döyüşü seçib".

Atası İmran Bağırov: "Yalnız və yalnız müharibə yolu ilə torpaqlarımızın geri qaytarılması mümkün olacaq. Heç kim də fikirləşməsin ki, siyasət və diplomatik yollarla torpaqlarımızı qaytara biləcəklər. Müharibəsiz torpaqlarımızın geri qaytarılması mümkün deyil. Ermənilər heç vaxt aldıqları torpaqları xoşluqla geri qaytarmazlar. Bundan sonra yüz il də görüşlər keçirib danışsalar, torpaqların geri qaytarılması mümkün deyil.

Mən Eminlə həmişə fəxr eləmişəm. Emin bu xalqı, bu torpağı qorumaq üçün şəhid olub. Bu, hər adama nəsib olmur.

Heç vaxt heç kəsə ağız açıb, kömək istəməmişik, az olub az yemişik. çox olub çox yemişik. İndi də heç vaxt

öz problemlərimizə görə kimsəyə müracət etmərəm, elə bilərəm, Emin məndən narazı qalar, özümü onun şəhid adından istifadə etmiş kimi hiss edərəm. Bir də ki, bu qapıda 40 gün mərasim olub, hamı gördü Eminin ailəsinin yaşadığı evi...

Eminin kasıb, amma çox qürurlu, səviyyəli bir ailənin övladı olduğu onsuz da onun simasından görünürdü, şəhid olmaq arzusundan da bəlliydi. O, elə danışırdı ki, mən elə bilirdim o mənim atamdır. Emin həmişə gülürdü - həyata gülürdü, Dünyaya gülürdü. Ona gülməyi biz öyrətmişdik. Ölüm əbədi həyatdır. Mən elə bilirdim ki, ata-anasız yaşaya bilmərəm, amma Emin öz ölümü ilə məni bərkitdi. Quran oxuyanda deyirdim ki, ey uca Allahım, mən şəhid olum, ancaq oğlumu mənim əvəzimə apardı. Emin əbədiyyətdir, hamı gedəcək, şəhidlər qalacaq. Şəhidlik elə bir məqamdır ki, on dəfə olimpiya çempionu olsan da, yenə ondan üstündür.

Şəhid atası olmaq qürurvericidir. Dünyasını dəyişən yeganə şəxslər şəhidlərdir ki, bir neçə dəfə şəhid kimi ölməyi Allahdan arzu edirlər. Eminin şəhidliyindən sonra insanların göstərdikləri diqqət və münasibət olduqca qürurvericidir. Binəqədi Bələdiyyəsi tərəfindən bu yaxınlarda Eminin ad günü qeyd edildi. Bələdiyyədə fəaliyyət göstərən Aytac xanımın sözügedən tədbirin keçirilməsində çox böyük zəhməti oldu. Bizim qəlbimiz yalnız bu cür diqqət və məhəbbət nəticəsində rahatlıq tapır. Diqqətsizlik gördükdə istər-istəməz narahat oluruq. Həmçinin

şəhidlik ab-havasının cəmiyyətdə qorunub saxlanması şəhid ailələri üçün olduqca zəruridir".

Xatunzadə xanım: "Mənə baxacağına söz vermişdi, ancaq gözüyaşlı qoydu. Evimizə gələn hərbçilər danışırdı ki, Emin düşmənə gülləni yerə uzanıb "zalım ermənilər sizə lənət olsun", deyərək qışqıra-qışqıra atırmış. Mənə dedilər ki, nənə ağlama, sənin nəvən bir əsgərimizin yerinə 10 erməni öldürürdü.

Dostlarının birinə də demişdi ki, "Mən xidmətimi başa vuranda şəhid olacam». Ola bilsin ki, bəsirət gözü açıq olub balamın".

Eminin anası Sədaqət xanım:

"Allah haqqı, səsi hələ də qulağımdadır. Oğlum bizi qorudu, sözünə əməl etdi, amma olmur, bu dərdə dözmək olmur. Bir təsəllim var, şəhid olmaq öz arzusu idi, öz arzusuna çatıb. Allah verdiyini bir gün alır. Neyləyə bilərik, Eminimi də şəhid elədi, ən uca məqamı verdi övladımıza. Şəhidlərin anasına Allah əvvəlcədən səbir verir, mənə də səbir verdi".

***

Eminin 40 mərasimindən bir müddət sonra bir çox təşkilatlar tərəfindən onun xatirəsinə həsr olunmuş tədbirlər keçirilib. Onlardan biri haqqında məlumat vermək istəyirəm.

2016-cı il iyunun 25-də Binəqədi rayon MKS-nin 2 say-

lı kitabxana-filialında "Əyilməzdir polad kimi Azərbaycan əsgəri" başlığı altında tədbir keçirilmişdi. Tədbir 26 iyun Azərbaycan Respublikası Silahlı Qüvvələr gününə və aprel döyüşlərində şəhid olan Emin Bağırovun xatirəsinə həsr olunmuşdu.

Tədbirdə Emin Bağırovun qardaşı Yaqub Bağırov, Binəqədi Mərkəzi Mədəniyyət Evinin direktoru Ş.Səmədov, yazıçı F.Həsənqızı, 179 və 182 saylı məktəbin müəllimələri N. Bayramova, F.Rüstəmli, F.Sarıbəyova, 2 saylı kitabxana-filialın fəal oxucuları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Binəqədi rayon MKS-nin 2 saylı kitabxana-filialının müdiri A.Orduxanova Milli Ordumuzun Azərbaycan Respublikasının müstəqilliyinin rəmzi təminatçısı olduğu haqqında danışıb. Daha sonra şəhidi tanıyan tədbir iştirakçıları Emin Bağırov haqqında xatirələrini bölüşüb. Şəhidin qardaşı Yaqub Bağırov və müəllimləri Emin Bağırovu xoş, lakin kövrək xatirələrlə yad ediblər. Sonra kitabxananın fəal oxucuları şeir kompozisiyası ilə çıxış ediblər. Tədbirin sonunda şəhid Emin Bağırovun xatirəsinə həsr edilmiş guşə və AR Silahlı Qüvvələrinin fotolarından tərtib edilmiş sərgi nümayiş etdirilib

2016-cı ildə Məşhədə, Kərbəlaya gedən zəvvarlar kürəyində Eminin və digər şəhidlərin şəkilləri olan paltarlarla ziyarətə gediblər.

***

2017-ci il aprelin 5-də Eminin il mərasimi idi. Mərasimdə iştirak edən Binəqədi rayon İHB-nin birinci müavini İlqar Süleymanov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon idarəsinin rəisi Novruz Rəhimov, İH-nin şöbə müdirləri Ramiz Göyüşov, Elman Dadaşov, rayon fəalları və şəhidin ailə üzvləri öncə şəhidin məzarını ziyarət etdilər. Sonra ziyarətçilər Binəqədi qəsəbəsində, İsfahani küçəsi 2 ünvanında quraşdırılmış mərasim çadırına gəldilər. Mərasimdə Binəqədi RİH başçısı Xaləddin İsgəndərov və aparatın kollektivi, millət vəkilləri Madər Musayev, Kəmaləddin Qafarov, Azay Quliyev, Ailə, Qadın Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə, təşkilat rəhbərləri, Məşədi Dadaş Məscidinin imamı, ilahiyyatçı hacı Şahin Həsənli, digər ruhanilər və rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər. Mərasimdə hacı Şahin Həsənli moizə edib. Moizənin bir hissəsini diqqətinizə çatdırmaq istəyirəm:

"Şəhidin böyüklüyü bundadır ki, şəhid insanlıq yolunda yanır. Şəhid eqoist insan ola bilməz, mənsub olduğu xalqa, millətə aşiq olan insandır. Allahın da belə insanlardan xoşu gəlir. Allah belə insanlara böyük dərəcə verir. Ona görə də, hədisdə var: "Qanı yerə tökülməndən şəhidin bütün günahları bağışlanır". Şəhid məhşərə daxil olanda

Allahın göndərdiyi peyğəmbərlərin hamısı şəhidin ayağına duracaqlar, şəhidə minnətdarlıq edəcəklər. Görün şəhidlik necə uca məqamdır. Ona görə də heç adam bilmir şəhidin valideynlərinə desin ki, sənə başsağlığı verirəm, ya gözaydınlığı. Düzdür, övlad itkisi ağırdır, hamımızın övladlarımız var, Allah olmayanlara da nəsib eləsin. Amma adam düşünəndə ki, biz bu dünyada nə qədər qalacağıq, çox qalaq 70-80 il. İndi daha ömürlər də qısalıb, ondan sonra qarşıda bizi əbədiyyət gözləyir. Və biz anlayacağıq ki, bizim şəhid qohumumuz, şəhid övladımız qiyamətdə, Cənnətin qapısında dayanaraq, deyəcək ki, yaxınlarıma da şəfaət eləmək istəyirəm, onları da özümlə öz yanıma aparmaq istəyirəm. Şəhid başlayanda şəfaət eləməyə Allah şəhidin duasını rədd eləməyəcək, nə istəsə Allah ona verəcək. Çünki, o, varlığını Allah yolunda verib. Ona görə də, şəhidlik böyük şərafətdir. Şəhidlik böyük bir dəyərdir. Onsuz da hamı dünyadan köçəcək. Bir var xəstəliklə, qızdırma ilə öləsən, bir də var ki, şəhid olasan.

O ləzzət nə ləzzətdi, onu heç kəs dərk eliyə bilməz. Xoş bu adamların halına ki, ömrü belə yaşadılar və bizim şəhid qardaşımız ki, onun məclisində iştirak edirik, bax belə bir şərəfli ömür yaşayıb. Keçən il də mən gəlmişdim, bu il də Allah mənə nəsib elədi. Allahıma həmd edirəm ki, bu dəyərli şəhidin məclisində iştirak edirəm. Böyük bir şərəfdir doğrudan da ki, insan gəlsin şəhid məclisində nəfəs alsın, orda iştirak eləsin. Allaha çox şükür edirəm ki, Allah bunu bizə qismət elədi, onun ruhu buradadır,

şübhəsiz ki, bizi görür, bizi müşahidə eliyir. Ondan istəyirəm ki, Qiyamətdə Allah ona izn verəndə ki, şəfaət eləsin, bizim də əlimizdən tutsun, bizim üçün də dua eləsin ki, mən özümə deyirəm, mən kimi üzüqara bəndəsini də Allah onun vasitəsiynən bağışlasın. Şəhidlərin Ruhuna fəda olum.

Allah yolunda öldürülən insanlar – şəhidlərdir. Şəhidlərə çox mükafatlar var. Buyurur ki, Allah bütün pərdələri onun gözünün önündən çəkəcək, Allahın camalını müşahidə eliyəcək. Söhbət maddi gözdən və maddi görməkdən getmir. Söhbət Allahın camalına qərq olmaqdan gedir. Bu nəyin nəticəsidir? Çünki, şəhid özünü insanlara hədiyyə eliyir. Şəhidliyə gedən yol fədakarlıqdan başlanır. Şəhidlik ölüm deyil, şəhidlik bir həyat tərzidir. Şəhid düşüncəsi bir yaşam tərzidir.

Şəhidlərin ayaqlarının tozu bizim üçün dəyərlidi, ona görə də, onların məclisində iştirak eləmək şəxsən mənim üçün böyük şərəfdir. Bu şərəfə görə Allaha həmd eliyirəm. Bir daha onun valideynlərinin qarşısında baş əyirəm, Allah onları salamat eləsin. Şəhid valideyni Qiyamətdə məncə şəhidnən eyni məqamda olacaq. Çünki onu o tərbiyə eliyib cəmiyyətə təhvil verib.

Aprel döyüşləri Azərbaycan xalqının inamını özünə qaytardı və sübut elədi ki, Azərbaycan xalqı bu işğalnan barışmayacaq.

Aprel döyüşləri tariximizin ən şanlı səhifəsidir və bu itkilər heç şübhəsiz ki, bir gün Qarabağımızın azad olun-

masası ilə nəticələnəcək.

Allah rəhmət eləsin. Allah ruhunu şad eləsin. Allah bizi şəhidlərimizdən, şəhidlərimizi də Kərbəla şəhidlərindən ayrı salmasın".

***

Eminin ilindən sonra İmran kişi yenə hərbi hissəyə getmişdi. Hərbi hissədə XTQ Aprel döyüşlərində həlak olanların adına bağ salmışdılar. Orda Eminin adına da ağac əkiblər. Emini hamı çox istəyirdi.

Eminin il mərasimindən sonra da Bakıda onun xatirəsinə həsr olunmuş bir sıra tədbirlər keçirildi. Əziz oxucularım, o tədbirlərin bir neçəsini diqqətinizə çatdırmaq istəyirəm.

2017-ci il aprelin 5-də Biləcəri qəsəbəsindəki Milli Qəhrəmanlar Parkında 179 saylı məktəb Aprel şəhidlərinin anım gününə həsr olunmuş tədbir keçirdi. Tədbirdə şagirdlər Aprel şəhidlərindən 179 saylı məktəbin məzunu Fəxrəddin Qurbanlı və 182 saylı məktəbin məzunu Emin Bağırovun xatirəsinə həsr olunmuş bədii kompozisiya təqdim etdilər.

2017-ci il mayın 24-də "Kaspi" Geosiyasi Araşdırmalar Mərkəzi İB AR Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının layihəsi çərçivəsində 182 saylı tam orta məktəbdə "Mənim məktəbim" adlı tədbir keçirib. Tədbirdə məktəb rəhbərliyi, müəllimlər, valideynlər, şagirdlər iştirak edib.

Tədbirdə 182 saylı məktəbin tarix müəllimi Yəhya Tağıyevin (Daştəpəli) Emin Bağırova və Fəxrəddin Qurbanlıya həsr etdiyi "İki ömür bir kitab" kitabının təqdimatı da olub. Kitabda hər iki şəhidin olduqca az, lakin əbədiyaşar ömür yolları haqqında məlumatlar və xatirələr yer alıb. Tədbirin sonunda kitab Emin Bağırovun qardaşı Yaqub Bağırova təqdim olunub.

2017-ci il oktyabrın 12-də Bakının Binəqədi RİH və Səfərbərlik və HXÇ üzrə DX-nin təşkilatçılığı ilə "Vətənin müdafiəsinə hazıram!" adlı tədbir keçirilib. Tədbirdə Cocuq Mərcanlıya həsr olunmuş video rolik nümayiş olunub.

Tədbirdə Xidmətin İdarə rəisi polkovnik Y.Mirzəyev, Respublika Əfqanıstan Veteranları İB-nin sədri M.Vəliyev və Az. Res-nın Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, "Tərxis Olunmuş Hərbçilərin Gənclərini Maarifləndirmə" İB-nin sədri E.Həsənli, daha sonra Binəqədi RİH-in başçısı X.İsgəndərov çıxış edib.

Çıxışlardan sonra Binəqədi RİH-ə təşəkkürnamə, Emin Bağırovun və Fəxrəddin Qurbanlının atasına Az. Res. Səfərbərlik və HXÇ üzrə DX tərəfindən "Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərinə görə" mükafatlar təqdim edilib.

2018-ci ilin aprel ayında Bakı Dövlət Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsi Emin Bağırovun xatirəsinə "Vətən sizə oğul dedi" adlı layihə təşkil etmişdi. BDU-nun əsas zalı tələbələrlə tamam dolu idi. Tədbirdə Eminin həyatı haqqında video çarx göstərilmişdi. Çarxda

Eminin uşaqlıq vaxtından şəhid olanadək bütün həyatı iştirakçılara təqdim olunmuşdu. Tələbələrə Emin haqqında geniş məlumat verilmişdi. Tədbirdə Eminin anası Sədaqət xanım və qardaşı Yaqub iştirak etmişdi. Tədbirdə iştirak etdiyinə görə BDU THİK-nin sədri D.Qənbərov və Layihə rəhbəri N.Cavadzadə tərəfindən Yaqub Bağırova Təşəkkürnamə təqdim olunmuşdu.

2018-ci il sentyabrın 19-da Binəqədi rayonunda "Şəhidlər unudulmur" adlı tədbir keçirilmişdir. Biləcəri qəsəbəsində yerləşən Milli Qəhrəmanlar abidəsinə və Aprel döyüşlərində şəhid olan Emin Bağırov və Fəxrəddin Qurbanlının məzarlarına ziyarət təşkil olunmuşdur.

2018-ci ilin oktyabrında Kərbəlaya gedən ərbəin zəvarları üçün Mübariz İbrahimovun, Emin və Allahverdi Bağırovların adına xidmət düşərgələri qurulmuşdu. Yol boyu Kərbəlayadək hər kilometrdən bir üzərində şəhidlərimizin şəkilləri olan banerlər dirəklərə bərkidilmişdi və neçənci kilometrdə hansı xeymənin olduğu yazılmışdı. Xeymələrin üstündə "Qarabağ İslam torpağıdır, İslam sərhəd tanımır" yazılmışdı. Xeymələrin ön tərəfinə və içərisinə Qarabağ şəhidlərinin şəkilləri vurulmuşdu. Xocalı qətliamına həsr olunmuş fotosərgi təşkil olunmuşdu. Xeymələrin üzəri və içərisi Azərbaycan və İran bayraqları ilə bəzədilmişdi.

Mehran sərhəd keçid məntəqəsindən keçən İmam Hüseyn (ə) qonaqları üçün (Həmədan şəhərinə çatmamış) Bahar şəhərinin girəcəyində şəhid Allahverdi Bağırov adına xidməti düşərgə qurulmuşdu. Burada zəvvarların

istirahəti üçün yer, ehsan süfrəsi və tibbi xidmətlər mövcud idi.

Şələmçə sərhəd keçid məntəqəsindən keçən zəvvarlar üçün isə, Həmədan şəhərinin girəcəyi, Pəyame Nur Universitetinin qarşısında, imam Həsən (ə) meydanında şəhid Emin Bağırov adına 24 saat fəaliyyətdə olan xidməti düşərgə - xeymə qurulmuşdu. Burada da həmçinin İmam Hüseyn (ə) qonaqlarının istirahəti və rahatlığı üçün yer və ehsan süfrəsi - yemək (sübh, nahar, şam), çay, pulsuz tibbi xidmətlər və pulsuz WiFi sistemi təşkil olunmuşdu.

2019-cu il martın 31-də şəhid Emin Bağırovun xatirəsinə həsr olunmuş "karate do şotokan" üzrə Binəqədi qəsəbəsinin 1-ci açıq çempionatı keçirilmişdir. Çempionatda şəhid Emin Bağırovun atası İmran Bağırov, YAP Gənclər Birliyinin sədr müavini, Binəqədi qəsəbə Bələdiyyəsinin sədri A.Əliyeva, YAP Binəqədi RT GB sədr müavini A.Əliyev, Binəqədi qəsəbəsi GB sədri A.Aslanov, sədr müavini N.Xankişiyev iştirak etmişdir.

2019-cu il aprelin 2-də Binəqədi RİH, Səfərbərlik və HXÇ üzrə DX-nin birgə təşkilatçılığı, Binəqədi rayon Gənclər və İdman İdarəsi, YAP Binəqədi rayon təşkilatı gənclər birliyi üzvlərinin iştirakı ilə Aprel qələbəsinin 3-cü ildönümü çərçivəsində Emin Bağırovun məzarı ziyarət edilmişdir. Binəqədi rayon İHB aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Ş.Gülverdiyev, Səfərbərlik və HXÇ üzrə DX-nin Binəqədi rayon İdarəsinin rəisi R.Əliyev, Binəqədi qəsəbə bələdiyyəsinin

sədri A.Əliyeva, Binəqədi RİH-də təcrübə keçən könüllülər-bir qrup fəal gənc, eləcə də şəhidlərin valideynlərinin iştirakı ilə Emin Bağırovun xatirəsi anılmış, ziyarət edilərək məzarı önünə əklillər qoyulmuşdur.

2019-cu il aprelin 4-ü Azərbaycan QMVƏŞAİB-in Binəqədi rayon filialının təşkilatçılığı ilə şəhid Emin Bağırovun Binəqədi kəndindəki məzarı ziyarət olunmuşdur.

2019-cu il aprelin 4-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Binəqədi rayon MKS-nin 6 saylı kitabxana - filialında Emin Bağırovun xatirəsinə həsr edilmiş "2 Aprel Tarixi Qələbənin başlanğıcıdır" adlı guşə təşkil olunmuşdu. Kitabxanaçı X.Qəhrəmanova 182 saylı orta məktəbin müəllim və şagird kollektivi ilə birlikdə Emin Bağırovun məzarını ziyarət etmiş və məzarın üzərinə gül dəstəsi qoymuşdular.

2019-cu il aprelin 12-də Binəqədi rayonu 179 saylı məktəbdə Fəxrəddin Qurbanlının və Emin Bağırovun xatirəsini əbədiləşdirmək və şagirdlərdə vətənpərvərlik ruhunun, elm və təhsilə rəğbət hissinin yüksəldilməsi məqsədilə məktəbin ən nümunəvi iki sinfinə - 10b və 8ə siniflərinə həmin qəhrəmanların adı verilmişdi. 10b sinfi şəhid Fəxrəddin Qurbanlı adını, 8ə sinfi isə Emin Bağırov adını daşıyır. Məktəb rəhbəri Bayaz Novruzova şəhidlərin adını daşıyan lövhələri siniflərə təqdim edərək onlara bu adları hər zaman doğrultmağı tövsiyə etmişdi.

2019-cu il aprelin 14-də paytaxtın Binəqədi qəsəbəsində, Emin Bağırovun yaşadığı küçədə Məşədi Dadaş

Məscidinin dini icması və "Mesenat" Xeyriyyə Cəmiyyəti tərəfindən təşkil olunmuş ağacəkmə aksiyası keçirilib. Aksiya küçənin ətrafındakı boş ərazilərdə təşkil olunub. Aksiyada məscidin imamı, ilahiyyatçı hacı Ş.Həsənli, yerli bələdiyyə sədri və Binəqədi RİH-in nümayəndələri iştirak ediblər.

Hacı Ş.Həsənlinin dediyinə görə, Məşədi Dadaş məscidinin dini icması mütəmadi olaraq belə ictimai aksiyalar təşkil edir. Belə aksiyaların keçirilməsindən məqsəd gənclərimizə ətraf mühitin qorunması məsuliyyətini aşılamaqdır.

2019-cu ilin 4-5 may tarixlərində Az. Res. Gənclər və İdman Nazirliyinin və Azərbaycan Kung-Fu Federasiyasının birgə təşkilatçılığı ilə Sərhədçi İdman Olimpiya kompleksində Kung-Fu üzrə XXVII Azərbaycan çempionatı keçirilib. Çempionatda FHN əməkdaşı T.Mikayılov 65 kq çəki dərəcəsində 4 rəqibinə qalib gələrək 1-ci yerə layiq görülüb. O, bu qələbəsini dostu, şəhid Emin Bağırova həsr edib.

MMA idman növü üzrə Dünya çempionumuz Əli Hüseynov İranli rəqibi ilə Sərhədçi İdman Mərkəzində keçirdiyi döyüşünü şəhid Emin Bağırova həsr edib.

Bu gün ölkəmizin hər yerində Qarabağ və Aprel döyüşlərində şəhid olan əsgərlərimizin anım mərasimləri keçirilir.

***

2020-ci il iyulun 15-i Emin Bağırovun ad günü idi, 24 yaşı tamam olurdu. May ayının axırları idi, Yaqub Eminin məzarının arxa planındakı rəsmi yeniləmək istəyirdi, çünki rəsm yağışdan, küləkdən, Günəşin təsirindən bir az solmuşdu. Yaqub dostları vasitəsilə gənc rəssam Əliyev Afiq Vahid oğluna müraciət elədi. Afiq 22.12.1995-ci ildə Şəmkir rayonunun Sabirkənd kəndində anadan olub. Emin Bağırovla şəxsi tanışlığı olmayıb. Emini, şəhid olandan sonra, iki xeyirsevər dostu sayəsində tanıyıb. Dostları ona təklif etmişdilər ki, Eminin məzarının arxa plan rəsmini yenidən işləsin.

Yaqub işçilərlə danışıb köhnə rəsmi sildirdi, yerini yeni rəsm üçün hazır vəziyyətə gətirdi, məzarın ətrafında təmir işləri gördürdü.

Afiq işləri çox olduğundan bir neçə rəssam tanışına bu işdə ona kömək etmələri üçün müraciət etdi. Görəcəkləri iş xeyriyyə məqsədli olmasına baxmayaraq, o rəssamlar Afiqdən görəcəkləri işin müqabilində pul istədilər. Afiq məyus halda emalatxanaya döndü, yarımçıq qalan rəsmi tamamlamağa başladı. Amma çox yorğun olduğundan rəsmi tamamlaya bilmədi, işi yarımçıq qoyub bir az uzandı ki, dincəlsin və yuxuya getdi. Yuxuda gördü ki, əlində palitra və fırça tutub, boş bir kətana baxaraq düşünür. Hiss etdi ki, sağ çiyninə bir əl toxundu, əlini çiynində saxladı və dedi: "Axtardığın rəsm burda deyil. Səncə bu rəsmi sənin həvəsində heç kim çəkə bilməyəcək? Öz əsərini



BİNƏQƏDİ RAYON GƏNCLƏR VƏ İDMAN İDARƏSİ
"ARKTİKA" İDMAN KLUBU
DİPLOM
"UŞU" idman növü üzrə "ARKTİKA" idman klubunun açıq birinciliyi
yer tutduğuna görə təltif edilir

FISU
DİPLOM
"Gəncdik" Tələbə İdman Cəmiyyəti
AzTU-nun İdman Klubu
Təltif edir
"QURBAN BAYRAMI"NA
həsr olunmuş
"KİKBOKS" İdman növü
üzrə ənənəvi turnirdə
çəkisi kq olan idmançılar
arasında yer tutduğuna görə
AzTU-nun
İdman Klubunun sədri
S.S. Rzayev
BAKI - 2017

VƏTƏN



özünə etibar et." Emin əlini çiynindən çəkdikdən sonra Afiq dönüb ona baxdı. Eminin əli belində xoş təbəssümlə uzaqlaşdığını gördü. Yuxudan oyandı, xeyli vaxt yuxunun təsirindən çıxa bilmədi. Səhərisi gün isə Eminin dediyi kimi, öz işini özünə etibar edərək axtardığı əsəri çəkmək üçün Eminin məzarına gəldi və şəhidin ona etibar etdiyi rəsmi çəkmək üçün hazırlıq işləri gördü. İyunun 9-da Afiq Eminin döyüşdüyü və şəhid olduğu Talış yüksəkliyini və Eminin rəsmini şəkməyə başladı. 40 günə işi tamamladı, Eminin ad günündə rəsm hazır idi.

İyulun 15-də həmişə olduğu kimi yenə də Eminin məzarını ziyarətə ailəsi və yaxınları ilə bərabər Binəqədi kəndinin Bələdiyyə işçiləri, Dini icmanın üzvləri, ATV kanalından nümayəndələr və s. insanlar gəlmişdilər. Eminin məzarına gül-çiçəklər qoyulmuş və ruhuna dualar oxunmuşdu.

Bu gün bütün Binəqədi camaatı həm Eminlə, həm də digər 3 şəhidi ilə fəxr eləyir. Onlar bütün Binəqədi camaatının qürur yeri və qəhrəmanlarıdırlar.

Bu gün hər tərəfdən – rəsmi orqanlardan, hərbçilərdən, qonşulardan, ali məktəblərdən Eminin ailəsinə böyük hörmət və diqqət var. Hamısı Eminin ailəsinə xüsusi hörmət və rəğbətlə yanaşırlar.

2020-ci il Novruz bayramından bir neçə gün sonra mən də xalam oğlanları Cavid və Hikmətlə Eminin ailəsini ziyarət etdik. Evlərində, Emin üçün ailəsi tərəfindən düzəldilmiş guşədə Eminin dostları tərəfindən düzəldilmiş maketi var, sanki canlıdır. Otağa daxil olanda ilk

diqqəti o maket çəkir, sanki Emin həmişəki gülümsər üzü və xoş təbəssümü ilə qonaqlarını salamlayır. Guşədə Eminin "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı, müxtəlif idman yarışlarından aldığı diplomları, fəxri fərmanları, medalları, fotoşəkilləri, hərbi forması, haqqında yazılan kitablar və s. yer alıb.

Əziz oxucularım, onu da qeyd etmək istəyirəm ki, Emin elə bir şəhiddir ki, onun adını nə zaman çəksən, ya yuxuna gəlir, ya da gözünə görünür. Biz Eminin ailəsi ilə görüşə gedən günün gecəsi Emin anamın yuxusuna gəldi. Anamın danışdığına görə elə Eminin əşyaları olan otaqda qapıdan girib, amma otaq boş olub, əşyaların yerində dayanan anamın üzünə baxıb və gülümsəyib. Mən də kitabı yazan müddətdə nə zaman Eminin adını çəksəm, haqqında çox danışsam, gəlib qarşımda dayanıb, mənə baxıb, gedib.

Bir dəfə Eminin qardaşı Yaqubun vatsap durumunda bir paylaşım gördüm. Bir qadının Yaquba yazdığı mesaj idi. Qadın yazmışdı: "Sizə Emin haqqında bir şey danışmaq istəyirəm. Nə sizi, nə Emini tanımıram. Emini ancaq şəhid olandan sonra şəkillərdən tanıdım. Və inanın ki, bir bacının doğma qardaşına necə ürəyi yanar, balamın canı, ürəyim Eminə o qədər yanıb. Bir gün Emin haqda "Alın yazısı" verilişinə baxdım. Gecə idi, mənə çox təsir etdi, həmin gecə nə qədər ağladım. Gecə yuxumda Emini gördüm. Mənim bu dəqiqə tək bir arzum var – bir oda evim olsun. Gördüm hazırda yaşadığımız binanın qabağında dayanmışam, hava azca qaralır, yuxarı binaya baxıram.

Bu an Emin mənə yaxınlaşır, deyir ki, görürsən yuxarıda iki pəncərədə işıq yanır. Deyirəm: hə. Mənə qayıtdı ki, o işıq yanan evlərdən biri sizin olacaq. Yuxudan tez oyandım, sonra bu haqda anama danışdım. Anam da söz verib ki, biz nə vaxt ev alsaq, Eminin adına ehsan verəcək. Onun ad günündə dayım oğlunun da ad günü idi, ikisinə də Quran oxutduq. Bunu sizə yazmaqda məqsədim yoxdur, sadəcə bilin, qürur duyun istədim".

Bu yaxınlarda Eminin bir əsgər dostu Emini yuxuda görüb və Yaquba yazıb: "Qardaşım görürəm uzaqdadır. Deyirəm, qardaşım, necəsən? Deyir sağ ol. Gəlir yanıma görüşürük, əlini qoyur çiynimə deyir:

- Hər şey yaxşı olacaq, səbirli olun. Görürsən necə rahatam, hər şey yaxşıdı.

Sonra nəsə məni oyatdılar, davamını görmədim".

Bu olanlar şəhidlərin diri olduqlarının sübutu deyilmi? Şəhidlərin ölüm günü yoxdur, onların ancaq doğum günü var.

Ancaq müqəddəs amallar uğrunda çarpışan, qorxu nə olduğunu bilməyən, Vətən və xalq yolunda canını fəda etməkdən çəkinməyən cəsarətli, ləyaqətli insanlar şəhidlik zirvəsinə yüksələ bilirlər. Şəhidlik bütün zirvələrdən uca zirvədir. Bu zirvəyə qalxmaq hər kəsə nəsib olmur.

Torpaqlarımızın harasını sıxsan şəhid qanı çıxacaq. Onlar azan oldular dinmədilər, hər gün 5 dəfə səsləndilər, bayraq oldular enmədilər, ölkəmizin hər yerində ən yüksəklərdə dalğalandılar, şəhid oldular, ölmədilər, azad ruhları hər gün səngərlərdə və işğal olunmuş torpaqları-

mızda dolaşdılar. Bu ölkənin, bu torpağın mərd oğullarının dirisi əsgər, ölüsü şəhiddir.

Bizim rahat yaşamağımız üçün şəhidlərimizin və bütün əsgərlərimizin səngərlərdə nə qədər yuxusuz gecələri, ac günləri olub... Əgər bu gün göy üzü Günəşi bizlərdən əsirgəmirsə, səmalarımız aydın və təmizdirsə, həyatımız öz axarında davam edirsə, uşaqlarımız şən və qayğısız yaşayırsa, bu gözəl günlərin bədəlini ödəyən şəhidlər və Vətənimizin keşiyində dayanan əsgərlər vardır. Vətən üçün canından keçən şəhidlərimiz dünən də varıydılar, bu gün də varlar, sabah da olacaqlar. Ata-babalarımızın qanları, dastanları yurdumuzun hər yerində var.

Şəhidlik – vətənpərvərliyin ən ali məqamıdır. Vətən üçün ölüm həyatın davamı deməkdir. Vətən üçün atılan hər bir addım vətənpərvərlikdən xəbər verir.

Heç bir şəhid anasına "necəsən" deyə soruşma, onların ürəklərinin bir tərəfi qan, bir tərəfi göz yaşıdır. Mən o analara demək istəyirəm ki, ey şəhid anası, sən əsla ağlama, başın dik, gözün pak olsun, göz yaşı axıtma, sənin oğlun torpaq altında, amma cənnətin baş köşəsindədir, bunu unutma.

Şəhidlər dəfn edilməzdən öncə yuyulmazlar, çünki onlar təkrar dirildiklərində Allahın hüzuruna yaraları ilə çıxarlar. Hər yara, hər qan ləkəsi cənnətin xəbərçisidir.

Hz. Məhəmməd (s.ə.s) buyurmuşdur: "Cənnətə ilk girən şəxs şəhid olacaq". Şəhidlər məhşərə daxil olanda peyğəmbərlər ayağa qalxar.

***

Şəhidlərə verilən 6 böyük mükafat vardır:

1. Şəhidin tökülən ilk qanı ilə bərabər bütün günahları bağışlanır.
2. Şəhidin şəhid olduğu ilk anda cənnətdəki məqamı özünə göstərilir.
3. Şəhid qəbrinə dəfn edildikdən sonra, qəbir əzabından qurtulur.
4. Şəhid ən böyük qorxudan (cəhənnəm qorxusundan) əmin olur.
5. Axirət günü şəhidə iman paltarı geydirilir.
6. Hurilərlə evləndirilir və qohumlarından 70 insan haqqında şəfaəti qəbul olunur.

Alçaq qatillərin qıydıqları canların hesabı bu dünyada sorulmasa belə, məhşərdə yaxalarına yapışacaq böyük bir millətimiz var bu torpaqlar üzərində. Şəhidlər xalqın kimliyini, mənliyini qoruyan insanlardır. Azərbaycanın bugünkü, həm də gələcək nəsilləri şəhidlərimizin qəhrəmanlıqlarından nümunə götürəcəklər və azadlığımızı, müstəqilliyimizi qorumaq üçün daim mübarizə aparacaqlar.

SON SÖZ

2018-ci il mayın 21-dən 27-nə qədər ordumuzun həyata keçirdiyi Naxçıvan əməliyyatı nəticəsində azad olunmuş 11 min hektar torpaqlarımız məhz uğurlu Aprel döyüşlərinin davamı idi. Xalqımız hər zaman inanırdı ki, gec-tez biz işğal altında olan torpaqlarımızı mütləq azad edəcəyik.

2020-ci il iyulun 12-də Ermənistanın silahlı qüvvələri artilleriya və iriçaplı silahların köməyilə Tovuz rayonunun Ağdam kəndi istiqamətində Azərbaycan silahlı qüvvələrinin Azərbaycan - Ermənistan sərhədindəki mövqelərinə hücuma keçdilər. Bu hücum nəticəsində Azərbaycanın 11 hərbçisi həlak oldu, bir neçəsi yaralandı, həmçinin dinc sakinlər həyatlarını itirdilər, mülki obyektlərə, kəndlilərin evlərinə və xəstəxana binasına ciddi zərər yetirildi.

Hücum üçün məhz Tovuzun istiqamət seçilməsinin səbəbi o idi ki, Ermənistanla dövlət sərhədi aktiv hərbi münaqişə zonası hesab olunmadığından, orada Azərbaycan hərbi qüvvələrinin əsas hissələri cəmləşməyib. Hücumun istiqamətini müəyyənləşdirən amillərdən biri də sözügedən bölgənin strateji mövqeyi və Azərbaycanın enerji və nəqliyyat infrastrukturunun əhəmiyyətidir. Ermənistan, Azərbaycanın neft infrastrukturunun özünün əsas hərbi hədəflərindən biri olduğunu gizlətmirdi. Bundan əlavə,

Ermənistanın hərbi-siyasi rəhbərliyinin məqsədi bölgədə yeni gərginlik mənbəyi yaratmaq və münaqişənin coğrafiyasının genişləndirilməsi yolu ilə özünün də iştirakçısı olduğu KTMT-nin (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı) müdaxiləsinə bəraət qazandırmaq idi. Bu hücumun qarşısı tezliklə alınmışdı.

27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələri genişmiqyaslı təxribat törədərək Azərbaycan ordusunun cəbhəboyu zonada yerləşən mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutdu.

Ermənistanın növbəti təxribatına Azərbaycanın Şanlı Ordusu əks-hücumla cavab verdi. Bütün ölkə boyu Azərbaycanın igid oğulları qeydiyyatda olduqları Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə idarələrə gedib torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmək istədiklərini bildirirdilər. Döyüş bölgələrində gənclərimizin vətənpərvərlik və qəhrəmanlıq xəbərlərini eşitdikcə həm sevinir, həm də qürur duyurduq.

Qarşıdurmalar qısa müddətdə sürətlə alovlanmış və İkinci Qarabağ müharibəsinə çevrilmişdi.

28 il idi ki, Azərbaycan xalqı Qarabağ həsrəti ilə yaşayırdı. 1990-cı illərdə işğal olunan torpaqlar uğrunda bu gün 1990-2000-ci illərdə doğulan gənclər və Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri döyüşdülər. Döyüş əməliyyatları ilə Azərbaycan Ordusu Vətən naminə gözünü qırpmadan canını fəda edəcəyini bir daha göstər-

di. Bu döyüşlər göstərdi ki, Azərbaycanın əsgərləri, zabitləri Vətən uğrunda canlarından keçməyə hər zaman hazırdırlar və həqiqətən də, Vətən uğrunda canlarından keçib şəhidlik zirvəsinə ucaldılar.

Ali Baş Komandanımızın qətiyyətli addımları, müzəffər ordumuzun gücü düşməni geri çəkilməyə məcbur etdi. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-dən başladığı zəfər yürüşü 44 gün ərzində 28 ilin həsrətinə son qoydu, Ermənistanın təcavüzkar silahlı qüvvələrini darmadağın etdi, işğal altında qalan torpaqlarımızı əsl sahibinə qaytardı. Siyasi, strateji, eyni zamanda, çox böyük mənəvi dəyər daşıyan Qarabağımız (Xocavənd, Xocalı, Şuşa, Ağdərə, Xankəndi) və ətrafındakı 7 rayon (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) işğaldan azad edildi. 28 il ərzində əzəli-əbədi torpaqlarımızı işğal altında saxlayan təcavüzkar Ermənistan hakimiyyətinin nəhayət ki, qanunsuz əməllərinə beynəlxalq hüquq çərçivəsində son qoyuldu. Tarixi ədalət bərpa olundu!

2020-ci il, noyabrın 10-u Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıldı. İkinci Qarabağ müharibəsi Azərbaycan ordusunun qələbəsi ilə başa çatdı.

Böyük qələbəni tariximizə al qanlarıyla yazan şəhidlərimizin, 20 yanvar, 1-ci Qarabağ müharibəsi, Aprel, Naxçıvan və Tovuz şəhidlərinin intiqamı alındı. Azərbaycan özünün hərbi və siyasi gücünü sübut edərək tarixi qələbə qazandı. 28 il işğal altında qalan tarixi torpaqlarımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi

ilə Şanlı Ordumuz tərəfindən 44 günə azad edildi. Beynəlxalq təşkilatların 28 il ərzində edə bilmədiklərini Azərbaycanın Müzəffər Ordusu Ali Baş Komandanımızın rəhbərliyi ilə qısa müddətdə həyata keçirdi.

Bu zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Prezidentimiz İlham Əliyev və Şanlı Ordumuz həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərimiz Heydər Əliyevin arzusunu reallaşdırdı.

Prezidentimiz İlham Əliyev xalqa müraciətində belə dedi: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Qarabağı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, Dünya azərbaycanlıları!

Dağlıq Qarabağ Azərbaycan torpağı, beynəlxalq səviyyədə tanınan ərazimiz olmaqla yanaşı, ədalət məsələsidir, Azərbaycanın milli qürur məsələsidir".

Azərbaycanın son 200 illik tarixində ilk dəfə müstəqil dövlətimiz mənfur, işğalçı Ermənistan və onun ordusu üzərində şanlı qələbə qazandı. Bu qələbəni təsdiq edən sənədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev imza atdı. Bu, Prezidentimizin uğurlu diplomatiyasının, müasir standartlara cavab verən ordu quruculuğu siyasətinin nəticəsi idi. Bu tarix Azərbaycan xalqının kimliyini, onun dövlətinin gücünü, nüfuzunu dünyaya bəyan etdi.

Biz bir daha sübut etdik ki, qədim tarixi ənənəyə ma-

lik, torpağına və Vətəninə bağlı, öz torpaqlarının hər qarışı uğrunda şəhid olmağa hazır olan millətik. Xalqımızın birliyi sarsılmazdır. Müzəffər Ali Baş Komandanın ətrafında bir yumruq kimi birləşərək Vətənimizi mənfur düşməndən azad edə bildik.

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin tarixi bəyanatı ilə 44 günlük İkinci Qarabağ müharibəsinə son qoyuldu. Bəyanat birmənalı şəkildə Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfərini, düşmən Ermənistanın isə rəzil şəkildə məğlubiyyətini təsbit etmiş oldu. Azərbaycan Ordusu gücünü bütün dünyaya göstərdi.

Bu böyük qələbə eyni zamanda Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı.

Ermənistanın müdafiə naziri David Tonoyan mətbuata verdiyi müsahibəsində bildirmişdi: "Biz çox böyük bir qüvvəyə - super silahlı Azərbaycan ordusuna qarşı vuruşduq".

Qardaş Türkiyənin və Pakistanın siyasi və mənəvi dəstəyi bu Qələbənin qazanılmasında çox böyük rol oynamışdır. Çünki Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" sözləri bir çoxlarının bu münaqişəyə müdaxilə cəhdlərini alt-üst etdi. Bütün bu dövr ərzində həm Pakistanın Prezidenti, həm Türkiyənin Prezidenti, həm nazirləri, həm vəzifəli şəxsləri, həm də bütün türk xalqı daim bizə öz dəstəyini ifadə etmişlər. Qardaş Türkiyədən bizə dəstək

və həmrəylik nümayişi xalqımız tərəfindən çox yüksək qiymətləndirilir.

Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar mətbuata verdiyi müsahibəsində deyib: "Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında iki ölkə arasındakı qardaşlıq əlaqələri gündən-günə güclənir. Azərbaycan Silahlı Qüvvələrinin öz torpaqlarını işğaldan qurtarmaq üçün apardığı 44 günlük əməliyyatda göstərdiyi qəhrəmanlıq və cəsarət təqdirəlayiqdir. Əməliyyat 44 günə bitdi, amma əmin olun ki, 44 il danışılacaq. Gəlinən nöqtə bizi son dərəcə xoşbəxt etdi. Bu hərəkat bir oyanışdır. Azərbaycan Ordusu gücünü bütün dünyaya göstərdi. Azərbaycan tarixinə qızıl hərflərlə yazılası müvəffəqiyyət əldə etdi. Kədər və xoş günlərdə bir olduğumuz azərbaycanlı qardaşlarımıza haqlı işlərində dəstək olmağa, hər zaman bir və bərabər olmağa davam edəcəyik".

Azərbaycan Silahlı Qüvvələrinin öz ərazilərini işğaldan azad etməsi ilə bağlı bayram tədbirləri Azərbaycanda olduğu kimi, Ankarada, İstanbulda, İzmirdə - bütün Türkiyədə qeyd edildi. Hər kəs göz yaşı içində Azərbaycanın müvəffəqiyyətini öz uğuru kimi qeyd etdi. Bu, qardaşlığımızın və bir millət, iki dövlət olmağımızın nümunəsidir.

Biz bilirik ki, bundan sonra da "Bir millət, iki dövlət" olaraq bu yolla yürüyəcəyik. Beynəlxalq hüquq Azərbaycanın tərəfindədir və Türkiyə hər zaman qardaş Azərbaycan xalqına dəstək olacaq.

28 ilin həsrəti, nisgili artıq sona çatdı. Torpağımıza,

elimizə, obamıza, evimizə qayıdırıq. Nə qədər gözəl və möhtəşəm bir duyğu...! Dönüşümüz o qədər gözəl, təmtəraqlı və möhtəşəm olacaq ki... Xalqımıza belə böyük bir qələbə yaraşır. Bu gün hər bir azərbaycanlı Qarabağlıdır. İnşaallah gün gələr Zəngəzuru, Göyçəni, Basarkeçəri, İrəvanı da geri alarıq.

2020-ci il noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərimizlə - ən yeni tariximizi yazan qazilərimizlə görüşündə deyib: "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq".

Üçrəngli bayrağımız tarixi torpaqlarımızda yenidən dalğalanır. Qələbə günün mübarək, Vətən! Var olsun Ali Baş Komandanımız! Var olsun Qüdrətli, Şanlı, Müzəffər Ordumuz!

Qarabağ Azərbaycandır!

İSTİFADƏ OLUNAN MƏNBƏLƏR

1. Emin Bağırovun ailəsinin danışdıqları və bəzi Google məlumatları
2. Ordu.az saytı
3. AzVision.az saytı
4. Yeniçağ.az saytı
5. azeridefince.com saytı
6. militari.az saytı

MÜNDƏRİCAT

ÖN SÖZLƏR.....3
GİRİŞ.....9
KƏŞFİYYAT.....31
XÜSUSİ TƏYİNATLI QÜVVƏLƏR.....37
SON SÖZ.....126

ETİBAR HƏSƏNZADƏ

MƏN ŞƏHİD OLACAM, ANA

KORREKTOR: ƏMƏL KƏRİMOVA
DİZAYNER: HİKMƏT ƏLİYEV

Yığılmağa verilib:01.12.2020
Çapa imzalanıb: 14.12.2020
Kağız formatı:60x84 1/16
Fiziki çap vərəqi:17
Traj:300
Sifariş:39

Kitab "Bakı Mətbəəsi" ASC-də hazır diopozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.
Ünvan: A.Məhərrəmov küçəsi 4
E-mail: 3_metbee@mail.ru Tel.: 431-40-58

Həsənzadə Etibar Oktay oğlu 07 iyun 1992-ci ildə Daşkəsən şəhərində anadan olmuş, 2010-cu ildə Daşkəsən şəhər Anar Mürsəlov adına 2 saylı orta məktəbi bitirmişdir.

2016-cı ildə Bakı Slavyan Universitetinin Yaradıcılıq fakültəsini bitirib.

Azərbaycan Yazıçılar Birliyi, Avrasiya Sanat Kültür, Edebiyat və Bilim Federasyonu (ASKEF), Türkmen Edebiyatçı və Yazarlar Birliyinin üzvü və İstedadlı Əlillər İctimai Birliyinin fəxri üzvüdür.

"Könlümlə söhbət", "Duyğular dinsin", "Gecikmiş etiraf", "Bir həyat romanı", "Sevgi bəstəsi", "Nurla gəldi, Nurla Yaşadı, Nurla getdi" və "Eşqin heykəli" adlı kitabların müəllifidir.

Prezident təqaüdçüsüdür.

2015-ci ilin sentyabr ayında Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən "İstedad Sorağında" layihəsi çərçivəsində keçirilmiş müsabiqədə seçilmiş əsərləri qalib olub.

Azər.KİVİHİ-nin rəyasət heyətinin qərarı ilə "Qızıl qələm" media mükafatı laureatı, "İlin Vətənpərvər Şairi" media mükafatçısı, "Xəlil Rza Ulutürk" media mükafatı, ASKEF və Qafqaz-Media İB tərəfindən verilən "Vicdanlı qələm", "Qızıl Kitab" mükafatçısıdır.

"Qafqaz-Media" İB və Qafqaz-Media.Az İnformasiya Agentliyinin keçirdiyi sorğuya əsasən "İlin fəal yazarı-Best of the Best", "Heydər zirvəsi", "İlhamlı Azərbaycanım", "Qarabağ - Azərbaycan" və sair diplom və medallarla təltif olunmuşdur.